Xalqın qəzeti!

# Xalq qəzeti

№ 132 (30536) 28 iyun 2024-cü il, cümə

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır | Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti | xalqqazeti.az

### Avropa İttifaqının Azərbaycanın minatəmizləmə fəaliyyətinə dəstəyi



Səhifə ⇨ 3

## Azərbaycanın müdafiə qüdrəti davamlı olaraq yüksəlir

### Prezident İlham Əliyev İtaliya heyətini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 26-da İtaliya Respublikasının müdafiə naziri Quido Krosettonun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.**

Nümayəndə heyətinə İtaliyanın xarici işlər və beynəlxalq əməkdaşlıq nazirinin müavini Edmondo Çirielli də daxildir.

Prezident İlham Əliyev bu günün Azərbaycan-İtaliya əlaqələrinin tarixində əlamətdar olduğunu deyərək, bununla münasibətlərimizdə yeni səhifənin açıldığını, ölkələrimizin artıq hərbi-texniki sahədə də əməkdaşlığa başladığını qeyd etdi.

Dövlətimizin başçısı İtaliyanın çox inkişaf etmiş hərbi-texniki sənayeyə malik olduğunu vurğulayaraq, bu gün təqdim olunan "C-27J Spartan" tipli hərbi nəqliyyat təyyarəsinin Azərbaycana gətirilməsini əlaqələrimizin yüksək səviyyəsinin göstəricisi kimi dəyərləndirdi.

Prezident İlham Əliyev Azərbaycan ilə İtaliyanın bir çox sahələrdə strateji tərəfdaş kimi fəaliyyət göstərdiyini deyərək, Avropa məkanında ticarət əlaqələrimizin böyük hissəsinin İtaliyanın payına düşdüyünü və ticarət dövriyyəmizin 15 milyard dolları ötdüyünü bildirdi. Dövlətimizin başçısı bir çox İtaliya şirkətlərinin Azərbaycanda uğurla fəaliyyət göstərdiyini və bir sıra layihələrdə iştirakını məmnunluqla qeyd etdi.

Neft-qaz sahəsindəki əməkdaşlığımızın təkcə ölkələrimiz üçün deyil, bütün Avropa məkanı üçün önəm daşıdığını bildirən Prezident İlham Əliyev bunun inkişafının təməlində güclü siyasi əlaqələrin dayandığını vurğuladı və "Azərbaycan Respublikası ilə İtaliya Respublikası arasında strateji tərəfdaşlıq haqqında" Birgə Bəyannamənin bu əlaqələrin əsasını təşkil etdiyini dedi.

Dövlətimizin başçısı bu il Azərbaycanda keçiriləcək COP29-a hazırlıqla bağlı da ölkələrimizin sıx təmasda olduğunu vurğuladı.

Azərbaycan Prezidenti əməkdaşlığımızın digər sahələri də əhatə etdiyini deyərək, təhsil sahəsində əlaqələrə toxundu və qeyd etdi ki, İtaliya-Azərbaycan Universiteti faktiki olaraq fəaliyyətə başlayıb, bu universitet üçün hazırda yeni müasir bina və təhsil kompleksi inşa edilir.

Dövlətimizin başçısı əlaqələrimizin bundan sonra da genişlənəcəyinə əminliyini bildirdi.

Qəbula görə minnətdarlığını ifadə edən İtaliyanın müdafiə naziri Quido Krosetto 26 İyun - Silahlı Qüvvələr Günü münasibətilə dövlətimizin başçısına təbriklərini çatdırdı.

Qonaq Azərbaycan Prezidenti ilə əvvəlki görüşünü məmnunluqla xatırladı.

Ölkəmizə böyük nümayəndə heyəti ilə gəlməsinin və İtaliyanın xarici işlər və beynəlxalq əməkdaşlıq nazirinin müavini Edmondo Çiriellinin burada olmasının önəmini qeyd edən Quido Krosetto müdafiə sənayesi sahəsində əməkdaşlığımızın başlanmasından məmnunluğunu bildirdi.

***AZƏRTAC***

## Konstitusiya Məhkəməsinin Plenumu Milli Məclisin buraxılmasının Konstitusiyaya uyğunluğuna dair Prezidentin sorğusuna baxıb



Səhifə ⇨ 6

## O`Braynın "sülh vaxtı"

Səhifə ⇨ 5



## KOB-lar "kiçik" və "orta" adlansa da, çəkicə böyükdür

Səhifə ⇨ 7

## Qədim türk yurdunun söz yaddaşı



Səhifə ⇨ 9

## Avropa–Tokio–Seul üçbucağında müdafiə əməkdaşlığı



Səhifə ⇨ 11

## Erməni iqtidarının referendum şousu

### İrəvanın Avropa İttifaqına qoşulmaq arzusuna sözardı

**Ermənistan yaxın vaxtlarda Avropa İttifaqına daxil olmağın mümkünlüyü məsələsini referenduma çıxara bilər. Bunu ölkə parlamentinin sədri Alen Simonyan Latviyaya səfəri zamanı yerli "LSM.lv" telekanalına müsahibəsində bildirib: "Cəmiyyətimizin qərarı var – Avropanın bir hissəsi olmaq. Bir neçə gün əvvəl parlamentimizdə Ermənistanın Avropa İttifaqına üzv olması üçün referendumun keçirilməsi ilə bağlı müzakirələr getdi. Düşünürəm ki, biz də yaxın gələcəkdə Avropa İttifaqına üzv olacağıq. Referendum olacaq və mən əminəm ki, xalqımız "hə" deyəcək".**

Əslində, A.Simonyanın timsalında Ermənistan iqtidarının referendum məntiqi çox qəribədir. Ölkə Avropa ailəsinin üzvü olmaq istəyirsə, məsələ hökumətin qərarı ilə də təsdiqlənə bilər. Məlumdur ki, sadə ermənilər Avropa İttifaqına qoşulmağa razıdırlar. Bu, heç də şüurlu qərar deyil. Tipik erməni baxışında Avropa məkanının bir hissəsinə çevrilmək "köhnə qitə"yə vizasız gediş-gəliş imkanıdır. İlk primitiv təsəvvür budur.

Digər tərəfdən, Avropa sıravi ermənilər üçün həm də ölkələrindəki ac-yalavac durumdan qaçmaq, iş yeri tapmaq imkanıdır. Bir halda ki, Ermənistanın hazırkı rəhbərliyi yaxındakı bazarla – Rusiya ilə münasibətlərini korlamaq yolunu tutur, heç şübhəsiz, "köhnə qitə", erməni əriyinin satış məkanına çevrilməlidir. Əlbəttə, həmin əriyi satanların piştaxtalarına da.

Sözümüz ondadır ki, referendumsuz da hər şey aydındır. Bəs görəsən, referenduma nə ehtiyac var? Nəticəsi bəlli olan proseslə əlaqədar zərurət bir neçə cəhətdən əsaslandırıla bilər. Birincisi, şoupərəst Ermənistan hakimiyyəti üçün ümumxalq səsverməsi ölkəni reklam etmək niyyətidir. Baş nazir Nikol Paşinyan və tərəfdarları dünyaya ermənilərin, guya, mütərəqqi olduqlarına, bəşəri dəyərlərə hörmətlə yanaşdıqlarına dair mesaj verməyi düşünür.

İkincisi, Avropa ailəsinə qoşulmaq ətrafında şou yaradılması tipik erməni avantürizminin gerçəkləşdirilməsi üçün münbit zəmin deməkdir. İrəvanda belə düşünə bilərlər ki, Aİ-də təmsilçilik əzminin nümayişi diqqəti avantürizmdən yayındıracaq. Deməli, ortada siyasi manipulyasiya üçün tutacaq yer axtarılır.

Vaxtilə N.Paşinyan Avropaya güvənərək, özünün Qərbin dəstəklədiyi inqilabın lideri obrazına arxalanaraq Azərbaycanla danışıqları dalana dirəmiş, "Qarabağ Ermənistandır və nöqtə" kimi sərsəm bəyanat vermiş, Cıdır düzündə şərab içib, belə demək mümkünsə, demokratiyasına sərxoşluq həzzi yaşatmışdı. Lakin 44 günlük müharibənin nəticələri göstərmişdi ki, Qərbin, o cümlədən Avropanın İrəvana real dəstək verə bilmək imkanı yoxdur. Digər tərəfdən, bununla bağlı mexanizm də istisnadır.



Bəs Ermənistan, doğrudan da, AB-yə qoşula bilərmi? Hər halda, Avropanın Ermənistana münasibəti Gürcüstana baxışı qədər deyil. Ancaq ikinci hələ də Avropa ailəsində təmsilçilik hüququ qazana bilmir. Ermənistanın hazırkı iqtidarının təmsilçiləri bunu görməmiş deyillər. Ona görə də referendum keçirib qurumu fakt qarşısında qoymağı düşünürlər.

Erməni iqtidarı ümumxalq səsverməsinin sığortaedici mahiyyətini də anlayır. Hazırda kollektiv Qərbin təhriki ilə anti-Rusiya kampaniyasına qoşulan rəsmi İrəvan Moskvanın əks davranışlarına qarşı immunitet formalaşdırmağı hesablayır. Təxminən belə: baxın, biz Rusiya ilə mübarizə aparırıq, siz də bizi Kremldən qoruyun.

Daha bir məqama diqqət yetirək. Məlumdur ki, Avropa İttifaqına qoşulmağın prosedurları var. Bu prosedurları yerinə yetirmək isə Ermənistanın imkanları xaricindədir. Referendum məsələ ətrafında mənasız hay-küy yaratmaqdır. Bu ajiotaj ona görə formalaşdırılır ki, çatışmazlıqlara göz yumulsun. Elə isə növbəti, daha vacib olan suala keçid alaq.

Ermənistana referendum nəyə görə lazımdır? Cavab birmənalıdır: ölkə öz konstitusiyasını dəyişməlidir. Yalnız bu məsələ ümumxalq səsverməsinə çıxarılmalıdır. Bir ölkənin ki, ana qanunu qonşularına qarşı ərazi iddialarına köklənir, ondan nə gözləyəsən? Belə bir yırtıcı xislətli ölkə Aİ-yə qoşulmalıdırmı? Əlbəttə ki, yox!

Ancaq o da məlumdur ki, dünyada ikili standartlar siyasəti hökm sürməkdədir. Bu ab-hava fonunda bütün prinsip və dəyərlərin bir andaca tapdalanması mümkündür. Görünür, Ermənistan rəhbərliyi də mövcud reallığı gözəl dərk edir. Buna görə də referendum şousu yaradır. Nəhayət, ikili standartlar siyasətinin gündəmdə olduğu, prinsipsizliyin hökm sürdüyü hazırkı şəraitdə demək olmaz ki, Ermənistan Avropa İttifaqına qoşula bilməz.

***XQ-nın analitik qrupu***

# Prezident İlham Əliyevə İtaliya istehsalı olan hərbi təyyarə təqdim edilib



**İyunun 26-da Heydər Əliyev Beynəlxalq Aeroportunda Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevə İtaliya Respublikasının "Leonardo" şirkətinin istehsalı olan "C-27J Spartan" tipli hərbi nəqliyyat təyyarəsi təqdim olunub.**



Tədbirdə İtaliyanın müdafiə naziri Quido Krosetto, İtaliyanın xarici işlər və beynəlxalq əməkdaşlıq nazirinin müavini Edmondo Çirielli, "Leonardo" şirkətinin prezidenti Stefano Pontekorvo iştirak ediblər.

Azərbaycan Respublikasının müdafiə naziri, general-polkovnik



Zakir Həsənov Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevə raport verdi.

Dövlətimizin başçısına təyyarənin taktiki-texniki xüsusiyyətləri, istismarı və digər göstəriciləri barədə məlumat verildi. Bildirildi ki, təyyarə mürəkkəb coğrafi relyef və əməliyyat şəraitində həm müdafiə, həm də mülki müdafiə tapşırıqlarını yerinə yetirməyə qadirdir.

"C-27J Spartan" tipli təyyarədən hərbi nəqliyyat, paraşütçülərin və yüklərin havadan atılması, eləcə də tibbi tapşırıqların yerinə yetirilməsi əməliyyatlarında istifadə olunacaq.

# Cibuti Respublikasının Prezidenti Zati-aliləri cənab İsmail Ömər Gellehə

**Hörmətli cənab Prezident!**

Cibuti Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi çatdırıram.

Azərbaycan-Cibuti dostluq əlaqələri xoş ənənələrə əsaslanır. Bu gün ölkələrimiz arasında münasibətlərin həm ikitərəfli qaydada, həm də beynəlxalq təsisatlar çərçivəsində inkişafı üçün yaxşı imkanlar mövcuddur. İnanıram ki, bu imkanlardan istifadə edərək xalqlarımızın mənafeləri naminə dövlətlərarası münasibətlərimizin genişlənməsi yolunda birgə səylərimizi bundan sonra da uğurla davam etdirəcəyik.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə müvəffəqiyyətlər, dost Cibuti xalqına daim əmin-amanlıq və rifah arzulayıram.

**Hörmətlə,**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 24 iyun 2024-cü il**

# Prezidentin Milli Qəhrəman Natiq Qasımovla bağlı paylaşımı

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sosial media hesablarında Milli Qəhrəman Natiq Qasımovla bağlı paylaşım edib.**




# Birinci vitse-prezident Silahlı Qüvvələr Günü münasibətilə paylaşım edib

**Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva rəsmi instaqram səhifəsində 26 İyun - Silahlı Qüvvələr Günü münasibətilə paylaşım edib.**




**Paylaşımda deyilir:**

"Bütün hərbi qulluqçularımızı və veteranlarımızı təbrik edirəm! Allah Vətən uğrunda həlak olmuş şəhidlərimizə rəhmət eləsin! Uca tanrı doğma Azərbaycanımızı daim qorusun!".

# Dövlət başçısının Asiya İnkişaf Bankının prezidenti ilə görüşü



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 27-də Asiya İnkişaf Bankının prezidenti Masatsuqu Asakavanı qəbul edib.**

Dövlətimizin başçısı Asiya İnkişaf Bankının prezidentinin regionlarımıza səfər etməsini ölkəmizdə gedən inkişaf prosesləri haqqında daha çox məlumatın əldə olunması və Azərbaycanın bu bankla sıx əməkdaşlıq əlaqələrinin davam etdirilməsi üçün yaxşı imkan yaratdığını dedi.

Prezident İlham Əliyev Azərbaycan iqtisadiyyatının həm ölkəmiz, həm də regional əməkdaşlıq üçün önəm daşıyan sahələrinin inkişafına bankın verdiyi dəstəyə görə minnətdarlığını bildirdi.

Dövlətimizin başçısı xüsusilə Azərbaycan təbii qazının nəql edilməsi layihələrinə Avropa maliyyə institutları tərəfindən bəzi maliyyə gecikmələrinin olduğu zaman bu məsələdə Asiya İnkişaf Bankının birmənalı dəstəyini yüksək qiymətləndirdi. Azərbaycan Prezidenti bununla bağlı xatırladı ki, əvvəllər də dediyi kimi, ölkəmiz Avropanı qazla təmin etdiyi halda Avropa bankları maliyyələşməni təmin etməyə hazırlıq nümayiş etdirməyiblər, lakin Asiya İnkişaf Bankı bunu edib.

Prezident İlham Əliyev vurğuladı ki, ölkəmiz inkişaf etdikcə Xəzəryanı qonşu ölkələrlə və digər regionlarla güclü iqtisadi bağlantının yaradılması ilə əlaqədar qarşımızda yeni məqsədlər və çağırışlar durur. Dövlətimizin başçısı bu baxımdan Asiya İnkişaf Bankı ilə mövcud səmərəli əməkdaşlığın davam etdirilməsi məqsədilə yeni istiqamətlərin müəyyənləşdirilməsinin vacibliyini vurğuladı.

Xoş sözlərə görə minnətdarlığını bildirən Masatsuqu Asakava Azərbaycanla Asiya İnkişaf Bankı arasında tərəfdaşlığın 25-ci ildönümündə dövlətimizin başçısı ilə şəxsən görüşməkdən məmnunluğunu ifadə etdi.

Qonaq 2020-ci ildə COVID-19 pandemiyası dövründə videokonfrans formatında görüşü də məmnunluqla xatırladı.

O, dövlətimizin başçısını prezident seçkilərində qələbəsi münasibətilə təbrik edərək gələcəkdə də Azərbaycanın qarşısında duran strateji prioritetlərin reallaşması istiqamətində Asiya İnkişaf Bankı ilə ölkəmiz arasında əməkdaşlığın uğurla davam edəcəyinə ümidvarlığını bildirdi.

Söhbət zamanı yaşıl enerjinin istehsalı və ixracı məsələlərinə toxunuldu.

Dövlətimizin başçısı Azərbaycanda yaşıl enerji zonalarının yaradılması, o cümlədən işğaldan azad olunmuş ərazilərdə hidroelektrik stansiyaların tikilməsinin əhəmiyyətini qeyd etdi, həmin ərazilərimizdə artıq 270 meqavata qədər hidroenerji potensialının yaradıldığını bildirdi və bunun 500 meqavata qədər artırılması imkanlarının müzakirə edildiyini dedi.

Söhbət zamanı Şimal-Cənub dəmir yolu layihəsi ilə bağlı əməkdaşlıq məsələlərinə toxunuldu, Mərkəzi Asiya dövlətlərinin nəqliyyat sahəsində Azərbaycanla əlaqələrinin daha da genişləndirilməsinə dair fikir mübadiləsi aparıldı.

# Azərbaycan lideri BMT Baş katibinin müavinini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 27-də Birləşmiş Millətlər Təşkilatının Baş katibinin müavini və BMT-nin Ətraf Mühit Proqramının icraçı direktoru İnger Andersonu qəbul edib.**

İnger Anderson COP29-un Azərbaycanda keçirilməsi münasibətilə təbriklərini çatdırdı. Bildirdi ki, ölkəmiz qlobal iqlim dəyişiklikləri məsələsinin müzakirəsi baxımından bütün dünyanın toplaşdığı bir mərkəzə çevriləcək. O vurğuladı ki, Azərbaycanda keçiriləcək COP29 çox vacibdir. Belə ki, burada iqlim dəyişikliyi ilə əlaqədar istər maliyyə, istər şəffaflıq hesabatlarının təqdim olunması və digər parametrlər nöqteyi-nəzərindən çox ciddi və önəmli qərarların qəbul edilməsi gözlənilir.

Azərbaycanın COP29-a ev sahibliyi etməsinin həqiqətən də ölkəmizin iqlim dəyişikliyi məsələsində liderliyinin təcəssümü və nümunəsi olduğunu deyən qonaq "Troyka" mexanizminin yaradılmasını çox vacib bir addım kimi dəyərləndirdi və bu müdrik qərara görə təbriklərini çatdırdı.

İnger Anderson əlavə etdi ki, dünya qazıntı yanacağından yeni yanacaq növünə doğru keçid prosesindədir. O dedi ki, buna görə də neft və qaz ixrac edən ölkələrin tənqid olunması cəhdləri ədalətli deyil və şəxsən bunu ədalətli hesab etmir. Qonaq vurğuladı ki, dünyada hər bir insanın bu cür enerji formasına ehtiyacı var.

Azərbaycanın yaşıl iqlim və yaşıl keçid nöqteyi-nəzərindən qəti siyasi iradə nümayiş etdirdiyini vurğulayan İnger Anderson metan öhdəliyi, dekarbonizasiya, neft və qaz sənayesinin modernləşdirilməsi istiqamətində ölkəmizdə atılan addımların önəmli olduğunu qeyd etdi.

Azərbaycanda milli səviyyədə ətraf mühit istiqamətində həyata keçirilən tədbirləri çox təqdir edərək buna görə təbriklərini çatdıran qonaq xüsusilə rəqəmsal əsaslı və "ağıllı kənd təsərrüfatı" konsepsiyasının inkişaf etdirilməsi, tullantıların idarə edilməsi, ətraf mühitin, Xəzər dənizinin ekoloji mühitinin və biomüxtəlifliyin qorunması və digər istiqamətlərdə ölkəmizdə həyata keçirilən tədbirləri, Azərbaycanda bu ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsini yüksək qiymətləndirdi.

İnger Anderson ölkəmizə səfəri çərçivəsində ətraf mühit sahəsində fəaliyyət göstərən gənclər təşkilatı - IDEA-nın ətraf mühit könüllüləri və gəncləri ilə görüşdüyünü, Şirvan milli qoruğunda olduğunu məmnunluqla qeyd etdi.

Rəhbərlik etdiyi qurumla Azərbaycan arasında əməkdaşlığın genişləndirilməsini bildirən qonaq 2026-cı il iyunun 5-də Dünya Ətraf Mühit Günü münasibətilə UNEP-in xətti ilə Azərbaycanda Dünya Ətraf Mühit Gününün keçiriləcəyini və bunun da qlobal miqyasda ətraf mühit baxımından ən vacib tədbirlərdən biri olduğunu dedi.

Xoş sözlərə görə minnətdarlıq edən Prezident İlham Əliyev UNEP ilə Azərbaycan arasında əməkdaşlıqdan, İnger Andersonun regionlarımıza səfər edərək oradakı ekomühitlə tanış olmasından və gənclərlə görüşündən məmnunluğunu bildirdi.

Azərbaycanın neft və qaz ixrac edən ölkə olmasına baxmayaraq, yaşıl enerjiyə keçid sahəsində planlarına toxunan dövlətimizin başçısı dedi ki, bu, siyasi iradəmizin olduğunu göstərir.

Prezident İlham Əliyev 200-ə yaxın dövlətin Azərbaycanın COP29-a sədrliyini yekdilliklə dəstəkləməsini ölkəmizə olan etimadın göstəricisi kimi dəyərləndirdi.

Dövlətimizin başçısı bildirdi ki, Azərbaycan COP29-un sədri olaraq dünya ölkələri arasında körpülərin, etimadın və həmrəyliyin qurulmasına öz töhfəsini verəcək.

Prezident İlham Əliyev vurğuladı ki, ölkəmiz Qlobal Cənubu təmsil edir və 2019-2023-cü illərdə Qoşulmama Hərəkatının sədri olan və Avropa İttifaqı ölkələri ilə də yaxşı əlaqələrə malik Azərbaycan Qlobal Cənubla Qlobal Şimal arasında da iqlim dəyişikliyi mövzusunda həmrəyliyin gücləndirilməsi prosesinə öz töhfəsini verəcək.

Dövlətimizin başçısı qeyd etdi ki, ölkəmiz kiçik ada dövlətlərinin problemlərini prioritet istiqamətlərdən biri kimi müəyyən edib və "Troyka" çərçivəsində digər həmkarlarla bu məsələ ilə bağlı da yaxından işləyir.

Azərbaycanın özünün də iqlim dəyişikliyi problemlərindən əziyyət çəkdiyini deyən Prezident İlham Əliyev qeyd etdi ki, bir dövrdə Azərbaycanda quraqlıq halları, yağıntının miqdarının azalması baş verirdisə, son dövrlərdə yağıntının miqdarının artdığı müşahidə olunmaqdadır.

Söhbət zamanı tullantıların idarə olunması, Xəzər dənizinin ətraf mühit məsələləri, onun suyunun azalması və bu istiqamətdə daha sistemli işin, həmçinin əməkdaşlığın həyata keçirilməsi məsələləri ilə bağlı fikir mübadiləsi aparıldı.

***AZƏRTAC***

# “Qu quşu”nun son nəğməsi...

## Yaxud Qriqoryanın Moskvaya “dirsək göstərməsi”nin altından boylananlar

**El məsələdir: “Araba aşandan sonra yol göstərən çox olar”. Amma bu da bir həqiqətdir ki, bütün hallarda təqsir arabaçının boynunda qalır. Yolunu, səmtini, apardığı yükün həcmini və qoşqudakı atların gücünü məhz o dəqiq bilməli idi. Qəza baş verəndən sonra isə arabaçının təqsiri özündə deyil, başqasında axtarması ilə əsl həngamə başlayır.**

Ermənistan təhlükəsizlik şurasının katibi Armen Qriqoryanın “Rusiya Qarabağı əlimizdən alıb, Azərbaycana verdi” kimi avantürist açıqlamasını məhz təqsirkar arabaçının qaldırdığı vay-şivənlə müqayisə etmək olar. Onun Qarabağ savaşında Ermənistanın məğlubiyyətə uğramasına görə təqsiri Moskvanın boynuna yıxmaq, İrəvanın xarici siyasət kursunda səmt dəyişikliyini əsaslandırmaq cəhdinin arxasında Qərbin barmağının olduğu şübhəsizdir.

A.Qriqoryanın ikitərəfli münasibətlərdə diplomatik qalmaqala səbəb olan məsuliyyətsiz bəyanatı baş nazir və parlamentin spikerinin xəbəri olmadan verdiyini düşünmək sadəlövhlük olardı. Rəsmi İrəvan Moskvaya incikliyini özündə ehtiva edən ismarıclarını məhz təhlükəsizlik şürasının katibinin dili ilə çatdırıb.



### Rusiya bölgədən getmişdi ki?

İrəvan rəsmisinin bəyanatı həm də ortaya maraqlı suallar çıxarır. Məsələn, Qriqoryan otuz il əvvəl Rusiya bölgədə olmasaydı, ermənilər Qarabağı nəinki işğal edə, ümumiyyətlə, Azərbaycanın əzəli torpağına iddia etməyə özlərində cürət tapardılarmı? – sualına aydınlıq gətirsin. Hələ bundan daha maraqlı sual odur ki, əgər Rusiya olmasaydı, hayların iki yüz il bundan əvvəl Qarabağda, İrəvan xanlığınının ərazisində məskunlaşması siyasəti baş tutardımı? İndi Qriqoryan Avropadan aldığı şlyapasını qabağına qoyub bu sualın da cavabını tapmağa çalışsın: onlar Rusiyasız Cənubi Qafqazda “Ermənistan” adlı bir dövləti yarada bilərdilərmi?! Hayların təhlükəsizlik sahəsi üzrə başbiləni XXI əsrin əvvəlində yalnız “Qarabağın əllərindən alındığını” dünyaya car çəkir.

Fəqət Qriqoryanın cavabını özünün də dəqiq bildiyi suallar az deyil. “Rusiya Ermənistana köməyə gəlmədi” deyərkən onun özü də yaxşı dərk edir ki, Rusiya bölgədən heç yerə getməmişdi və iki əsrdir ki, buradadır. Bu müddət ərzində Rusiya daim Ermənistanın yanında və içində olub. Elə bü gün də Ermənistanın Rusiya ilə ticarəti olmadan iki-üç aya aclıqla üzüzə qala biləcəyini hamıdan yaxşı həmin Qriqoryan bilir. Onun dilə gətirməyə cürəti çatmadığı digər reallıq ondan ibarətdir ki, indi, sadəcə, Cənubi Qafqaza Türkiyə gəlib və həm də bu səbəbdən Azərbaycan arxalı və güclü dövlət kimi Ermənistanın burnunu ovmağı bacarıb.

Maraq doğuran əsas suallardan biri də budur ki, Armen Qriqoryan hətta “razılaşdırılmış” açıqlaması ilə təkcə Moskvaya deyil, həm də Qarabağ da daxil olmaqla Azərbaycanın ərazisi bütövlüyünü tanıdığını bəyan edən baş nazir Nikol Paşinyana “dirsək göstərib”. Bundan savayı, beynəlxalq hüququn və elə həmin ermənipərəst kollektiv Qərbin bəyəndiyi və təqdir etdiyi sülh təşəbbüslərini ayaqlar altına atıb. Qriqoryan separatizm və revanşizm meyillərinin açıq-aşkar sezildiyi bəyanatında əgər “Qarabağın əllərindən alındığı” ehtimalını irəli sürürsə, deməli, Ermənistanın işğalçı olduğunu və bu siyasəti bundan sonra da davam etdirmək niyyətini gizlətmədiyini ortaya qoymuş olur.

### Qarabağı unutmağın çətinliyi

Armen Qriqoryanın “Rusiya Qarabağı əlimizdən alıb, Azərbaycana verdi” təxribatçı bəyanatına Moskvanın reaksiyası gözləniləndən də sərt oldu. İntəhası, Rusiya XİN-in sözçüsü Mariya Zaxarovanın Qriqoryana ünvanladığı cavab Azərbaycan ictimaiyyətində haqlı narazılıq yaradıb. M.Zaxarova Qriqoryanı “öz əraziləri uğrunda həyatlarını qurban verən erməniləri təhqir etməkdə” ittiham edib. Yəni, Rusiya XİN rəsmisinin məntiqinə görə, guya, ermənilər bizimlə öz torpaqları uğrunda vuruşublar. O, əslində, bu açıqlaması ilə Qarabağın işğalçı–separatçı haylara “məxsusluğu” hipotezini gündəmə gətirmək məqsədini güdüb. Eyni zamanda, böyük ehtimalla, “Dağlıq Qarabağ” məsələsini Azərbaycanın yadına salmağa çalışıb. Kremlin xeyir-duası ilə ara-sıra səslənən bu məzmunlu sətiraltı “minnətli xatırlatmalar” Bakı üçün yeni deyil. Hərçənd, rəsmi Moskvanın sərgilədiyi bu arzuolunmaz siyasi mövqe ikitərəfli münasibətlərə heç də müsbət çalarlar qatmır. Doğrudur, İrəvan və Moskva arasında diplomatik “haqq-hesab çəkmə” prosesinə Bakının qoşulmaq kimi bir niyyəti yoxdur.

Rusiya–Ermənistan münasibətləri iyunun 25-26-da Moskvada keçirilən forumun da əsas mövzularından olub. Moskva İrəvana yenidən Qərblə yaxınlaşmanın təhlükəsi barədə xəbərdarlıq edib. “NEWS.ru” nəşri Ermənistan hakimiyyətinin ABŞ ilə münasibətində nə qədər uzağa gedəcəyi və bütün Cənubi Qafqazı riskə atdığı sualına cavab tapmağa çalışıb. Rusiya Baş nazirinin müavini Aleksey Overçuk forumdakı çıxışı zamanı Paşinyan iqtidarının qərbyönlü siyasi xəttinə göz yummağı düzgün hesab etmədiyini deyib. Onu sözlərinə görə, Ermənistanın eyni zamanda həm Avropa İttifaqı, həm də Avrasiya İqtisadi İttifaqına üzvlüyü qeyri-mümkündür. Rusiya Federasiya Şurasının vitse-spikeri Konstantin Kosaçev isə barışdıcı mövqedən çxış edib: “Rusiya Ermənistanla dostluq münasibətləri qurmağa hazırdır. Yekun nəticə Moskvadan yox, İrəvandan asılıdır. Əsas məsələ Ermənistanın hazırkı rəhbərliyinin Rusiyaya qarşı antoqonizmin daşıdığı risklərdən nə dərəcədə xəbərdar olmasıdır”.

Federasiya Şurasının beynəlxalq əlaqələr komitəsinin rəhbəri Qriqori Karasin Qriqoryana cavab verərək bildirib ki, Rusiyanın Dağlıq Qarabağı Azərbaycana “təslim etməsi” ilə bağlı deyilənlət həqiqətə uyğun deyil: “Bu, tamamilə yalandır. Erməni siyasi xadimlərinin, o cümlədən yüksək rəhbərliyin qeyd və çıxışlarına müraciət etmək lazımdır. Bu sualların cavabları orada var. Qriqoryan qoy onları oxusun”.

Ardınca Müstəqil Dövlətlər Birliyinin (MDB) baş katibi Sergey Lebedev Rusiya–Ermənistan arasında gərginliyin olduğunu təsdiqləsə də, hələlik İrəvanın MDB-dən çıxma riskini görmədiyini açıqlayıb: “Mən Qərbin erməni tərəfdaşlarına böyük təzyiqini görürəm. Onları bəzi hallarda İrəvanı anti-Rusiya mövqeyi tutmağa və ya MDB çərçivəsində əməkdaşlığını məhdudlaşdırmağa təşviq edirlər”.

Paşinyanın Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının (KTMT) apardığı kursun əleyhinə çıxdığı təzə xəbər deyil. O, Ermənistanın KTMT ilə vidalaşacağını elan edərək, onu “köpük ittifaqı” adlandırıb. Onun sözlərinə görə, təşkilat üzvləri dörd il əvvəl Azərbaycanla birlikdə onun ölkəsinə qarşı “müharibə planlaşdırırlar”.



Beləliklə, İrəvanın Moskvaya qarşı bütün cəbhələr boyu “total diplomatik hücuma” keçdiyi göz qabağındadır. Onun Parisdən “Sezar” özüyeriyən artilleriya qurğularını alacağı, Avropa İttifaqına üzv olacağı ilə bağlı rəsmi açıqlamaları ikitərəfli münasibətlərin körüklənmiş tonqalının üzərinə benzin tökür. Amma sonda həmin tonqalda kimin yanacağı sual doğurmur.

### Revanşizm xülyasına aludəçilik

Yaranmış situasiyada rəsmi Bakı İrəvan–Moskva münasibətlərinin “siyasi-filoloji müharibə” platformasında təzyiq vasitəsi kimi Qarabağ kartından istifadə edilməsini cavabsız qoymadı. Qriqoryanın avantürist bəyanatına cavab ən yüksək səviyyədə verildi. “Ermənistan Təhlükəsizlik Şurasının katibinin açıqlaması əvvəlki və indiki Ermənistan siyasi-hərbi rəhbərliyinin məğlubiyyətini ört-basdır etmək, təqsiri başqasının üzərinə yıxmaq və özünə bəraət qazanmaq cəhdindən başqa bir şey deyildir”. Bu sözləri Azərbaycan Prezidentinin köməkçisi – Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Armen Qriqoryanın məlum açıqlaması ilə bağlı sualı cavablandırarkən deyib.

O qeyd edib ki, Azərbaycan Ordusu Ermənistan ordusunu 44 günlük Vətən müharibəsində məğlub edib və mütləq qələbə qazanıb. Bununla da 30 il davam edən hərbi işğala son qoyulduğunu, Ermənistanın kapitulyasiya aktını imzalamağa məcbur olduğunu vurğulayan H.Hacıyev rəsmi İrəvanın müharibədə 10 mindən çox fərarisinin olduğunu etiraf etdiyini də nəzərə çatdırıb: “2023-cü ilin senyabrında 23 saata həyata keçirilən antiterror əməliyyatı nəticəsində Azərbaycan ərazisində qeyri-qanuni qalmaqda olan Ermənistan ordusunun qalıqları tərksilah edilib və Qarabağ tam azad edilib. Ümumən Ermənistan ordusunun 5 milyard ABŞ dollarından artıq dəyəri olan silah və sursatı məhv edilib və ya qənimət götürülüb”.

Prezidentin köməkçisi bu kimi açıqlamaları Ermənistanın siyasi-hərbi rəhbərliyinin təfəkküründə hələ də revanşizm xülyalarının qalmasının təzahürü kimi qiymətləndirib: “Həmin şəxslərə tarixi səhvləri yenidən təkrarlamamaq üçün revizionizm və revanşizm xülyalarından tamamilə əl çəkməyi, militarizasiya siyasətinə son qoymağı tövsiyə edirik”.

Hər yerdən və hər kəsdən əli üzülən qu quşu son nəfəsində vida nəğməsini oxuyur. O qəmli nəğmənin yeganə dinləyicisi elə özü olur. İndi İrəvan istebleşmentinin üzünü şimala tutub ifa etdiyi, yad notlara köklənmiş “siyasi serenadası” da vədəsiz səslənən siqnal kimi yalnız qıcıq yaradır. Quyruğu qapılar arasında qalmış Ermənistan hakimiyyətinin əlindən başqa nə gəlir ki? Əgər sabah bu hakimiyyətə “Artsaxın Azərbaycana verilməsində” Qərbi ittiham etmək versiyasını dövriyyəyə buraxmaq lazım gələrsə, onun bunu edəcəyinə heç şübhəniz olmasın. Paşinyanın iqtidar komandasının ayrıca götürülmüş bir üzvü bu gün siyasi konyuktura xatirinə atdığı addımı ilə, ümumiyyətlə, hakimiyyətin altniyyətini ortaya qoymuş oldu. Bunu biz onsuz da bilikdik. O səbəbdən təəccüblü olmadı.

*İmran BƏDİRXANLI*
*XQ*

**Ekspert rəyi**



**Rasim MUSABƏYOV,**
**Milli Məclisin deputatı**

– Burada təəccüblü bir şey yoxdur. Sadəcə olaraq, Paşinyanın baş nazir kimi, Mirzoyanın xarici işlər naziri kimi deyə bilmədiklərini üzə çıxarmaq üçün Armen Qriqoryanı qabağa veriblər. O cavan oğlanın isə tutduğu vacib posta qədər dövlət qulluğunda heç bir təcrübəsi olmayıb. Buna qədər hansısa beynəlxalq təşkilatlarda müxtəlif xarakterli işlərlə məşğul idi. Bəli, bir çox hallarda Paşinyan və Mirzoyan kənara sözlərini Qriqoryan vasitəsilə çatdırırlar. Onun dediyi isə heç bir hüquqa və ədalətə sığmayan yanlış mövqedir. Paşinyan və onun komandası “miatsum”, “dənizdən dənizə böyük Ermənistan” ideyalarının iflasa uğramasını Rusiyanın boynuna yıxmağa çalışır. Özlərini isə, həmişə olduğu kimi, “zərərçəkən, əzabkeş tərəf” kimi qələmə vermək istəyirlər.

Bəs, Azərbaycanın torpaqlarını işğal edən, yüz minlərlə soydaşımızı etnik təmizləməyə məruz qoyan, minlərlə vətəndaşımızı qətlə yetirən, şəhər və kəndlərimizi viran qoyan, qəbiristanlıqları, məscidləri dağıdan ruslar idi, yoxsa ermənilər? Əlbəttə ki, ermənilər! Bunu necə inkar edə bilərsiniz? İndi ağızlarını göyə tutub deyirlər ki, rus gəldi əvvəlcə Qarabağı bizə verdi, sonra da Azərbaycana qaytardı. Sözlərindən belə çıxır ki, guya, bunların heç bir təqsiri olmayıb, səbəbsiz yerə zərər çəkiblər. Bu, ağ yalandır! Rusiya daim ermənilərə dəstək verib, amma son məqamda gəlib bölgədə ermənilərin əvəzinə vuruşmalı deyildi ki. Moskva sağlam məntiqlə onlara dedi ki, işğal etdiyiniz torpaqlardan çıxın, onları öz sahibinə qaytarın. Razılaşmadılar. Dedilər ki, yox, siz Türkiyəni saxlayın, Azərbaycanla özümüz bacararıq. Amma bacarmadılar, orduları darmadağın edildi, indi bütün təqsiri rusun üstünə atırlar.

Qriqoryanın məlum bəyanatı Paşinyan hakimiyyətinin daxilindəki ab-havanı, onun Rusiyaya, Qərbə, Amerikaya gerçək münasibətini üzə çıxardı. Bu problemi özləri yaradıblar, çıxış yolunu da özləri tapsınlar.

**Ekspert rəyi**



**Fərid ŞƏFİYEV,**
**Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin rəhbəri**

– Ermənistan müstəqilliyini qazanandan sonrakı uzun illər boyu Rusiyanın yaxın müttəfiqi olub. Bundan başqa, İrəvan Moskvanın Cənubi Qafqazda güclənməsi üçün hər cür şəraiti yaradıb. Bunun əvəzində Rusiya Ermənistana 5 milyard dollar dəyərində silah-sursat verib. Bu fakt 1997-ci ildə rus generalı Roxlin tərəfindən açılmışdı. Yəni, ötən müddət ərzində ermənilər mütəmadi olaraq Rusiyadan silah alıblar. İkinci Qarabağ müharibəsində də Moskva bu əməliyyatları davam etdirib. 2020-ci ilin oktyabrında Rusiya, demək olar ki, hər gün Xəzər dənizi və İran vasitəsilə Ermənistana müxtəlif silahlar göndərirdi. Hazırda Paşinyan və onun komandası Kremllə münasibətlərinin korlandığını nümayiş etdirməyə çalışır. Onda sual olunur ki, bu halda niyə Ermənistan Suriyaya sülhməramlı kontingentini göndərib? Deyə bilərlər ki, bunu Koçaryan, sonra da Sarkisyan hakimiyyəti edib. Amma 2018-ci ildən bu yana Paşinyan iqtidarı da Rusiyanı bütün müstəvilərdə dəstəkləyib. Konkret olaraq Krım məsələsində İrəvan Rusiyanı birmənalı şəkildə dəstəkləyib.

Paşinyan komandası indi anti-Rusiya kampaniyasına başlayıb. Bu isə Ermənistanın ikiüzlü siyasətinin göstəricisidir. Məhz Azərbaycan 44 gündə Ermənistan ordusunu, onların “böyük Ermənistan” şovinist layihəsini darmadağın etməklə Cənubi Qafqazda bütün geosiyasi vəziyyəti, paradiqmanı dəyişdi. Bəli, buna Azərbaycan nail olub. O ki qaldı, Rusiyanın Qarabağı Ermənistandan alıb bizə verməsi məsələsinə, əlbəttə ki, bunların hamısı uydurma və cəfəng mülahizələrdir.

---

# Avropa İttifaqının Azərbaycanın minatəmizləmə fəaliyyətinə dəstəyi

**İyunun 25-də Bakıda Avropa İttifaqına üzv dövlətlərinin minatəmizləmə üzrə ekspertlərinin və Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyinin mütəxəssislərinin ilk görüşü keçirilib.**

Qeyd edək ki, bu təşəbbüs Aİ-nin ölkədə humanitar minatəmizləmə istiqamətində aparılan işlərə dəstək vermək məqsədi daşıyan daha geniş əhatəli fəaliyyətinin tərkib hissəsidir. Aİ və onun üzv dövlətləri indiyədək Azərbaycanda minatəmizləmə işlərinə dəstək verən ən böyük beynəlxalq donordur. Mayın əvvəlində “Team Europe” təşəbbüsünə start verilməsi də bunun bariz nümunəsidir. Avropa Komissiyasının Prezidenti Ursula Fon der Lyayen aprelin 4-də Prezident İlham Əliyevlə telefon danışığından sonra Aİ hazırda ölkəmizə partlayıcı sursatların yaratdığı böyük problemin öhdəsindən gəlməyə kömək etmək üçün əlavə maliyyə dəstəyi göstərməyi planlaşdırır. Proqramın davam edəcəyi 2024-2025-ci illər ərzində əlavə 10 milyon avro ayrılması nəzərdə tutulur.



Bu baxımdan tədbir regionda bilik mübadiləsini təmin etmək məqsədilə Mükəmməllik Mərkəzinin yaradılması və fəaliyyətə başlamasına kömək etmək üçün nəzərdə tutulan silsilə tədbirlərin birincisidir. ANAMA tərəfindən idarə olunan mərkəzdə xüsusi təlim vasitələrinin elmi tədqiqat və işlənmə imkanlarının olacağı, həmçinin əsas diqqət minatəmizləmə sektorunda ən son texnika və texnologiyalara yönəldilməklə yerli və beynəlxalq kadrlar üçün təlim proqramlarının təklif ediləcəyi gözlənilir.

Bu yaxınlarda Bakıda Minatəmizləmə üzrə Üçüncü Beynəlxalq Konfransa ev sahibliyi etmiş Azərbaycan BMT və beynəlxalq tərəfdaşlarla əməkdaşlıq şəraitində Mükəmməllik Mərkəzi yaratmaq əzmindədir. Bu məqsədlə Avropa İttifaqının Texniki Yardım və İnformasiya Mübadiləsi Aləti çərçivəsində ANAMA ilə birgə təşkil olunan ilk seminar Aİ üzv dövlətləri və tərəfdaşlarının ekspertləri ilə qabaqcıl təcrübə, öyrənilmiş dərslər və innovativ həllərin mübadiləsini təmin edən bir platformadır. Sloveniya, eləcə də Bosniya və Herseqovinadan dəvət olunmuş ekspertlər strateji planlaşdırma, minatəmizləmə fəaliyyətində gender bərabərliyi, zərərçəkmişlərə yardım, keyfiyyət və risklərin idarə edilməsi, ekoloji aspektlər və yeni texnologiyalar sahələrində öz biliklərini və çoxillik təcrübələrini bölüşəcəklər.

*XQ*

# Hikmət Hacıyev ermənilərə revanşizm xülyalarından əl çəkməyi xatırladıb

**Ermənistan Təhlükəsizlik Şurasının katibinin növbəti açıqlaması əvvəlki və indiki Ermənistan siyasi-hərbi rəhbərliyinin məğlubiyyətini ört-basdır etmək, günahı başqasının üzərinə yıxmaq və özünə bəraət qazanmaq cəhdindən başqa bir şey deyildir.**



Bunu Prezidentin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Ermənistan Təhlükəsizlik Şurasının katibinin Qarabağın, guya, Rusiya tərəfindən Azərbaycana verilməsi ilə bağlı iddiasına münasibət bildirərkən deyib.

Hikmət Hacıyev deyib: "Azərbaycan Ordusu döyüş meydanında öz sözünü deyərək, şəhid verərək Ermənistan ordusunu 44 günlük Vətən müharibəsində məğlub edib, mütləq hərbi qələbə qazanıb, Ermənistanın 30 il davam edən hərbi işğalına son qoyub və Ermənistanı kapitulyasiya aktını imzalamağa məcbur edib. Ermənistan rəhbərliyi ordu sıralarında 10 min nəfərdən artıq fərarinin olduğunu özü etiraf edib.

2023-cü ilin sentyabrında həyata keçirilmiş antiterror tədbirləri nəticəsində 23 saatdan az bir müddətdə Azərbaycan ərazisində qeyri-qanuni qalmaqda davam edən Ermənistan ordusunun qalıqları tərk-silah edilib və Qarabağ tam azad edilib. Ümumən, Ermənistan ordusunun 5 milyard ABŞ dollarından artıq dəyəri olan silah və sursatı məhv edilib və ya qənimət götürülüb.

Həm 44 günlük Vətən müharibəsi, həm də antiterror tədbirləri bir çox dünya ölkələrinin hərbi akademiyalarında unikal hərbi əməliyyatlar olaraq öyrənilir.

Təəssüflə qeyd etmək istərdik ki, belə açıqlamalar Ermənistanın siyasi-hərbi rəhbərliyinin təfəkküründə hələ də revanşizm xülyalarının qalmasının təzahürüdür. Ermənistanın siyasi-hərbi rəhbərliyində olan şəxslərə tarixi səhvləri yenidən təkrarlamamaq üçün revizionizm və revanşizm xülyalarından tamamilə əl çəkməyi, militarizasiya siyasətinə son qoymağı tövsiyə edirik".

# Azərbaycan–Gürcüstan əlaqələrinin perspektivləri müzakirə olunub



**İyunun 27-də xarici işlər naziri Ceyhun Bayramov Gürcüstana rəsmi səfəri çərçivəsində bu ölkənin xarici işlər naziri İliya Darçiaşvili ilə görüşüb.**

Təkbətək görüş daha sonra hər iki tərəfdən nümayəndə heyətlərinin iştirakı ilə geniştərkibli formatda davam etdirilib. Azərbaycan ilə Gürcüstan arasında mövcud strateji tərəfdaşlıq münasibətlərinin siyasi, təhlükəsizlik, müdafiə, iqtisadi-ticari, enerji, nəqliyyat-kommunikasiyalar, mədəni-humanitar və digər aspektləri, gündəlikdə duran aktual məsələlər, habelə cari regional vəziyyət müzakirə olunub.

İki ölkə arasında iqtisadiyyat, investisiyalar, ticarət, energetika, kommunikasiyalar sahələrində sıx əməkdaşlığın təqdirəlayiq olduğu, mövcud əməkdaşlıq nəticəsində Bakı-Tbilisi-Ceyhan, Cənub Qaz Dəhlizi və Bakı-Tbilisi-Qars kimi nəhəng regional layihələrin uğurla həyata keçirildiyi vurğulanıb. Bakı-Tbilisi-Qars dəmir yolunun potensialının tam şəkildə istifadəsinin əhəmiyyəti qeyd edilib. İqtisadi inteqrasiya səylərinin gücləndirilməsi, habelə birgə layihələrin icrasının sürətləndirilməsi baxımından Azərbaycan ilə Gürcüstan arasında iqtisadi əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiyanın fəaliyyətinin inkişaf etdirilməsinin əhəmiyyəti vurğulanıb.

Regional və qlobal təhlükəsizlik təhdidləri ilə mübarizədə milli səylərin qarşılıqlı şəkildə əlaqələndirilməsinin, xüsusilə kritik enerji infrastrukturu layihələrinin mühafizəsində əməkdaşlığın vacibliyi qeyd olunub.

Müxtəlif çoxtərəfli platformalar, o cümlədən BMT, ATƏT, Avropa Şurası, QDİƏT, GUAM və digər çərçivələrdə qarşılıqlı dəstək və həmrəylik səylərinin bundan sonra da davam etdirilməsinin əhəmiyyəti diqqətə çatdırılıb.

Ceyhun Bayramov Azərbaycanın COP29 sədrliyi barədə ətraflı məlumat verərək, COP29-un, həmçinin Gürcüstanla bu sahədə əməkdaşlığımızın gücləndirilməsi üçün əlavə imkanlar yaratdığını qeyd edib. Bununla yanaşı, "Qara Dəniz Yaşıl Kabel"inin reallaşdırılması istiqamətində səylər ətraflı müzakirə olunub.

Postmünaqişə dövründə regional sülh və quruculuq səyləri, Azərbaycanla Ermənistan arasında normallaşma prosesinə əsas təhdid və maneələrdən bəhs edən nazir ölkəmizin sülh gündəliyinin təşəbbüskarı kimi bölgəmizdə təhlükəsizlik və əmin-amanlığın bərqərar edilməsi istiqamətində səylərini irəlilətmək əzmində olduğunu vurğulayıb. Sülh sazişinin mətni üzrə əhəmiyyətli irəliləyiş əldə edilməsinə baxmayaraq, Ermənistan konstitusiyasında və digər qanunvericilik aktlarında Azərbaycanın ərazi bütövlüyünə qarşı davam edən iddiaların sülh prosesi çərçivəsində əsas maneə olduğu diqqətə çatdırılıb.

Sonda nazirlər görüşün nəticələri ilə bağlı mətbuat konfransında bəyanatlarla çıxış ediblər.

***

**Həmin gün xarici işlər naziri Ceyhun Bayramov Gürcüstan parlamentinin sədri Şalva Papuaşvili ilə görüşüb.**

Görüş zamanı Azərbaycan ilə Gürcüstan arasında strateji tərəfdaşlıq gündəliyində duran məsələlər, parlamentlərarası əməkdaşlığın perspektivləri, habelə regionda cari vəziyyət müzakirə olunub.

Ceyhun Bayramov ölkələrimiz arasında mövcud çoxşaxəli əməkdaşlıq gündəliyinin inkişafında parlament diplomatiyasının, parlament sədrləri və nümayəndələrinin qarşılıqlı səfərlərinin, dostluq qrupları arasında geniş əməkdaşlığın əhəmiyyətli rol oynadığını qeyd edib.

İki ölkənin qanunverici orqanları arasında əməkdaşlığın xalqlarımız arasında mövcud dostluq və mehriban qonşuluq münasibətlərinə verdiyi töhfə müsbət qiymətləndirilib.

Qarşı tərəf, həmçinin postmünaqişə dövründə bölgədə mövcud vəziyyət və reallıqlar, işğaldan azad olunmuş ərazilərdə aparılan genişmiqyaslı bərpa və quruculuq işləri, mina təhdidi ilə mübarizə səyləri, habelə Azərbaycan və Ermənistan arasında sülh və normallaşma prosesi barədə məlumatlandırılıb.

# COP29 Məlumat Mərkəzi istifadəyə verildi



**İctimaiyyətin COP29 qlobal iqlim konfransından gözləntilərinin, eləcə də iqlim dəyişmələrinin təsirləri kimi müxtəlif önəmli mövzularda məlumatların əlçatanlığının təmin edilməsi məqsədilə COP29 Məlumat Mərkəzi yaradılıb.**

Dünən Dənizkənarı Bulvar İdarəsinin dəstəyi ilə Bakı bulvarında keçirilən açılış mərasimində COP29-un müəyyən edilmiş prezidenti, Azərbaycanın ekologiya və təbii sərvətlər nazirliyi Muxtar Babayev, COP29 Azərbaycan Əməliyyat Şirkətinin İdarə Heyətinin sədri və Əməliyyatlar üzrə baş icraçı Nərmin Carçalova, Dənizkənarı Bulvar İdarəsi İdarə Heyətinin sədri Xanlar Ağalarov, eləcə də ölkəmizdə səfərdə olan BMT Baş katibinin müavini və Ətraf Mühit Proqramının (UNEP) icraçı direktoru İnger Andersen iştirak ediblər.

Tədbirdə Mərkəzin fəaliyyəti haqqında ətraflı məlumat verilib, fərqli tematik zonalarda təşkil olunan müxtəlif rəqəmsal resurslar, eləcə də iqlim dəyişmələrinin təsirləri və bu təsirlərin yumşaldılmasının əhəmiyyətini göstərən interaktiv instalyasiyalar nümayiş etdirilib.

Qeyd edək ki, Məlumat Mərkəzinin müxtəlif tematik zonaları ziyarətçilərə iqlim dəyişmələri və COP29 konfransı haqqında interaktiv və maraqlı təcrübə keçmək üçün yaradılıb. Belə ki, COP tarixi zonasında qonaqlar həmin mühüm konfransın xronoloji və coğrafi tarixçəsi ilə tanış ola, virtual səyahət zonasında VR eynəkləri vasitəsilə nadir immersiv iqlim səyahətinə çıxaraq dünyanın istənilən nöqtəsində landşaft və iqlim şəraitini izləyə bilərlər.

Bununla yanaşı, növbəti aylarda həftəsonu günlərində Məlumat Mərkəzində müxtəlif idman, incəsənət və maarifləndirmə tədbirləri, həmçinin digər fəaliyyətlər təşkil ediləcək.

# Azərbaycan və İtaliya XİN rəhbərlərinin görüşü

**İyunun 26-da xarici işlər naziri Ceyhun Bayramov ölkəmizdə səfərdə olan İtaliya Respublikasının xarici işlər və beynəlxalq əməkdaşlıq nazirinin müavini Edmondo Çirielli ilə görüşüb.**

Görüşdə Azərbaycan və İtaliya arasında ikitərəfli çərçivədə mövcud əməkdaşlıqdan məmnunluq ifadə olunub və iki ölkə arasında siyasi, müdafiə, təhlükəsizlik, iqtisadi, ticarət, energetika, humanitar, təhsil və digər sahələrdə çoxölçülü strateji tərəfdaşlıq əlaqələrinin perspektivlərindən bəhs olunub.

İtaliyanın "Leonardo" şirkətinin istehsalı olan "C-27J Spartan" tipli hərbi nəqliyyat təyyarəsinin ölkəmizə təhvil verilməsi məmnunluqla qeyd edilib, müdafiə sahəsində əməkdaşlığın iki ölkə arasında əlaqələrin daha da inkişafına töhfə verəcəyi bildirilib.

Tərəflər, həmçinin postmünaqişə dövründə bölgədə vəziyyət Azərbaycan-Ermənistan münasibətlərinin normallaşması prosesi barədə fikir mübadiləsi aparıblar.

***XQ***

# İrəvan yenə gözə kül üfürür

**Ermənistan tərəfi Azərbaycanla sülh müqaviləsinin imzalanması və dövlətlərarası münasibətlərin yaradılması istiqamətində əməli addımlar atmaqdansa, yenə də müxtəlif mənasız təşəbbüslər irəli sürməkdə davam edir. Doğrudur, son vaxtlar bu istiqamətdə müəyyən inkişaf da nəzərə çarpır. Bunu Xarici işlər naziri Ceyhun Bayramovun dünən Tbilisiyə səfəri zamanı gürcüstanlı həmkarı İlya Darçiaşvili ilə birgə keçirdiyi mətbuat konfransında verdiyi bəyanatdan da görmək mümkündür. C.Bayramov bildirib ki, sülh sazişinin mətni ilə bağlı kifayət qədər əhəmiyyətli irəliləyiş var. Nazir qeyd edib ki, açıq qalan məsələlərin sayı əhəmiyyətli dərəcədə azalıb.**



Rəsmi İrəvanın irəli sürdüyü ən mənasız təşəbbüs isə atəşkəsin pozulması hallarının araşdırılması üçün birgə təhqiqat mexanizminin yaradılması ilə bağlıdır. Azərbaycan tərəfi atəşin hansı istiqamətdən, saat neçədə və neçə dəfə açıldığını dəqiq bilir. Ordumuzun müvafiq istiqamətdə yerləşən bölmələri tərəfindən yalnız adekvat cavab tədbirləri görülür. Eyni zamanda, Azərbaycan Ordusunda ciddi nizam-intizam, vahid komandanlıq mövcuddur. Ermənistanda hansısa hərbi hissədə hansısa hərbi qulluqçular yuxarı komandanlığa tabe olmayaraq, özbaşına atəşkəsi poza bilərlər.

Azərbaycan Ordusunda isə belə bir halın baş verməsi qətiyyən mümkün deyil. Ulu öndər Heydər Əliyevin Azərbaycanda hakimiyyətə gəlişi ilə orduda hərc-mərclik, başıpozuqluq hallarına da son qoyulub. İndi Azərbaycanda vahid komandanlığa tabe olan güclü ordu vardır. Bu baxımdan, rəsmi Bakı hansısa birgə təhqiqat mexanizminin yaradılmasına ehtiyac duymur. Ermənistan özü isə təkbaşına belə bir mexanizm yaradıb araşdırma apara bilər. Araşdırmanın nəticəsinə əsasən, əgər həmin hərbi qulluqçular özbaşına bunu ediblərsə, cəzalandırılmalıdırlar ki, oxşar hallar təkrarlanmasın.

Bundan başqa, Ermənistanın əsas qanununda – konstitusiyasında Azərbaycana qarşı ərazi iddiaları qalmaqdadır. Bu məqam rəsmi Bakı tərəfindən prosesin başa çatdırılmasına ən ciddi əngəl kimi qəbul olunur. Məlum hadisə Ermənistanın özü üçün də çox xoşagəlməz hal kimi qəbul edilməlidir. Hazırda Azərbaycan bu istiqamətdə müvafiq addımların atılmasını gözləyir. Ancaq qeyd etdiyimiz kimi, Ermənistan sülhün əldə olunması üçün zəruri sayılan bu addımları atmaqdansa, mənasız təşəbbüslərlə çıxış edir.

Ermənistan təhlükəsizlik şurasının katibi Armen Qriqoryan da bu barədə danışıb. Deyib ki, İrəvan Bakıdan sülh müqaviləsi üzrə 10-cu təkliflər paketini alıb. Onun sözlərinə görə, proses dinamikdir, bəzən irəliləyiş olur, bəzən yox. Qriqoryan Azərbaycanın Ermənistanın birgə təhqiqat mexanizmi yaratmaq təklifinə hələ də cavab vermədiyindən gileylənib. "Biz Azərbaycanın Ermənistan tərəfindən atəşkəs rejiminin pozulması ilə bağlı yaydığı dezinformasiyadan (?), təbii ki, narahatıq. Aydındır ki, heç bir eskalasiya olmayıb, Ermənistan tərəfdən atəş açılmayıb" – deyən Qriqoryan ağ yalan danışmağa davam edib.

Bu arada ABŞ-nin Ermənistandakı səfirliyi də İrəvanın cəfəng təklifinə münasibət bildirib. Səfirliyin Ermənistan ictimai televiyasının İrəvanın atəşkəs rejiminin pozulması hallarının araşdırılması üçün ikitərəfli mexanizm yaratmaq təklifini Vaşinqtonun necə dəyərləndirməsi ilə bağlı sorğusuna verdiyi cavabda deyilir: "Biz Ermənistan və Azərbaycan arasında sülh istiqamətində aparılan işləri alqışlayırıq. Hər iki ölkənin ərazi bütövlüyünü dəstəkləyirik. Biz gərginliyi azaltmaq və regionda davamlı və ləyaqətli sülhə nail olmaq üçün xoşməramlı səyləri alqışlayırıq. Birləşmiş Ştatlar gələcək addımları tərəflər üçün faydalı olan istənilən yolla dəstəkləməyə hazırdır. Son bir ildə tərəflər mühüm irəliləyişə nail olublar. Biz tərəfləri anı qaçırmamağa, əvvəlki danışıqları davam etdirməyə və müqaviləni mümkün qədər tez imzalamağa çağırırıq. ABŞ açıq şəkildə bəyan edib ki, bu münaqişənin (?) hərbi yolla həlli yoxdur. Biz hesab edirik ki, davam edən zorakılıq (?) Ermənistan və Azərbaycanın uzunmüddətli və ləyaqətli sülhə doğru əldə etdiyi irəliləyişə xələl gətirir".

Səfirlik, həmçinin Ermənistan və Azərbaycanın suverenliyi və ərazi bütövlüyünü tanıyan uzunmüddətli sülh sazişini mümkün qədər tez imzalayacağına ümid etdiyini bildirib.

Əlbəttə, səfirlik məsələyə diplomatik qaydalar çərçivəsində münasibət bildirsə də, sonda əksini tapan "münaqişənin hərbi yolla həlli yoxdur" ifadəsi qətiyyən anlaşılmır. Bu ifadə tarixin arxivinə qovuşsa da, hələ də bəzilərinin süni nəfəs verərək diri saxlamağa çalışdıqları keçmiş ATƏT-in Minsk qrupu həmsədrlərinin 2020-ci il sentyabrın 27-dək vaxtaşırı verdikləri bəyanatlara bənzəyir. Görünür, səfirlik əməkdaşları həmin cümləni əvvəlki bəyanatların mətnindən, necə deyərlər "copy and paste" (kəsmək və yapışdırmaq) ediblər. Əks təqdirdə, onlar bilməli idilər ki, keçmiş münaqişə 4 ilə yaxındır həllini tapıb.

Vaşinqton prosesə töhfə vermək istəyirsə, N.Paşinyanı, onun xarici işlər nazirini və digər Hayastan rəsmilərini gerçək sülhə sövq etməlidir. ABŞ Ermənistan hökumətinə təsirinin böyük olmasından istifadə edərək rəsmi İrəvandan əsas qanununa, digər qanunvericilik aktlarına dəyişiklik aparmasını tələb etməlidir. Yalnız bu halda səfirliyin bəyanatında deyildiyi kimi, bölgədə uzunmüddətli və ləyaqətli sülhə nail olmaq mümkündür. Bunu etmədən hansısa ikitərəfli mexanizm yaratmaq təşəbbüslərinin də faydası olmayacaq. Ermənistan sülh istəyində səmimi olduğunu əməlləri ilə ortaya qoymalıdır. İrəvanın gözə kül üfürməkdənsə, real addımlar atması daha yaxşı olardı.

**"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlu** mövzu ilə bağlı "XQ"-yə açıqlamasında bildirdi ki, Azərbaycan Müdafiə Nazirliyi Ermənistan silahlı qüvvələrinin Naxçıvan istiqamətində atəşkəsi pozduğuna dair xəbərlər yaydı. Öz növbəsində Hayastan müdafiə nazirliyi bu xəbərləri təkzib etdi. Baş nazir Nikol Paşinyan dedi ki, ya həqiqətən atəşkəsin pozulması halları var, ya da bu eskalasiya məqsədilə həyata keçirilir: "Paşinyan "eskalasiya" dedikdə Azərbaycan Ordusunun hansısa hücum planını həyata keçirməsini nəzərdə tuturdu. Yəni, guya, Azərbaycan Müdafiə Nazirliyi atəşkəsin pozulması barədə xəbərləri qəsdən yayır. Azərbaycanın Naxçıvan istiqamətində atəşkəsi pozmaqda heç bir marağı yoxdur. Bizə sərhəddə sakitlik lazımdır. Azərbaycan əsas hədəfinə çatıb, ərazi bütövlüyünü və Qarabağ iqtisadi rayonu üzərində suverenliyini təmin edib. Paşinyan "ya həqiqətən atəşkəsin pozulması halları var" dedikdə öz ordusunun təxribatına işarə edib. Nikol özü də bir neçə dəfə etiraf edib ki, Ermənistan ordusunda "beşinci kolon" mövcuddur. Bundan başqa Ermənistan ordusuna özünü könüllülər ittifaqı adlandıran, əslində isə terrorçu təşkilat olan "Yerkrapa"



üzvləri cəlb ediliblər. Bu ilin fevralında Azərbaycanın mövqelərini revanşist hisslərlə alışıb-yanan elə həmin terror təşkilatının üzvləri atəşə tutmuşdular. Bunu Paşinyan da etiraf etmişdi".

E.Şahinoğlunun sözlərinə görə, N.Paşinyanın təklifi belədir: Biz Bakını sərhəddə atəşkəs rejiminin pozulması hallarının araşdırılması məqsədilə ikitərəfli mexanizm formalaşdırmaq üçün dəvət etməyə hazırıq. Düşünürəm ki, həqiqi vəziyyəti anlamaq, o cümlədən beynəlxalq ictimaiyyət üçün sərhəddə atəşkəs rejiminin pozulması hallarının araşdırılması məqsədilə ikitərəfli mexanizm formalaşdırmaq yaxşı fikir olardı. Mən belə bir təkliflə çıxış etməyə hazıram.

Müsahibimiz qeyd etdi ki, Paşinyanın təklifi ilə razılaşmaq mümkün deyil. Birincisi, ortaq komissiyanın formalaşdırılması üçün ilk növbədə iki ölkə arasında sülh və ya çərçivə sazişinin imzalanması lazımdır. İkincisi, Paşinyanın da etiraf etdiyi kimi, Ermənistan ordusunda təxribatçı qüvvələr var və Hayastan silahlı qüvvələri müxtəlif terrorçu qruplardan formalaşıb: "Fevral ayında baş verən təxribat necə olmuşdu? Ermənistan silahlı qüvvələrindəki "Yerkrapa" terrorçusu snayper atəşi ilə Azərbaycan hərbçisini yaralamışdı. Paşinyanın məntiqinə görə, belə halları "ortaq komissiya" araşdırmalıdır. Həmin "ortaq komissiya" məsələni araşdırana kimi terrorçu İrəvana geri dönərək cəzasız qalacaqdı. Azərbaycan isə atəş açılan postu darmadağın etməklə, terrorçunu neytrallaşdırmaqla cavab verdi. Paşinyan Naxçıvana açılan atəşi müəyyənləşdirmək üçün "ortaq komissiyanın" yaradılması əvəzinə müdafiə nazirindən həmin istiqamətdə nələrin baş verməsi ilə bağlı hesabat tələb etməlidir".

Analitik bildirdi ki, N.Paşinyanın atəşkəsin pozulması ilə bağlı birgə "ortaq mexanizm" qurması təklifinin arxasında onun Ermənistan ordusunun hamısına nəzarət etməməsinin etirafı var. Paşinyan açıq şəkildə "atəşkəsi Ermənistan ordusu pozmayıb" deyə bilmir, şübhələri var. Çünki baş nazir bu ilin fevral ayında atəşkəsi ordu içindəki "Yerkrapa" silahlı qruplaşmasının üzvünün pozduğunu etiraf etmişdi. Başqa təxribatçılar da var. Belə olan halda Paşinyan "ortaq mexanizm" vasitəsilə ordusundakı təxribatçıları müəyyənləşdirmək istəyir. Ancaq Ermənistan ordusundakı təxribatçıları və "atəş açın" əmrini verən zabitləri müəyyənləşdirmək Azərbaycanın problemi deyil, bu işin öhdəsindən Paşinyan gəlməlidir.

E.Şahinoğlu onu da qeyd etdi ki, Prezident İlham Əliyev başda olmaqla dövlət rəsmilərimiz iki ölkə arasında sülh sazişinin imzalanması üçün özündə ərazi iddialarını ehtiva edən Ermənistan konstitusiyasının dəyişdirilməsinin zəruri olduğunu vurğulayırlar. Böyük ehtimalla Azərbaycanın Ermənistana göndərdiyi növbəti təkliflər paketində bu zərurət yenidən vurğulanıb. Əvvəlki açıqlamalarında konstitusiyanın yenilənməsində israrlı olan Paşinyan son vaxtlar bu məsələnin iki il sonra həll oluna biləcəyinə eyham vurmağa başlayıb. Politoloq hesab edir ki, iki il gecdir. Əgər Paşinyan dediyi kimi, İrəvan Azərbaycanla qısa müddətdə sülhün əldə olunmasını istəyirsə, iki ili gözləmədən heç olmazsa, konstitusiyada ərazi iddialarını ehtiva edən bəndlərin əsas sənəddən çıxarılmasını həyata keçirməlidir. Bunu etmədən iki ölkə arasında sülh mümkün deyil.

***Səxavət HƏMİD***
***XQ***

# Postmüharibə dövründə liderlik

VI MƏQALƏ

**İnsan mənəviyyat üçün yaşamalıdır. Mənəviyyatını qoruyan, yaşadan insan əbədi olacaqdır.**

**Heydər Əliyev,**
**Ümummilli lider**



## Vətənpərvərlik – intellektual fəzilət

Şübhəsiz, siyasi liderin intellektual fəzilətliliyi mərkəzində onun vətənpərvərliyi dayanır. Ancaq burada "vətənpərvərlik" anlayışı geniş anlamda dərk edilməlidir. Onun məntiqi bazası Ulu öndərin "cəmiyyət mənəviyyat üzərində təşəkkül tapır" və "vətənpərvər olmayan insan mənəviyyatsızdır" tezislərinin sintezindən ibarətdir. Bu anlamda vətənpərvərlik liderlik üçün ontolojiləşir, yəni təbii olaraq intellektual fəzilətliliyin atributuna çevrilir. İntellektin fəzilətliliyinin atributu olmaq isə vətənpərvər intellektual fəzilətlin olmadığı deməkdir. Yəni vətənpərvərlik liderlikdə intellektin xoşniyyətliliyinin adi tərkib hissəsi deyildir, onun mahiyyətini təşkil edən əvəzedilməz özəlliyidir. Bununla zəkavi liderlikdə intellektual fəzilətlilik kontekstində vətənpərvərlik mənəviyyatlılıqla əlaqəli şəkildə həlledici yer tutur.

Ulu öndərin vətənpərvərliyi bu aspektdə ontolojiləşdirməsinin dərin ideya, məntiqi, konseptual və məfkurəvi mənası varmış. Bu məqamı "vətənpərvərlik" anlayışına Heydər Əliyevin verdiyi geniş mənanı araşdıranda görmək mümkündür. Burada başlanğıc sual belədir: "Vətənpərvərlik nədir, yaxud vətənpərvər kimdir?"

Vətənpərvərlik yurd, el, oba, dil, adət-ənənə, mədəniyyət, xalq, millət və Vətən sevgisidir. Bu duyğuların daşıyıcısı vətənpərvərdir. Yəni vətənpərvərlik heç də özgəsinə mənfi münasibət və ya laqeyd qalmaqla əlaqəli deyildir – o, etnik mənsubluq sərhədlərini aşaraq, dərin duyğusal qatda insanın torpağa, yurda, adət-ənənəyə, dilə, dinə və böyük anlamda Vətənə bağlılığı və sadiqliyidir. Burada bağlılıqla sadiqlik təsadüfən birgə ifadə edilmir. Çünki əsl vətənpərvər yalnız şüuri səviyyədə vətənə bağlı olmur, o, həm də fəaliyyəti ilə bu bağlılığa sədaqətini təsdiq edir. Deməli, siyasi liderlik kontekstində vətənpərvərlik nəzəri və şüuri aspektlə praktiki davranış və feili fəaliyyət aspektlərinin vəhdətindən təşəkkül edir.

Vətənpərvərliyin intellektual fəzilətin atributu kimi mənəviyyatla bağlılıqda bu cür siyasi fəaliyyətdə ontolojiləşməsi mühüm ideya hadisəsidir. Bu keyfiyyətdə vətənpərvərlik "Vətənçilik" ideyasının məzmununda mərkəzi yer tutur. Həmin əsasda "vətənçilik" ideyasını konseptə, daha sonra konsepsiyaya, ideologiyaya və məfkurəyə transformasiya etmək imkanı yaranır.

## "Vətənçilik" ideyası

"İdeya" qədim yunan dilində "forma", "proobraz" anlamını verir. Onun fəlsəfi tərifi müxtəlifdir. Lakin ümumilikdə ideya fikri obrazı ifadə edir. "Vətənçilik" ideyası bu anlamda siyasi fəaliyyətdə şüur üçün əsas, başlıca obyektin Vətən olduğunu əks etdirir. Siyasi lider fəaliyyətində vətənçiliyi ideya kimi qəbul edirsə, hər bir halda bu anlayışa istiqamətlənir, onu fəaliyyətinin başlıca stimulverici və istiqamətləndirici faktoru sayır. Bununla yanaşı, "Vətənçilik" ideya kimi siyasətçinin strateji hədəfinin və məqsədinin Vətənə bağlılıq və sadiqliklə əlaqəli olduğunu ifadə edir.

Lakin real siyasi fəaliyyətdə "ideya" anlamı praktiki funksiyanı yerinə yetirməyə kifayət etmir. Bunun üçün ideyanın konsept səviyyəsinə yüksəlməsi lazımdır.

## "Vətənçilik" konsepsiyası

Linqvokulturologiyada konsept artıq mental qatla bağlı izah olunur. Yəni ideya insan şüurunda onun daxili mahiyyətinə mental səviyyədə aid olan fenomenə çevrilməlidir. Bununla ideya konsept formasında insanın şüuri fəliyyətinin mental qatının atributu statusuna yüksəlir. Əgər konseptdə Vətən mərkəzi yerə qoyulursa, o, konkret olaraq vətənçilik konsepti olur.

Konsept həm də yaradıcı mahiyyət daşıyan innovasiya ideyası kimi də təsəvvür edilir. Yəni o, cəmiyyətdə yeni ideya kimi qəbul edilməlididr. Bu keyfiyyətdə konseptin dəyər, obraz və anlayış komponentləri mövcuddur. Lakin konsept struktur–funksional cəhətdən dəqiq sərhədləri olmayan anlayışdır. Onun daha yüksək səviyyədə məzmunlaşmasına erhtiyac vardır.

"Vətənçilik" konsepsiyası vətən konseptinin aydın struktur və funksional sərhədlərinin nəzəri səviyyədə ifadəsidir. Vətənçilik konsepsiya kimi insanın Vətənə bağlılığı və sədaqətliliyinin vəhdətini ifadə edir. Bununla vətənçilik haqqında geniş nəzəri və feili təsəvvürlər sistemi yaradılır. Bu konsepsiya ilə sosial fəaliyyət göstərmək olar.

Konkret uzunmüddətli siyasi fəaliyyətə gəldikdə isə ümumi "Vətənçilik konsepsiyası"nın yeni səviyyədə inkişafı lazımdır. Bununla da konsepsiyadan ideologiyaya və oradan da məfkurəyə keçid etmək zərurəti yaranır. Məsələ onunla bağlıdır ki, vətənçiliyin elə başlıca və dəqiq parametrləri sistem halında nəzəri-metodoloji tədqim edilməlidir ki, siyasi fəaliyyətdə praktiki olaraq onlara hədəflənmək mümkün olsun. Konsepsiya bu baxımdan tarixi mərhələyə cavab verən nəzəri və tətbiqi baxışların sistemi formasına salınmalıdır. İdeologiya buna görə daha konkret məzmunlu ad almalıdır. Növbəti mərhələdə isə ideologiya fərdi və kollektiv səviyyədə menatlitetə, şüura, psixologiyaya və həyat tərzinə elə "hopdurulmalıdır" ki, siyasi fəaliyyətdə aparıcı rolunu oynasın. Buna görə də vətənçilik özlüyündə ideologiya kimi yenidən sistemləşdirilməli və adı dəqiqləşməli idi.

## Vətənçilikdən azərbaycançılığa keçid

Heydər Əliyev siyasi-nəzəri səviyyədə bu məsələni həll etdi. Vətənsevərliyin qədimdən azərbaycanlıların təfəkkürlərində, psixologiyalarında və siyasi fəaliyyətlərində əsas yer tutduğu haqqında yuxarıda bəhs etdik. Əsrlərlə Vətənə sevgi, sayğı və qayğı mənasında vətənsevərlik Azərbaycan toplumunun həyat tərzində xüsusi yer tutmuşdur. "Azərbaycançılıq" da bir neçə əsr öncə daha çox romantik aspektdə cəmiyyətdə rolunu oynamışdır. O, siyasətdə nə konsepsiya kimi mövcud idi, nə də ideologiya statusunda elmi struktur-funksional keyfiyyətlər almışdı.

Azərbaycan Demokratik Respublikası dönəmində də azərbaycançılıq mükəmməl ideologiya kimi tam formalaşmadı. Əlbəttə, həmin dönəmdə azərbaycançılıq vətənsevərlik və vətənpərvərlik kontekstlərində işlədilirdi. Ancaq işlək və sistemli siyasi məzmuna malik baxışlar kompleksi kimi yenidən işlənməli idi. Azərbaycançılıq mükəmməl ideologiya kimi müstəqil dövlətçilik şüurunun mərkəzi amili səviyyəsinə yüksəldilməli idi.

Bununla azərbaycançılıq faktiki olaraq vətənçiliyin siyasi-nəzəri səviyyədə ifadəsi kimi təsəvvür edilə bilər. Deməli, vətənpərvərlik azərbaycançılığın ideologiya kimi formalaşmasının mərkəzi punktlarından biridir. Buna uyğun olaraq da Azərbaycanda əsl liderliyin mənəviyyat, vətənpərvərlik, əxlaq kimi faktorlarla ontoloji bağlantısını anlamaq mümkündür.

Bununla yanaşı, vətənpərvərlik aspektində azərbaycançılığın bir sıra əsas komponentləri mövcuddur. Onlar birbaşa intellektual fəzilətliliyin digər komponentləri ilə bağlıdırlar. Həmin keyfiyyətdə azərbaycançılıqda ədalətlilik, nizamlılıq və hüquqilik xüsusi yer tutur. Ədalətlilik Azərbaycan liderləri üçün çox önəmli intellektual fəzilətdir ki, praktiki fəaliyyətin bazasında dayanır. Nizamlılıq Vətənə düzən gətirməyi nəzərdə tutur. Dövlətçilikdə bu düzənin bütövlükdə dünyaya yayılması zərurəti də yer almışdır. Hüquqi faktor isə azərbaycançılığın əsas dayaqlarından biridir. Azərbaycan cəmyyətində hüquqla qanun bir-biri ilə sıx bağlılıqda dərk edilmişdir. Müasir dövrdə dövlətçilik aspektində isə hüquq əsas yeri tutur. Azərbaycan beynəlxalq hüquq normalarına ciddi əməl edir. Onların gözlənilməsi dövlətin praktiki fəaliyyətində başlıca məqamlardan biridir.

Beləliklə, Azərbaycanda siyasi liderlik ənənəsində mənəviyyat, vətənpərvərlik, vətənsevərlik ümumilikdə fəaliyyətin atributları kimi yer almışdır. Bu da kökdən liderliyin mənəviyyatla sıx bağlılığını göstərir. Bu məqamın zəkavi xarici siyasətdə real məzmun almasında "məfkurə" anlayışının rolu ayrıcadır.

## Azərbaycançılıq məfkurəsi

"Məfkurə", adətən, ideologiya kimi başa düşülür. Bu, doğrudan da, belədir. Lakin məfkurənin özəl bir xüsusiyyəti də vardır. O xüsusiyyət məfkurənin ideologiya kimi şüurda deyil, ümumilikdə həyat tərzində yaşam özəlliyinin mahiyyətinə nüfuz etməsi ilə bağlıdır. Məfkurə insanı daxili mənəvi-əxlaqi, duyğusal, emosional və iradi keyfiyyətləri ilə ideyaya və ideologiyaya bağlayır. Məfkurəli insan məqsəd uğrunda fəaliyyətdə qətiyyətli və inamlı olur.

Azərbaycançılığın məfkurə kimi milyonlara sirayət etməsində Ulu öndər Heydər Əliyevin fikirləri və izahları həlledici rol oynamışdır. Heydər Əliyev azərbaycançılıq kontekstində öyrədirdi ki, "milli azadlığa nail olmaq üçün milli oyanış, milli dirçəliş, milli ruhun canlanması lazımdır". Bu dahiyanə kəlamda milli azadlığın milli dirçəliş, milli ruh və milli oyanışla sıx qarşılıqlı münasibətlərdə təqdim edilməsi dərin fəlsəfi anlamı olan haldır. Milli ruhun canlanması yuxarıda vurğuladığımız bütün faktorları özündə ehtiva edir. Vətənsevərlik onların mərkəzində dayanır. Milli ruhun oyanışı həm də ənənənin daha dərindən dərk edilməsi yolu ilə təkrar-təkrar aktuallaşdırılmasıdır. Yekunda bu proses milli dirçəlişə aparıb çıxarır ki, bu da milli azadlığın baza şərtlərindən biridir.

Deməli, Heydər Əliyev tezisləri ilə zəkavi siyasətin müxtəlif parametrlərini dəqiq ifadə etmişdir. Onun bu kontekstdə çox mühüm bir şərt də qoyması təsadüfi deyildir. Ümummilli lider demişdir ki, "kim müxalifətdə durursa-dursun, ancaq Vətəninə, xalqına, mənəviyyatına, məsləyinə müxalifətdə durmasın". Vətənə müxalifətdə olmamaq siyasi fəaliyyətin təməl prinsiplərindən biri kimi, Azərbaycan siyasətçisinin intellektual fəzilətliliyndə ayrıca yer tutur. Vətənsevərliyin konkret ifadələrindən biri kimi həmişə "Vətənin yanında olmaq" şərti müasir tarixi mərhələdə də dəyişməmişdir. Hətta Ulu öndərin dediyi növbəti fikrin işığında bu məsələ daha da aktuallaşmışdır. Heydər Əliyev əmin edirdi ki, "heç vaxt inamımızdan, dinimizdən uzaqlaşmayacağıq və bu mənəvi mənbələrimizdən istifadə edərək gələcəyimizi quracağıq!"

Ulu öndərin nümunə kimi gətirdiyimiz sonuncu fikirləri real olaraq Prezident İlham Əliyevin zəkavi xarici siyasətinin intellektual fəzilətliliyinin bir sıra maraqlı və aktual özəlliklərini ifadə edir.

**(ardı var)**

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

# O'Braynın "sülh vaxtı"

## Birləşmiş Ştatlar rəsmisinin Bakı səfərinin hədəfində nə dayanır?

**ABŞ Dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisi Ceyms O'Braynın Azərbaycana səfəri Cənubi Qafqazın siyasi gündəmində dayanan başlıca məsələdir. Səfərlə bağlı ABŞ Dövlət Departamentinin mətbuat xidmətinin məlumatında bildirilib ki, Birləşmiş Ştatlar rəsmisi ölkəmizdə Prezident İlham Əliyev və Xarici işlər naziri Ceyhun Bayramov da daxil olmaqla yüksək vəzifəli rəsmilərlə görüşəcək. Görüşlərdə ABŞ – Azərbaycan ikitərəfli münasibətləri, Vaşinqtonun Bakı ilə İrəvan arasında sülh sazişinin imzalanması istiqamətindəki təşəbbüsləri müzakirə olunacaq. Məlumatda, həmçinin O'Braynın Azərbaycanın insan haqlarına dair beynəlxalq öhdəliklərə sadiqliyinin vacibliyini bir daha vurğulamaq üçün vətəndaş cəmiyyəti üzvləri ilə də təmas quracağı əksini tapıb.**

Əlbəttə, C.O'Braynın səfərində əsasən Azərbaycan – Ermənistan sülh müqaviləsi üzərində dayanılacaq. Bu məqamı O'Brayn özü dilə gətirib. O, ABŞ Konqresinin Nümayəndələr Palatasının Xarici əlaqələr komitəsində keçirilən dinləmələrdə deyib ki, ölkəsi Mərkəzi Asiyadan mal ixracının Rusiya və Çindən deyil, alternativ yollarla, o cümlədən Azərbaycandan keçməsini istəyir. "Bir marşrut Gürcüstandan Qara dənizə keçir, potensial olaraq daha böyük marşrut isə Azərbaycan – Ermənistan – Türkiyədən keçəcək. Bu səbəblərə görə Azərbaycan və Ermənistan arasında sülh sazişinə ehtiyacımız var", – deyən C.O'Brayn əlavə edib ki, Bakıya səfəri zamanı bunu, sülhün vaxtının yetişdiyini Prezident İlham Əliyevə bildirəcək.

Qeyd edək ki, C.O'Brayn iyunun 11-13-də İrəvanda səfərdə olmuş, açıqlamaları ilə diqqət çəkmişdi. O, təxminən indi səsləndirdiklərini Ermənistanda da dilə gətirmişdi. "ABŞ iki Cənubi Qafqaz ölkəsini belə bir razılaşmanı qarşıdakı həftələrdə, aylarda yekunlaşdırmağa cəsarətləndirir" kimi fikirləri fonunda Ağ ev rəsmisinin Mərkəzi Asiyadan yeni ticarət dəhlizinin yalnız Bakı – İrəvan anlaşmasının imzalanması nəticəsində reallaşa biləcəyindən danışması adi məsələ sayıla bilməz: "Bizim fikrimizcə, Mərkəzi Asiyadan Aralıq dənizi istiqamətində ticarət dəhlizi inşa etmək üçün bir neçə nəsildən bir üzə çıxan fürsət yaranıb. Bu, yalnız Azərbaycan və Ermənistan arasında sülh olduğu təqdirdə mümkün ola bilər. Bu, bütün dəhliz boyunca yeni sənaye istiqamətləri yaradacaq. Bu, indi baş verə bilər. Bir neçə il sonra, indiki qədər əhəmiyyətli olmaya bilər... Ona görə də indi bunu etməyin zamanıdır".

Bəli, C.O'Brayn İrəvanda yeni ticarət dəhlizinin Azərbaycan ərazisi ilə Mərkəzi Asiyadan Gürcüstanın Qara dəniz sahillərinə mövcud nəqliyyat əlaqələrinə əlavə olacağını vurğulamışdı ki, indi bir daha eyni düşüncəni gündəmə gətirir. Ancaq onun fikrincə, başlıca rolu Azərbaycanın "Zəngəzur dəhlizi" təşəbbüsü oynayır, yoxsa Ermənistanın "Dünyanın kəsişməsi" avantürası, - maraqlısı budur.

Nəzərə alaq ki, C.O`Braynın Ermənistana səfəri xüsusunda İrəvanda "Dünyanın kəsişməsi" təşəbbüsü qaldırılmışdı. Ölkənin xarici işlər naziri Ararat Mirzoyan Ermənistan və ABŞ arasında strateji dialoqun yekun iclasında çıxışı zamanı ölkəsinin köhnə ritorikasına üstünlük vermiş, "ərazi bütövlüyü və suverenlik" deyimini gündəmə gətirmişdi.

Bu, o demək idi ki, İrəvan Naxçıvana yolla bağlı Bakının mövqeyini nəzərə almır. Belə olan halda Ağ ev rəsmisinin "Mərkəzi Asiyadan yeni ticarət dəhlizi" məntiqi və bunun yalnız sülhün reallaşacağı təqdirdə mümkünlüyünü bildirməsi şübhələr yaradır. Görəsən, o, Bakıya səfərində ölkəmizi bunamı razı salmaq barədə düşünür?

Digər tərəfdən, C.O'Braynın Rusiya və Çinin adını çəkməsi, daha doğrusu, onlara alternativ axtarışı ritorikasına üstünlük verməsi ABŞ-ın Azərbaycan – Ermənistan sülh prosesini geosiyasi rəqabət halına gətirmək niyyətindən xəbər verir. Belə yanaşma yolverilməzdir. Ortaya elementar sual çıxır: Bakı niyə Vaşinqton Moskva və Pekini neytrallaşdırmaq yönümlü oyununda yer alsın?

Yada salaq ki, C.O'Braynın ötən ilin sonlarına doğru səsləndirdiyi amiranə fikirlərdən belə nəticə hasil olmuşdu ki, Azərbaycan üçün qarşıdakı müddətdə seçim şansı var. Yəni ölkəmiz ya Qərb, ya da Rusiya istiqamətinə üstünlük verməlidir. Qərb istiqamətinə üstünlük vermək o deməkdir ki, Ermənistanla sülh məsələsində Naxçıvana yol Azərbaycandan Azərbaycana yol kimi olmasın, İrəvanın ərazi bütövlüyü və suverenlik prinsipi əsasında həyata keçirilsin.

Nəzərə alaq ki, haqqında söz açdığımız prinsipin reallaşması 10 noyabr 2020-ci il tarixli üçtərəfli bəyanatın şərtlərinə ziddir. Ermənistan rəhbərliyi həmin yolda təhlükəsizliyin Rusiya Federal Təhlükəsizlik Xidməti tərəfindən təminatına qarşıdır. Üstəlik, baş nazir Nikol Paşinyan tərəfindən irəli sürülmüş ərazi bütövlüyü və suverenlik məsələsi "Dünyanın kəsişməsi" avantürası üzərinə köklənir. Dolayısı ilə Ermənistan qlobal nəqliyyat xabında ön plana çıxır, söz sahibinə çevrilir. Görəsən, C.O'Brayn Azərbaycan rəhbərliyinə Ermənistanın ipə-sapa yatacağı, gələcəkdə problem yaratmayacağı barədə təminat verməyimi düşünür?



Məlumdur ki, hər zaman özünün balanslı siyasətinə sadiq qalan Azərbaycan "region region ölkələri üçündür" şüarını rəhbər tutur. Bu şüarda vahid "Qafqaz evi" ideyası var ki, burada bölgə və bölgəyə bağlı bütün tərəflərin maraqlarının uzlaşdırılması prinsipi əsas götürülür. Ölkəmiz nəzərə alır ki, Rusiyanın Cənubi Qafqazdakı marağı heçə sayılmamalıdır.

Başqa bir yandan İran amili də var. O İran ki, Qərbdə pis qarşılanır və C.O'Brayn ötənilki çıxışında Bakının Naxçıvana yol xüsusunda Tehranla anlaşmasını, top-tüfənglə qarşılamışdı. Onun sözlərindən belə çıxırdı ki, Naxçıvana yol heç bir halda İran ərazisindən keçə bilməz, yalnız Ermənistan variantı üzərində dayanılmalıdır. Sonuncunun isə Azərbaycanın şərti ilə razılaşmadığı aydındır. Elə isə indi Birləşmiş Ştatlar rəsmisi Bakının razılığa gələcəyinəmi ümidlidir? Yoxsa…

Ümumən, C.O'Brayn İrəvana səfəri zamanı Mərkəzi Asiyadan yeni ticarət dəhlizinin cəlbediciliyi amilinə fokuslanmış və mövcud fonda Azərbaycan – Ermənistan sülh sazişinin mümkünlük parametrindən söz açmışdı. Yəni sülh mütləq olmalıdır ki, dəhliz işə düşsün. Əks halda, məsələ reallaşmayacaq. Deməli, sülh yalnız, belə demək mümkünsə, Rusiyasız Cənubi Qafqaz formuluna əsaslanmalıdır. Görəsən, Birləşmiş Ştatlar əks halda Ermənistanın həmişə olduğu kimi, yenə də dalanda qalacağını düşünürmü?

Əslində, C.O'Braynın Bakı səfəri xüsusundakı fikirləri düşündürücüdür. Onun "sülhün olmaması COP29-a evsahibliyi etməklə dünya lideri kimi hörmət qazanmağa ümid edən Azərbaycan üçün deyil, həm də bütün region və Mərkəzi Asiya üçün problemdir" fikri də həmçinin. Üstəlik, ABŞ – Ermənistan münasibətlərinin dərinləşdirilməsi niyyəti ilə bağlı konkret mesajların da müəllifi C.O'Brayndır.

Nəzərə alaq ki, Birləşmiş Ştatlar rəsmisi İrəvana səfəri zamanı ölkəsinin bu il aprelin 5-də Brüsseldə Ermənistan – ABŞ – Avropa İttifaqı formatında keçirilmiş görüşün razılaşmalarına əməl etməyə hazır olduğunu təsdiqləmişdi. O, həmçinin Vaşinqtonun ABŞ – Ermənistan strateji dialoqunun formatını Strateji Tərəfdaşlıq Komissiyasına dəyişmək istəyindən də söz açmışdı.

O da məlumdur ki, qabaqcıl hərbi texnikaya və ən son texnologiyalara çıxışı asanlaşdırmaq üçün Ermənistana ABŞ-ın Xarici Hərbi Maliyyələşdirmə (FMF) proqramı çərçivəsində vəsait ayrılacaq. FMF Birləşmiş Ştatların müttəfiqlərinə və tərəfdaşlarına avadanlıq, təlim və hərbi ehtiyacların qarşılanması üçün qrantlar və ya kreditlər vermək məqsədi ilə nəzərdə tutulub və o, Amerikanın xarici siyasətinin əsas alətlərindən biridir.

Bütün bildirdiklərimiz fonunda ortaya çıxan ən başlıca sual budur: Bakı – İrəvan sülhü olmayacağı təqdirdə nə yaşanacaq? Yeni müharibəmi? Axı Ermənistandakı revanşist kəsim aktivdir. Görəsən, C.O'Brayn Bakıya bunu demək üçünmü gəlib, yoxsa onun "sülhün vaxtının yetişdiyi" məntiqində daha nələrsə də var?

***Ə.RÜSTƏMOV***
***XQ***

# Konstitusiya Məhkəməsinin Plenumu Milli Məclisin buraxılmasının Konstitusiyaya uyğunluğuna dair Prezidentin sorğusuna baxıb

**İyunun 27-də Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun iclası keçirilib.**



İclasda Azərbaycan Respublikası Prezidentinin Azərbaycan Respublikası Milli Məclisinin 2024-cü il 21 iyun tarixli "Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərin təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinə müraciət edilməsi barədə" Qərarı əsasında Azərbaycan Respublikası Milli Məclisinin buraxılmasının və növbədənkənar seçkilər təyin edilməsinin Azərbaycan Respublikasının Konstitusiyasına uyğunluğuna dair sorğusuna baxılıb.

İclasda sorğuverən tərəfin nümayəndələri qismində Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Qanunvericilik və hüquq siyasəti şöbəsinin Hüquq siyasəti məsələləri sektorunun müdiri Rüstəm Qasımov və həmin şöbənin Qanunvericiliyin inkişafı sektorunun müdiri Araz Poladov, cavabverən tərəfin nümayəndəsi Azərbaycan Respublikası Milli Məclisi Aparatının rəhbəri Fərid Hacıyev və ekspert qismində Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin Konstitusiya hüququ kafedrasının dosenti, hüquq üzrə fəlsəfə doktoru Nəsib Şükürov iştirak ediblər.

Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayev iclası açaraq Plenumun tərkibini elan edib və müzakirəyə çıxarılan məsələ barədə məlumat verib.

Sonra məruzəçi hakim, Konstitusiya Məhkəməsinin hakimi Ceyhun Qaracayev çıxış edərək bildirib ki, Azərbaycan Respublikasının Prezidenti Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə sorğu ilə müraciət edərək "Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərin təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinə müraciət edilməsi barədə" parlamentin 2024-cü il 21 iyun tarixli qərarının Azərbaycan Respublikası Konstitusiyasının 981 - ci maddəsinin 1-ci hissəsinə uyğunluğunun yoxlanılmasını xahiş edib. Azərbaycan Respublikası Prezidentinin sorğusunda göstərilib ki, Azərbaycan Respublikası Milli Məclisinin deputatlarının 105 səs çoxluğu ilə parlamentə növbədənkənar seçkilərin təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinə müraciət edilməsi barədə qərar qəbul olunub. Həmin qərarla Azərbaycan Respublikasının Prezidentindən Milli Məclisin Azərbaycan Respublikasının Konstitusiyasının 981 - ci maddəsinə əsasən buraxılması və növbədənkənar seçkilərin təyin edilməsi xahiş edilib.

Azərbaycan Respublikasının Prezidentinin sorğusunda habelə bildirilir ki, Milli Məclisin qərarı üzrə yekun qərar qəbul etməzdən əvvəl hazırkı şəraitdə parlamentin buraxılmasının və növbədənkənar seçkilərin təyin edilməsi təşəbbüsünün Konstitusiyaya uyğunluğuna dair Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin mövqeyinin öyrənilməsi zəruridir.

Sorğuverən tərəfin nümayəndələri qismində Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Qanunvericilik və hüquq siyasəti şöbəsinin Hüquq siyasəti məsələləri sektorunun müdiri Rüstəm Qasımov çıxış edərək bildirib ki, Milli Məclisin qərarında əsaslı olaraq çox vacib məsələlər, problemlər qaldırılıb. O qeyd edib ki, xüsusilə də Konstitusiya Məhkəməsinin 2019-cu il 4 dekabr tarixli Qərarında çox maraqlı bir məsələyə toxunulub: "Konstitusiya Məhkəməsi həmin qərarında qeyd edir ki, Milli Məclis təbii olaraq deputatların mütləq əksəriyyəti ilə öz qərarlarının, öz işinin aparıb-apara bilməyəcəyi barədə qərar qəbul etməyə səlahiyyətlidir. Həmin qərardan bizim anlayışımız ondan ibarətdir ki, biz bu məsələdə Milli Məclisin həmin qərarını əsas götürüb ona hörmətlə yanaşmalıyıq. Bu halda Milli Məclis 105 səs çoxluğu ilə qərara gəlmişdir ki, seçkiləri daha əvvəl keçirmək daha məqsədəmüvafiqdir. Biz də hesab edirik ki, bu mövqe əsaslıdır".

Cavabverən tərəfin nümayəndəsi Azərbaycan Respublikası Milli Məclisi Aparatının rəhbəri Fərid Hacıyev parlamentin müzakirə olunan qərarının Azərbaycan Respublikasının Konstitusiyasına uyğunluğu məsələsi ilə bağlı danışıb. Konstitusiyanın 981 - ci maddəsinin parlamentin bu məsələ ilə bağlı müraciət etmək hüququnu məhdudlaşdırmadığını vurğulayan Fərid Hacıyev deyib: "Bu da nəzərə alınmalıdır ki, Milli Məclisin qərarında qeyd olunduğu kimi, COP29-a hazırlıq işlərinin görülməsi və həmin tədbirin keçirilməsi ilə əlaqədar ölkədə infrastruktur, nəqliyyat, habelə təhlükəsizlik və digər müəyyən məhdudiyyətlərin tətbiq olunması qaçılmazdır".

Milli Məclis Aparatının rəhbəri bildirib ki, bu baxımdan seçkilərin vaxtından əvvəl keçirilməsi vətəndaşların seçkiqabağı kütləvi tədbirlərdə və seçkilərdə maneəsiz iştirakını təmin edəcək. Beləliklə, Konstitusiyanın 56-cı maddəsində təsbit edilmiş vətəndaşların seçki hüququna təminat veriləcək. Bu, eyni zamanda, deputatlığa namizədlərin seçkiqabağı təşviqatı rahat şəkildə aparmalarına imkan yaradacaq.

İclasda ekspert qismində çıxış edən Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin Konstitusiya hüququ kafedrasının dosenti, hüquq üzrə fəlsəfə doktoru Nəsib Şükürov diqqətə çatdırıb ki, bu ilin noyabrında bir çox ölkələrdən nümayəndə heyətlərinin iştirakı ilə ən mötəbər beynəlxalq tədbirlərdən biri olan Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29), Kioto Protokolunun Tərəflər Görüşünün 19-cu sessiyası və Paris Sazişinin Tərəflər Görüşünün 6-cı sessiyası Azərbaycanda keçiriləcək. Ekspert vurğulayıb ki, bu baxımdan həm parlament seçkilərinin, həm də adıçəkilən tədbirlərin yüksək səviyyədə təşkili böyük əhəmiyyət kəsb edir. Onun sözlərinə görə, həmin dövrdə Milli Məclisin ölkənin ərazi bütövlüyünün bərpasından sonra yeni tərkibdə təmsil olunması parlament diplomatiyasının verdiyi imkanlardan səmərəli istifadə edilməsi, habelə ölkəmiz üçün bu əhəmiyyətli tədbir zamanı normativ fəaliyyətin davamı olaraq həyata keçirilməsi üçün Milli Məclisin çağırışının tam formalaşması zəruridir.

Çıxışlardan sonra Konstitusiya Məhkəməsi Plenumunun üzvləri gündəlikdəki məsələ ilə bağlı qərar qəbul etmək üçün müşavirə otağına keçiblər.

Müşavirədən qayıtdıqdan sonra Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayev Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumunun Qərarını elan edib.

Qərarda deyilir ki, "Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərin təyin edilməsi haqqında Azərbaycan Respublikasının Prezidentinə müraciət edilməsi barədə" Azərbaycan Respublikası Milli Məclisinin 2024-cü il 21 iyun tarixli 1174-VIQR nömrəli Qərarı və bu Qərar əsasında Azərbaycan Respublikası Milli Məclisinin Azərbaycan Respublikasının Prezidenti tərəfindən buraxılması və növbədənkənar seçkilərin təyin edilməsi Azərbaycan Respublikası Konstitusiyasının 981-ci maddəsinə uyğun hesab edilməlidir.

Qəbul edilmiş qərar elan olunduğu andan qüvvəyə minir, qətidir, heç bir orqan və ya şəxs tərəfindən ləğv oluna, dəyişdirilə, yaxud rəsmi təfsir edilə bilməz.

Bunun la da Konstitusiya Məhkəməsi Plenumunun iclası bağlı elan edilib.

***AZƏRTAC***

# AZƏRBAYCAN RESPUBLİKASI ADINDAN

# Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun qərarı

**"Azərbaycan Respublikası Milli Məclisinə növbədənkənar seçkilərin təyin edilməsi haqqında Azərbaycan Respublikasının Prezidentinə müraciət edilməsi barədə" Azərbaycan Respublikası Milli Məclisinin 2024-cü il 21 iyun tarixli Qərarının Azərbaycan Respublikasının Konstitusiyasına uyğunluğunun yoxlanılmasına dair**

**27 iyun 2024-cü il, Bakı şəhəri**

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu Fərhad Abdullayev (sədr), Sona Salmanova, Humay Əfəndiyeva, Rövşən İsmayılov, Ceyhun Qaracayev (məruzəçi-hakim), Rafael Qvaladze, Fikrət Məmmədov, İsa Nəcəfov və Kamran Şəfiyevdən ibarət tərkibdə, məhkəmə katibi Fəraid Əliyevin, sorğuverən orqanın nümayəndələri Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Qanunvericilik və hüquq siyasəti şöbəsinin Hüquq siyasəti məsələləri sektorunun müdiri Rüstəm Qasımov və həmin şöbənin Qanunvericiliyin inkişafı sektorunun müdiri Araz Poladovun, cavabverən orqanın nümayəndəsi Azərbaycan Respublikası Milli Məclisi Aparatının rəhbəri Fərid Hacıyevin, ekspert Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin Konstitusiya hüququ kafedrasının dosenti, hüquq üzrə fəlsəfə doktoru Nəsib Şükürovun iştirakı ilə, Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin III hissəsinin 1-ci bəndinə uyğun olaraq Azərbaycan Respublikası Prezidentinin sorğusu əsasında konstitusiya məhkəmə icraatı qaydasında "Azərbaycan Respublikası Milli Məclisinə növbədənkənar seçkilərin təyin edilməsi haqqında Azərbaycan Respublikasının Prezidentinə müraciət edilməsi barədə" Azərbaycan Respublikası Milli Məclisinin 2024-cü il 21 iyun tarixli Qərarının və bu Qərar əsasında Azərbaycan Respublikası Milli Məclisinin buraxılmasının və növbədənkənar seçkilərin təyin edilməsinin Azərbaycan Respublikasının Konstitusiyasına uyğunluğunun yoxlanılmasına dair konstitusiya işinə baxdı.

İş üzrə hakim Ceyhun Qaracayevin məruzəsini, tərəflərin nümayəndələrinin çıxışlarını və ekspertin rəyini dinləyib, iş materiallarını araşdırıb müzakirə edərək, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu

**MÜƏYYƏN ETDİ:**

Azərbaycan Respublikasının Prezidenti Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə sorğu ilə müraciət edərək "Azərbaycan Respublikası Milli Məclisinə növbədənkənar seçkilərin təyin edilməsi haqqında Azərbaycan Respublikasının Prezidentinə müraciət edilməsi barədə" Azərbaycan Respublikası Milli Məclisinin 2024-cü il 21 iyun tarixli 1174-VIQR nömrəli Qərarı əsasında Azərbaycan Respublikası Milli Məclisinin buraxılmasının və növbədənkənar seçkilərin təyin edilməsinin Azərbaycan Respublikası Konstitusiyasının 981–ci maddəsinə uyğunluğuna dair Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin mövqeyinin öyrənilməsini zəruri hesab etmişdir.

Sorğuda göstərilmişdir ki, Azərbaycan Respublikası Milli Məclisinin deputatlarının 105 səs çoxluğu ilə qəbul edilmiş "Azərbaycan Respublikası Milli Məclisinə növbədənkənar seçkilərin təyin edilməsi haqqında Azərbaycan Respublikasının Prezidentinə müraciət edilməsi barədə" 2024-cü il 21 iyun tarixli Qərara əsasən Azərbaycan Respublikasının Prezidentindən Azərbaycan Respublikası Milli Məclisinin Azərbaycan Respublikası Konstitusiyasının 981–ci maddəsinə uyğun olaraq buraxılması və növbədənkənar seçkilərin təyin edilməsi xahiş edilmişdir.

Azərbaycan Respublikası Milli Məclisinin Qərarında qeyd olunmuşdur ki, həm parlament seçkilərinin, həm də ölkədə keçiriləcək bir sıra mötəbər beynəlxalq tədbirlərin eyni zaman kəsiyinə təsadüf etməsi nəzərə alınaraq seçkilərin seçki qanunvericiliyinin tələblərinə uyğun keçirilməsinin və Azərbaycan Respublikası Milli Məclisinin Azərbaycan Respublikası Konstitusiyasının 94-cü və 95-ci maddələrində nəzərdə tutulmuş vəzifələrinin tam icra edə bilməsinin, o cümlədən həmin dövrdə normayaratma fəaliyyətinin fasiləsizliyinin təmin edilməsi üçün növbədənkənar parlament seçkilərinin keçirilməsi zəruridir.

Azərbaycan Respublikası Prezidentinin sorğusunda qaldırılan məsələ ilə bağlı Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu Azərbaycan Respublikası Konstitusiyasının bəzi normalarının nəzərdən keçirilməsini vacib hesab edir.

Azərbaycan Respublikası Konstitusiyasının 81-ci maddəsinə görə, Azərbaycan Respublikasında qanunvericilik hakimiyyətini Azərbaycan Respublikasının Milli Məclisi həyata keçirir.

Azərbaycan Respublikası Konstitusiyasının 82-ci maddəsinə uyğun olaraq, Azərbaycan Respublikasının Milli Məclisi 125 deputatdan ibarətdir.

Azərbaycan Respublikası Milli Məclisinin müəyyən etdiyi ümumi qaydaların, habelə həll etdiyi məsələlərin dairəsi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü və 95-ci maddələrində təsbit edilmişdir.

Azərbaycan Respublikası Konstitusiyasının 981–ci maddəsinə əsasən, Azərbaycan Respublikası Milli Məclisinin eyni çağırışı bir il ərzində iki dəfə Azərbaycan Respublikasının Nazirlər Kabinetinə etimadsızlıq göstərdikdə və ya Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin, Azərbaycan Respublikası Ali Məhkəməsinin və Azərbaycan Respublikası Mərkəzi Bankı İdarə Heyətinin kollegial fəaliyyəti üçün zəruri olan sayda üzvlüyə namizədləri Azərbaycan Respublikasının Prezidenti tərəfindən iki dəfə təqdim edildikdən sonra, qanunla müəyyən edilmiş müddətdə təyin etmədikdə, habelə bu Konstitusiyanın 94-cü və 95-ci maddələrində, 96-cı maddəsinin II, III, IV və V hissələrində, 97-ci maddəsində göstərilən vəzifələrini aradan qaldırıla bilməyən səbəblər üzündən icra etmədikdə, Azərbaycan Respublikasının Prezidenti Azərbaycan Respublikasının Milli Məclisini buraxır.

Növbədənkənar seçkilərdə seçilən Azərbaycan Respublikası Milli Məclisinin çağırışının səlahiyyət müddəti beş ildən az ola bilər. Bu halda Azərbaycan Respublikasının Milli Məclisinə növbəti seçkilər növbədənkənar seçkilərdə seçilən Azərbaycan Respublikası Milli Məclisinin çağırışının səlahiyyət müddətinin beşinci ilinin noyabr ayının birinci bazar günü keçirilir.

Qeyd edilməlidir ki, hakimiyyətin bölünməsi prinsipinə əsasən ölkədə qanunvericilik fəaliyyətini həyata keçirən Azərbaycan Respublikasının Milli Məclisi xalq hakimiyyətinin təzahürü olmaqla ümumi, bərabər və birbaşa seçki hüququ əsasında sərbəst, gizli və şəxsi səsvermə yolu ilə təşkil olunur.

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu "Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərin təyin edilməsi haqqında Azərbaycan Respublikasının Prezidentinə müraciət edilməsi barədə" Azərbaycan Respublikası Milli Məclisinin 2019-cu il 2 dekabr tarixli Qərarının Azərbaycan Respublikasının Konstitusiyasına uyğunluğunun yoxlanılmasına dair" 2019-cu il 4 dekabr tarixli Qərarında göstərmişdir ki, müasir demokratik cəmiyyət üçün parlamentin fəallığı böyük əhəmiyyət kəsb edir. Qabaqcıl və mütərəqqi hüquqi aktların qəbul edilməsi ölkədə ictimai münasibətlərin ədalət və hüququn aliliyi əsasında tənzimlənməsini təmin edir.

Məlum olduğu kimi, 2024-cü ilin noyabr ayında öz kütləviliyi və əhəmiyyəti ilə seçilən mötəbər beynəlxalq tədbirlərdən olan Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29), Kioto Protokolunun Tərəflər Görüşünün 19-cu sessiyası və Paris Sazişinin Tərəflər Görüşünün 6-cı sessiyası Azərbaycan Respublikasında keçiriləcəkdir.

Azərbaycan Respublikası Milli Məclisinin 2024-cü il 21 iyun tarixli Qərarında qeyd olunur ki, ölkədə gözlənilən beynəlxalq tədbirlər zamanı Azərbaycan Respublikası Milli Məclisinin Azərbaycan Respublikası Konstitusiyasının 94-cü və 95-ci maddələrində nəzərdə tutulmuş vəzifələrini tam icra edə bilməsinin və həmin dövrdə normayaratma fəaliyyətinin fasiləsizliyinin təmin edilməsinin məqsədəmüvafiqliyi nəzərə alınaraq növbədənkənar parlament seçkilərinin keçirilməsi zəruridir.

Nəzərə alınmalıdır ki, seçkilər vətəndaşların iradəsini ifadə etməsinin əvəzsiz hüquqi vasitəsi kimi çıxış etməklə, seçkidə iştirakın əlçatanlığının təmin edilməsi, namizədlərin seçicilərlə təmasının, öz siyasi platformalarını təqdim etmələri məqsədilə zəruri və əlverişli şəraitin yaradılması baxımından dövlət üçün müvafiq öhdəlik yaradır.

Azərbaycan Respublikası Konstitusiyasının 56-cı maddəsinə əsasən, Azərbaycan Respublikası vətəndaşlarının dövlət orqanlarına seçmək və seçilmək, habelə referendumda iştirak etmək hüququ vardır.

Azərbaycan Respublikası Seçki Məcəlləsinin Preambulasında qeyd edilmişdir ki, Azərbaycan Respublikasının dövlət hakimiyyətinin əsasını Azərbaycan xalqının iradəsi təşkil edir. Azərbaycan xalqının iradəsi ümumi, bərabər və birbaşa seçki hüququ əsasında gizli və şəxsi səsvermə yolu ilə azad və mütəmadi keçirilən seçkilərdə, habelə ümumi, bərabər və birbaşa seçki hüququ əsasında gizli və şəxsi səsvermə yolu ilə keçirilən ümumxalq səsverməsində — referendumda öz təzahürünü tapır. Azərbaycan dövləti Azərbaycan Respublikası vətəndaşlarının iradəsinin azad ifadə edilməsinə seçki hüququnun prinsip və normalarının müdafiə edilməsi yolu ilə təminat verir.

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun adıçəkilən 2019-cu il 4 dekabr tarixli Qərarında qeyd edilmişdir ki, Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikasının Konstitusiyası ilə ona verilmiş səlahiyyətlərinin həyata keçirilməsi ilə bağlı fəaliyyətini obyektiv qiymətləndirməklə öz işini davam etdirib-etdirməməsinin mümkünlüyünə dair qərar qəbul edə bilər.

Həmin Qərarda, həmçinin göstərilir ki, deputatların mütləq əksəriyyətinin parlamentin öz səlahiyyətlərini artıq həyata keçirə bilməməsi barədə qəti mövqeyinin formalaşması Azərbaycan Respublikası Milli Məclisinin buraxılması üçün Azərbaycan Respublikası Konstitusiyasının 981–ci maddəsində nəzərdə tutulmuş əsası yaradır.

Hazırkı halda da Azərbaycan Respublikası Milli Məclisi deputatlarının mütləq əksəriyyətinin mövqeyi ondan ibarətdir ki, ölkədə beynəlxalq tədbirlərin keçirilməsi ilə bağlı aparılacaq işlər Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərin seçki qanunvericiliyinə uyğun keçirilməsinə və Azərbaycan Respublikası Milli Məclisinin Azərbaycan Respublikası Konstitusiyasının 94-cü və 95-ci maddələrində göstərilmiş səlahiyyətlərinin tam icra edilməsinə maneə törədəcəkdir.

Beləliklə, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu əvvəlki Qərarında ifadə etdiyi hüquqi mövqeyə əsasən hesab edir ki, "Azərbaycan Respublikası Milli Məclisinə növbədənkənar seçkilərin təyin edilməsi haqqında Azərbaycan Respublikasının Prezidentinə müraciət edilməsi barədə" Azərbaycan Respublikası Milli Məclisinin 2024-cü il 21 iyun tarixli Qərarı və bu Qərar əsasında Azərbaycan Respublikası Milli Məclisinin buraxılması və növbədənkənar seçkilərin təyin edilməsi Azərbaycan Respublikası Konstitusiyasının 981–ci maddəsinə uyğundur.

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu, həmçinin qeyd edir ki, "Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərin təyin edilməsi haqqında Azərbaycan Respublikasının Prezidentinə müraciət edilməsi barədə" Azərbaycan Respublikası Milli Məclisinin 2019-cu il 2 dekabr tarixli Qərarının Azərbaycan Respublikasının Konstitusiyasına uyğunluğunun yoxlanılmasına dair" 2019-cu il 4 dekabr tarixli Qərarında ifadə etdiyi hüquqi mövqeyə uyğun olaraq, Azərbaycan Respublikası Milli Məclisinin yeni çağırışı fəaliyyətə başlayanadək müstəsna olaraq Azərbaycan Respublikası Konstitusiyasının 111 və 112-ci maddələrində, 95-ci maddəsinin I hissəsinin 16-cı və 17-ci bəndlərində nəzərdə tutulmuş səlahiyyətlərin, habelə beynəlxalq təşkilatlarda təmsilçilik funksiyalarının həyata keçirilməsi üçün VI çağırış Azərbaycan Respublikası Milli Məclisinin müvafiq səlahiyyətlərinin saxlanılması zəruridir.

Göstərilənlərə əsasən Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu aşağıdakı nəticəyə gəlir:

- "Azərbaycan Respublikası Milli Məclisinə növbədənkənar seçkilərin təyin edilməsi haqqında Azərbaycan Respublikasının Prezidentinə müraciət edilməsi barədə" Azərbaycan Respublikası Milli Məclisinin 2024-cü il 21 iyun tarixli 1174-VIQR nömrəli Qərarı və bu Qərar əsasında Azərbaycan Respublikasının Prezidenti tərəfindən Azərbaycan Respublikası Milli Məclisinin buraxılması və növbədənkənar seçkilərin təyin edilməsi Azərbaycan Respublikası Konstitusiyasının 981–ci maddəsinə uyğun hesab edilməlidir.

Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin III hissəsinin 1-ci bəndini, "Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikası Qanununun 52, 62, 63, 65-67 və 69-cu maddələrini rəhbər tutaraq, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu

**QƏRARA ALDI:**

**1.** "Azərbaycan Respublikası Milli Məclisinə növbədənkənar seçkilərin təyin edilməsi haqqında Azərbaycan Respublikasının Prezidentinə müraciət edilməsi barədə" Azərbaycan Respublikası Milli Məclisinin 2024-cü il 21 iyun tarixli 1174-VIQR nömrəli Qərarı və bu Qərar əsasında Azərbaycan Respublikasının Prezidenti tərəfindən Azərbaycan Respublikası Milli Məclisinin buraxılması və növbədənkənar seçkilərin təyin edilməsi Azərbaycan Respublikası Konstitusiyasının 981–ci maddəsinə uyğun hesab edilsin.

**2.** Qərar elan edildiyi andan qüvvəyə minir.

**3.** Qərar Azərbaycan Respublikasının rəsmi dövlət qəzetlərində və "Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Məlumatı"nda dərc edilsin, habelə Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin rəsmi internet saytında yerləşdirilsin.

**4.** Qərar qətidir, heç bir orqan və ya şəxs tərəfindən ləğv edilə, dəyişdirilə və ya rəsmi təfsir edilə bilməz.

***Sədr Fərhad ABDULLAYEV***

# İtaliya Azərbaycanın xaricdə ən fəal tərəfdaşıdır

**Prezident İlham Əliyev iyunun 26-da İtaliya Respublikasının müdafiə naziri Quido Krosettonun başçılıq etdiyi nümayəndə heyətini qəbul edərkən bu gün Azərbaycan–İtaliya əlaqələri tarixində yeni bir mərhələ başlandığını, münasibətlərdə yeni səhifə açıldığını, iki ölkənin hərbi-texniki sahədə də artıq əməkdaşlığa başladığını vurğulayıb.**



Dövlətimizin başçısı İtaliyanın yüksək səviyyədə inkişaf etmiş hərbi-texniki sənayeyə malik olduğunu bildirərək iyunun 26-da təqdim olunan “C-27J Spartan” tipli hərbi nəqliyyat təyyarəsinin Azərbaycana gətirilməsini əlaqələrimizin yüksək səviyyəsinin göstəricisi kimi dəyərləndirib. Prezident İlham Əliyev, eyni zamanda, Azərbaycan ilə İtaliyanın bir çox sahələrdə strateji tərəfdaş kimi fəaliyyət göstərdiyini deyərək, Avropa məkanında ticarət əlaqələrimizin böyük hissəsinin bu dost ölkənin payına düşdüyünü, ticarət dövriyyəmizin 15 milyard dolları ötdüyünü və bir çox İtaliya şirkətlərinin respublikamızda uğurla fəaliyyət göstərdiyini, habelə bir sıra layihələrdə iştirakını məmnunluqla qeyd edib.

Bu qısa qeydlərə əsaslanıb deyə bilərik ki, Azərbaycanın hazırda ikitərəfli münasibətlərinin dinamik inkişaf etdiyi ölkələr sırasında İtaliya xüsusi yer tutur. Xatırladaq ki, bu münasibətlərin əsası İtaliyanın Azərbaycan Respublikasının müstəqilliyini 1992-ci il yanvarın 1-də tanıması,1992-ci il mayın 8-də isə iki ölkə arasında diplomatik əlaqələr yaradılması ilə başlanılıb. Onu da deyək ki, 1997-ci ilin mart ayında İtaliya hökuməti Cənubi Qafqaz ölkələri arasında ilk dəfə Azərbaycanda öz səfirliyini təsis edib, 2003-cü ilin dekabr ayında isə Azərbaycan Respublikasının İtaliyada səfirliyi fəaliyyətə başlayıb.

Yeri gəlmişkən, 1997-ci il sentyabrın 25-28-də ulu öndər Heydər Əliyevin İtaliyaya rəsmi səfəri iki ölkə arasındakı münasibətlərin inkişafına xüsusi təkan verib. Sonrakı dövrdə İtaliyanın rəsmi şəxsləri Azərbaycana, ölkəmizin rəsmi şəxsləri isə İtaliyaya çoxsaylı səfərlər ediblər. Bu səfərlər çərçivəsində iki ölkə arasında ikitərəfli əlaqələrin tənzimlənməsinə, əməkdaşlığın inkişaf etdirilməsinə dair sənədlər imzalanıb.

Göründüyü kimi, Azərbaycan – İtaliya əlaqələri çox möhkəm təməl üzərində qurulub. İki ölkənin münasibətləri ötən illər ərzində uğurla inkişaf edərək strateji əməkdaşlıq və tərəfdaşlıq səviyyəsinə yüksəlib. Şübhəsiz ki, dost dövlətlər arasında ali və yüksək səviyyəli səfərlər də əməkdaşlığın möhkəmlənməsində önəmli rol oynayıb.

Respublikamız bu gün İtaliyanın əsas siyasi, iqtisadi-ticari tərəfdaşlarından biridir. İtaliyanın Azərbaycanla əlaqələri yalnız enerji sahəsini deyil, iqtisadiyyatın digər sektorlarını da əhatə edir. Bunu İtaliya şirkətləri tərəfindən enerji, infrastruktur və nəqliyyat sahələrinə geniş həcmdə sərmayə yatırılması da aydın göstərir.

Vətən müharibəsindən bir müddət sonra dövlətimizin başçısı İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun işğaldan azad etdiyi ərazilərdə elektroenergetika infrastrukturunun yaradılması məqsədilə “Azərenerji” ASC-nin rəhbəri Baba Rzayevlə İtaliyanın “Ansaldo Energia” şirkətinin rəhbəri Marino Guiseppe arasında video-konfrans formatında qarşılıqlı əməkdaşlıq sahəsində təchizat müqaviləsi imzalanıb. Bununla da Qarabağda həyata keçiriləcək layihələrə Türkiyədən sonra başqa bir nüfuzlu dövlət də qoşulub.

“Azərenerji” ilə “Ansaldo Energia” rəhbərlərinin İtaliyanın Azərbaycandakı səfirinin iştirakı ilə imzaladıqları müqaviləyə görə, Agdam, Füzuli, Kəlbəcər və Qubadlı rayonlarında inşa olunan dörd 110 kV-luq yarımstansiyanın avadanlıqlarla təchizatını məhz “Ansaldo Energia” şirkəti həyata keçirib.

Ermənistanın 30 il ərzində işğal altında saxladığı Ağdam, Füzuli, Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında bütün infrastruktur, o cümlədən elektrik stansiyaları, yarımstansiyaları, ötürücü xətləri dağıdılaraq yerlə yeksan edilib. Bu ərazilərdə enerji sistemindən əsər-əlamət belə qalmayıb. Laçın, Kəlbəcər, Şuşa və digər işğaldan azad edilmiş ərazilərdə isə erməni qəsbkarları tərəfindən bütün enerji infrastrukturu sıradan çıxarılıb, düşmən apara bildiyi avadanlıqları daşıyıb, apara bilmədiyini isə ya partladıb, ya da yandırıb.

İki ölkənin enerji sahəsində əməkdaşlığında da ötən illər ərzində mühüm uğurlar əldə edilib. Belə ki, 1995-cu il noyabrın 10-da ARDNŞ və İtaliyanın ENİ/Agip şirkətinin də daxil olduğu beynəlxalq konsorsium arasında Xəzər dənizinin Azərbaycan sektorundakı “Qarabağ” perspektiv strukturunun kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsünə, 1996-cu ilin iyunun 4-də Xəzər dənizinin Azərbaycan sektorundakı “Şah Dəniz” perspektiv strukturunun kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsünə, 1998-ci ilin iyunun 2-də isə Xəzər dənizinin Azərbaycan sektorundakı “Kürdaşı” dəniz blokunun kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsünə dair sazişlər imzalanıb.

Xatırladaq ki, 2002-ci ilin sentyabr ayında İtaliyanın ENİ/Agip şirkəti Bakı–Tbilisi–Ceyhan Əsas İxrac Boru Kəməri layihəsinə dair sazişi imzalayaraq 5 faiz payla layihə üzrə sponsorlar qrupunun üzvünə çevrilib.

İtaliya Azərbaycanın Avropada ən yaxın ticarət tərəfdaşı olmaqla yanaşı, TANAP-TAP layihələrində aparıcı tranzit ölkələrdən biridir. “Cənub Qaz Dəhlizi” layihəsinin son mərhələsi olan TAP çərçivəsində Azərbaycan qazı İtaliya vasitəsilə Avropaya çatdırılır.

İqtisadçı ekspert, CESI Beynəlxalq Araşdırmalar Mərkəzinin (Roma) təhlil şöbəsinin müdiri Marko Di Liddo Azərbaycan mediasına bildirdiyinə görə, Azərbaycan özünü İtaliyaya dost və sadiq bir ölkə kimi tanıdıb. Hazırkı çətin qlobal geosiyasi vəziyyətdə Azərbaycandan təbii ehtiyatların tədarükü İtaliyanın enerji sektorunda problemlərin həllinə kömək edir. Azərbaycan təkcə İtaliya və Avropa üçün etibarlı təchizatçı deyil, həm də Roma və bütün Aİ ilə yaxşı münasibətlər saxlayır. Azərbaycan sayəsində İtaliya iqtisadi və ekoloji dayanıqlığa yönəlmiş innovativ enerji mərkəzinə çevrilir.

Azərbaycan İtaliyanın Cənubi Qafqazda əsas ticarət tərəfdaşıdır, dost ölkənin Cənubi Qafqazla ticarətinin 95 faizi Azərbaycanladır. Trans-Adriatik Boru Kəməri (TAP) vasitəsilə Azərbaycandan İtaliyaya qaz nəqli 2024-cü ilin yanvarında 878 milyon kubmetr təşkil edib ki, bu da 2023-cü ilin analoji dövrünün göstəricisindən 3,1 faiz çoxdur.

Marko Di Liddo daha sonra vurğulayıb ki, BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflərin Konfransının (COP29) mədən yanacaqlarının istehsalçısı və ixracatçısı olan Azərbaycanda keçirilməsi hökumətin iqlim dəyişikliyi ilə mübarizədə ciddi addımlar atmaq strategiyasını nümayiş etdirir: “İnanıram ki, əməkdaşlığın əsas mövzusu enerji səmərəliliyinin artırılması üçün birgə texnoloji tərəfdaşlıqların inkişafı, akkumulyator və elektromobil zavodlarının tikintisi olacaq. İtaliya və Azərbaycanı ciddi iqtisadi və enerji diversifikasiyasına başlamaq zərurəti birləşdirir. Ölkələrimiz arasında qaz layihələri ilə yanaşı, hidrogenlə bağlı çoxsaylı layihələr həyata keçirilə bilər. Bu yaxınlarda İtaliya hakimiyyəti Trans-Adriatik Boru Kəmərindən hidrogen tədarükü üçün də istifadə imkanlarını təhlil edir ki, bu da enerji sahəsində əməkdaşlığı daha da gücləndirəcək”.

Azərbaycanın dost ölkə ilə “yaşıl kimya”, “yaşıl enerji”, “ağıllı şəhər”, “ağıllı kənd” layihələri əsasında sıx əməkdaşlığı mövcuddur. İtaliyanın 90-a yaxın şirkəti respublikamızda həyata keçirilən layihələrdə podratçı qismində iştirak edir.

Bakıda, eləcə də işğaldan azad edilmiş şəhərlərdə Qələbə və İşğal muzeylərinin, habelə Azərbaycanın mədəniyyət paytaxtı Şuşada tarixi abidələrimizin və dağıdılmış məscidlərimizin bərpa və inşası ilə bağlı İtaliya şirkətləri səmərəli fəaliyyət göstərirlər. Hazırda 3 şəhərdə İşğal və Zəfər muzeyləri İtaliya şirkətləri tərəfindən inşa olunur. Şuşada qədim məscidin bərpası və yeni məscidin inşasını da İtaliya şirkətləri həyata keçirirlər.

İki ölkə arasında siyasi münasibətlərin güclənməsi iqtisadi-ticarət əlaqələrinin inkişafına müsbət təsir göstərir. Ticarət baxımından Azərbaycan bu ölkənin ilk kommersiya tərəfdaşıdır. 2023-cü ildə Azərbaycandan İtaliyaya 15 milyard 208 milyon dollar dəyərində məhsul ixrac olunub. Dost ölkədən Azərbaycana isə 477 milyon 903 min dollar dəyərində məhsul idxal edilib.

İtaliya və Azərbaycan arasında münasibətlərin uğurla inkişaf etməsinin əsas səbəblərindən biri ölkəmizin hər zaman verdiyi vədə sadiq qalması, razılaşdırılan məsələlərin icrasının diqqətdə saxlamasıdır.



## Kəlbəcər və Laçın SES-lər “karbon” sertifikatı alacaq

**2024-cü ilin əvvəlində Kəlbəcər rayonunda yerləşən “Çıraq-1”, “Çıraq-2”, “Soyuqbulaq”, “Qamışlı” və “Meydan”, eləcə də Laçın rayonunda yerləşən “Mirik” və “Qarıqışlaq” kiçik su elektrik stansiyaları üçün karbon sertifikatlarının alınması və bununla karbon kreditləri üzrə könüllü bazarda iştirakın gerçəkləşdirilməsi məqsədilə “Azərenerji” ASC-nin “SOCAR Trading”lə əməkdaşlığı çərçivəsində Qətər və İsveçrədə yerləşən “Global Carbon Council”, eyni zamanda “Gold Standard” qurumlarına müraciət edilib.**

Yuxarıda qeyd edilən qurumlar tərəfindən 7 kiçik SES üzrə sənədlərə ilkin baxış keçirilib və qeydiyyat proseduru çərçivəsində sahə auditi təyin olunub. Sahə auditi prosedurunun icrası üçün audit şirkəti cəlb edilib. Bu mərhələ 2024-cü ilin iyunun 10-dan etibarən 3 gün ərzində Azərbaycanda səfərdə olan ekspert tərəfindən reallaşdırılıb.

Qeydiyyatı davam edən 7 kiçik SES-in fəaliyyəti nəticəsində il ərzində 45 – 50 min ton karbon dioksid qazının atmosferə atılmasının qarşısının alınması nəzərdə tutulub.

## STAR NEZ Türkiyənin 3 nəhəngindən biridir

**Azərbaycan Dövlət Neft Şirkətinin (SOCAR) Türkiyədəki STAR neft emalı zavodu (NEZ) İstanbul Sənaye Palatasının (ISO) reytinqində 2023-cü ildə qardaş ölkənin 3 ən böyük müəssisəsi siyahısına daxil edilib.**



“Anadolu” agentliyinin bu barədə yaydığı xəbərə əsasən, reytinqdə ilk yerdə Türkiyənin ən böyük sənaye müəssisəsi olan “Turkiye Petrol Rafinerileri AS” (TÜPRAŞ) neft emalı zavodu qərarlaşıb. Müəssisədə 484,2 milyard lirə (14,7 milyard ABŞ dolları) məbləğində məhsul istehsal edilib. “Ford Automotive” isə 238 milyard lirə (7,22 milyard ABŞ dolları) məbləğində satışla ikinci yerə yüksəlib. STAR neft emalı zavodu isə 226,8 milyard lirə (6,88 milyard ABŞ dolları) dəyərində məhsul satışı ilə üçüncü olub.

STAR NEZ 2018-ci il oktyabrın 19-da istifadəyə verilib və “Azeri Light”, “Kerkük” və “Urals” kimi neft növlərinin emalı üçün nəzərdə tutulub.

## SOCAR – VNG anlaşması

**Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (SOCAR) ilə VNG şirkəti arasında təbii qaz və bərpaolunan enerji mənbələri sahələrində əməkdaşlığın genişləndirilməsinə dair anlaşma memorandumu imzalanıb.**




SOCAR-dan verilən məlumata görə, Almaniyanın aparıcı enerji şirkətlərindən biri olan VNG ilə imzalanan anlaşma memorandumu dayanıqlı enerji həllərinin inkişafına və beynəlxalq əməkdaşlığın təşviqinə töhfə verəcək.

Sənəddə təbii qazın təchizatı imkanlarının araşdırılması və qaz infrastrukturundan istifadə üzrə təcrübə mübadiləsi nəzərdə tutulub. Memorandumda tərəflər arasında bərpaolunan enerji və karbonsuzlaşdırılmış qazlara keçidi nəzərdə tutan layihələr üzrə əməkdaşlıq imkanlarının araşdırılacağı da vurğulanıb.

# KOB-lar “kiçik” və “orta” adlansa da, çəkicə böyükdür

## *Onlar Azərbaycanda sahibkarların 99,6 faizini təşkil edirlər*

**Məlum olduğu kimi, Birləşmiş Millətlər Təşkilatı Baş Assambleyasının qətnaməsinə əsasən 2017-ci ildən etibarən iyun ayının 27-si dünyada Mikro, Kiçik və Orta Müəssisələr Günü kimi təsis olunub. Bundan da məqsəd mikro, kiçik və orta biznesin (KOB) davamlı inkişafa və iqtisadiyyata verdiyi töhfəni bir daha xatırlatmaq və ictimaiyyəti məlumatlandırmaqdır.**

Ümumilikdə, kiçik və orta biznes subyektləri iqtisadi artımın və sosial inkişafın mühərrikləri hesab olunur. Onların fəaliyyət göstərdikləri ölkələrdə dayanıqlı və davamlı inkişafa, məşğulluğun təmin edilməsinə, yoxsulluğun azaldılmasına, sahibkarlığın və innovasiyaların stimullaşdırılmasına və BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərinə nail olunmasına verdiyi töhfə böyükdür. Təkcə onu qeyd etmək kifayətdir ki, hazırda dünya üzrə şirkətlərin təqribən 90 faizi KOB subyektləridir. Bundan əlavə, KOB-lar dünyada məşğulluğun 60-70 faizini, ümumi daxili məhsulun isə 50-60 faizini təmin edir.



Azad bazar iqtisadi münasibətlərinin hökmran olduğu indiki şəraitdə bütün dünyada olduğu kimi, Azərbaycanda da KOB-lar iqtisadiyyatın hərəkətverici qüvvəsi, dayanıqlı və davamlı inkişafın açarıdır. Məhz buna görədir ki, son illər ölkə iqtisadiyyatının dinamik inkişafında mühüm rol oynayan özəl sektora, o cümlədən kiçik və orta biznes subyektlərinə dövlət dəstəyi getdikcə gücləndirilir. Hazırda bazar iqtisadiyyatı yolu ilə inamla irəliləyən ölkəmizdə biznes fəaliyyətinə başlamaq istəyən şəxslər özünü daha inamlı və güvənli hiss edirlər. Bunun nəticəsidir ki, son illər sosial-iqtisadi həyatın bütün sahələrində sahibkarlıq subyektlərinin, xüsusən də KOB-ların sayı getdikcə artır.

Yeri gəlmişkən, Nazirlər Kabinetinin 21 dekabr 2018-ci il tarixli qərarı ilə “Mikro, kiçik, orta və iri sahibkarlıq subyektlərinin yeni bölgüsü meyarları” təsdiq olunub. Həmin meyarlara əsasən, ölkəmizdə işçilərinin sayı 10-dək, illik gəliri 200 min manatadək olan biznes subyekti mikro sahibkar sayılır. İşçilərinin sayı 11-50 arasında, illik gəliri 200 min 3 milyon manat arasında olan iş adamı kiçik sahibkar hesab olunur. Orta sahibkar isə işçilərinin sayı 51-250 arasında və illik gəliri 3-30 milyon manat arasında olan sahibkardır.

İqtisadiyyat Nazirliyinin tabeliyindəki Kiçik və Orta Biznesin İnkişafı Agentliyindən (KOBİA) verilən məlumata görə, hazırda Azərbaycanda fəaliyyət göstərən sahibkarların 99,6 faizini kiçik və orta biznes subyektləri təşkil edir. Onların isə 96,8 faizi mikro, 2 faizi kiçik, 0,8 faizi orta sahibkarlıq subyektləridir. Ölkəmizdə KOB subyektləri əsasən ticarət, kənd təsərrüfatı, tikinti, emal, logistika, sənaye, turizm, ictimai iaşə, nəqliyyat və digər sahələrdə fəaliyyət göstərirlər.

Qurumun məlumatına əsasən, bu tip subyektlərin yeni bölgüsü meyarlarının tətbiq edildiyi son 5 il ərzində KOB-ların sayı 54 faiz artıb. Artıq iqtisadiyyatın hərəkətverici qüvvəsinə çevrilmiş kiçik və orta biznes subyektləri ümumi daxili məhsul istehsalında xüsusi pay sahibinə çevrilib. Təkcə onu qeyd etmək kifayətdir ki, ötən müddətdə sözügedən biznes subyektlərinin qeyri-neft-qaz sektoru üzrə əlavə dəyərdə payı 23,5 faizdən 27,2 faizə yüksəlib. Bütövlükdə isə, KOB-lar tərəfindən yaradılan əlavə dəyərin həcmi 74 faizdən çox artaraq təqribən 17,2 milyard manat təşkil edib. Bununla yanaşı, son beş ildə kiçik və orta biznes subyektlərində fəaliyyət göstərən işçilərin sayı 31 faiz artaraq 370 min nəfəri keçib.

Kiçik və Orta Biznesin İnkişafı Agentliyi 2023-cü ilin statistikasından çıxış edərək bildirib ki, hesabat dövründə kiçik və orta biznes sektoru üzrə cəmi dövriyyə 43,8 milyard manat təşkil edib ki, bu da əvvəlki illə müqayisədə 13 faiz artım deməkdir. Bununla yanaşı, son illərin statistik göstəricilərinə əsasən, meyarı böyüyən şirkətlərin sayında da müsbət dinamika müşahidə edilir. Belə ki, 2022-ci ildə belə şirkətlərin sayı, təqribən, 4600 olduğu halda, ötən il bu rəqəm 5300-ü keçib. Ekspertlərin qənaətinə görə, şirkətlərin böyüməsi təkcə onların dövriyyəsinin artması ilə deyil, eyni zamanda, texniki imkanlarının genişlənməsi, mütərəqqi biznes proseslərinin tətbiqi və məhsuldarlığının yüksəlməsi ilə müşayiət olunur. Bu isə ölkə iqtisadiyyatının dayanıqlığının artırılmasında və şaxələndirilməsində mühüm rol oynayır.

Ölkəmizdə sahibkarlar, o cümlədən KOB subyektləri dövlətin geniş dəstək tədbirləri ilə əhatə olunub. Bu da iqtisadiyyatın müxtəlif sahələrində yeni bu tip subyektlərin yaranmasını və mövcud KOB-ların fəaliyyətinin genişlənməsini, mikro sahibkarların kiçik, kiçik sahibkarların orta və iri biznes subyektlərinə çevrilməsini stimullaşdırır. Bir məqamı da diqqətə çatdıraq ki, kiçik və orta subyektlərə göstərilən dəstək və xidmətlər biznesin qurulmasından başlayaraq onun inkişafına qədər olan bütün proses daxil olmaqla müxtəlif vergi və gömrük güzəştlərini, infrastruktur və digər institusional tədbirləri, güzəştli kredit və subsidiyaları əhatə edir. Eyni zamanda, adı çəkilən sektorda dövlət siyasətinin təkmilləşdirilməsi, həyata keçirilən tədbirlərin səmərəliliyinin artırılması və institusional dəstəyin təmin edilməsi məqsədilə yaradılmış Kiçik və Orta Biznesin İnkişafı Agentliyi tərəfindən yeni KOB-ların yaradılmasına və mövcud bizneslərin inkişafına hərtərəfli kömək göstərilir.

Onu da qeyd edək ki, ölkəmizdə kiçik və orta sahibkarlığın stimullaşdırılması məqsədilə ölkəmizdə KOB evləri yaradılır. Artıq Bakı, Xaçmaz və Yevlax şəhərlərində belə məkanlar fəaliyyət göstərir. Məlumat üçün bildiririk ki, Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin struktur bölməsi olan KOB evləri sahibkarlara dövlət və biznes xidmətlərinin təqdim olunduğu vahid məkandır. Sahibkarlar bu məkana daha çox biznes fəaliyyəti üçün zəruri sənədlər, vergi və gömrük məsələləri, kommunal xidmətlər üçün müraciət ediblər.

“Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər” çərçivəsində hazırlanan ortamüddətli sosial-iqtisadi inkişaf strategiyasında da kiçik və orta sahibkarlığın ölkədə iqtisadi artımın və məşğulluğun əsas mənbəyinə çevrilməsi strateji hədəflərdən biri olaraq müəyyən edilib. “Mikro, kiçik və orta sahibkarlığın inkişafı haqqında” Qanuna, eləcə də Nazirlər Kabinetinin 5 fevral 2024-cü il tarixli qərarına əsasən təsdiq edilmiş KOB subyektlərinə dəstək tədbirləri qarşıdakı illərdə də davam etdiriləcək. Bu baxımdan gələcəkdə KOB-ların rəqəmsallaşmasına, “yaşıl iqtisadiyyat”a keçiddə onların rolunun artırılmasına, işğaldan azad olunmuş ərazilərdə belə subyektlərin fəaliyyətinin təşkilinə diqqət daha da artırılacaq.

*Səhifəni hazırladılar:*
***Vaqif BAYRAMOV,***
***Mirbağır YAQUBZADƏ***
***XQ***

# Milli Məclisdə görüşlər

**Milli Məclisin Sədri Sahibə Qafarova Liviya Dövlətinin Azərbaycandakı səfiri Ali Salem Nasiri qəbul edib. Görüşdə ölkələrimiz arasında mövcud əlaqələrdən danışılıb, siyasi münasibətlərin yaxşı səviyyədə olduğu bildirilib. Eyni zamanda, münasibətlərin digər sahələrinin inkişafı üçün də geniş imkanların mövcudluğu diqqətə çatdırılıb.**



Söhbət zamanı Azərbaycan ilə Liviyanın beynəlxalq təşkilatlar çərçivəsində bütün məsələlərlə bağlı qarşılıqlı dəstək nümayiş etdirdikləri, həm işğal, həm də işğaldan sonrakı dövrlərdə Liviyanın daim ölkəmizin ərazi bütövlüyünə dəstək verdiyi diqqətə çatdırılıb. Bununla yanaşı, Qoşulmama Hərəkatı və İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində də əməkdaşlığın yüksək səviyyəsindən razılıq ifadə olunub. Liviya tərəfinin Qoşulmama Hərəkatı çərçivəsində keçirilən görüşlərdə fəal təmsil olunması məmnunluqla qeyd edilib.

Görüşdə iki ölkə parlamentləri arasında da əməkdaşlığın genişləndirilməsi ilə bağlı fikir mübadiləsi aparılıb. Bu istiqamətdə əlaqələrin dərinləşdirilməsi üçün imkanların mövcud olduğu diqqətə çatdırılıb. Qeyd olunub ki, ölkələrimizin qanunverici orqanları arasında əməkdaşlığın genişləndirilməsi üçün mühüm mexanizmlərdən biri də Azərbaycan Prezidentinin təşəbbüsü ilə yaradılan Qoşulmama Hərəkatı Parlament Şəbəkəsidir.

Spiker parlament şəbəkəsinin fəaliyyəti haqqında diplomata məlumat verib. Bildirilib ki, Liviya parlamenti şəbəkənin tədbirlərində iştirak edir. Liviya Nümayəndələr Palatası sədrinin 1-ci müavini Fouzi Saliminin Şəbəkənin Bakı Konfransında iştirak etdiyi və bu tədbirdə Afrika qrupundan parlament şəbəkəsi sədrinin müavini seçildiyi diqqətə çatdırılıb.

Ali Salem Naser spikerə Silahlı Qüvvələr Günü münasibətilə təbriklərini çatdırıb. O, səfir kimi fəaliyyəti dövründə ölkələrimiz və xalqlarımız arasındakı əlaqələrin möhkəmlənməsi istiqamətində səylərini əsirgəməyəcəyini söyləyib. Diplomat Azərbaycanın həm Qoşulmama Hərəkatına sədrliyi dövründə, həm də digər mühüm beynəlxalq təşkilatlarda fəaliyyəti çərçivəsində həyata keçirdiyi mühüm tədbirlərin əhəmiyyətini qeyd edib.

***

Həmin gün Milli Məclisin Sədri Sahibə Qafarova Ukraynanın ölkəmizə yeni təyin olunmuş səfiri Yuriy Husyevlə görüşüb. Səfiri Azərbaycan parlamentində salamlamaqdan məmnunluğunu bildirən spiker onu bu vəzifəyə təyin edilməsinə görə təbrik edib, diplomata gələcək fəaliyyətində uğurlar arzulayıb.

Görüşdə Azərbaycan–Ukrayna münasibətlərinin mövcud vəziyyəti, ölkələrimizin müstəqilliklərini bərpa etməsindən ötən dövrdə müxtəlif sahələrdə əlaqələrin inkişafından məmnunluq ifadə olunub, ölkələrimiz və xalqlarımız arasında dostluq münasibətlərinin, mədəni, mənəvi bağların əhəmiyyətindən danışılıb. Söhbət zamanı dövlət başçılarımızın qarşılıqlı səfərləri, beynəlxalq təşkilatlar çərçivəsində görüşləri də diqqətə çatdırılıb. Bildirilib ki, iki ölkə arasında mövcud olan dostluq münasibətləri bir çox sahələrdə müşahidə edilir.

Qeyd edilib ki, ölkələrimiz həm ikitərəfli, həm də beynəlxalq təşkilatlar çərçivəsində fəal əməkdaşlıq edirlər. Eyni zamanda, parlament səviyyəsində də bu əməkdaşlıq mövcuddur. Parlament nümayəndə heyətlərinin qarşılıqlı səfərləri, bu səfərlər çərçivəsində keçirdikləri görüşlər, beynəlxalq təşkilatlarda əməkdaşlıqları mühüm əhəmiyyət kəsb edir. Həm Azərbaycan, həm də Ukrayna qanunverici orqanlarında qarşılıqlı parlamentlərarası dostluq qruplarının fəaliyyət göstərdikləri qeyd edilib.

Söhbət zamanı səfir Yuriy Husyev Ukraynaya göstərdiyi humanitar yardımlara görə Azərbaycana təşəkkürünü bildirib, iki ölkə arasında münasibətlərin daha da inkişafı istiqamətində səylərini əsirgəməyəcəyini diqqətə çatdırıb. Bununla yanaşı, BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının Azərbaycanda keçiriləcək 29-cu sessiyasına (COP29) Ukraynanın fəal dəstək göstərməsindən məmnunluq ifadə olunub.

***Ə.BƏDƏLOV***
***XQ***

# Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Vətəndaş Qəbulu Mərkəzində 2024-cü ilin iyul ayında vətəndaşların qəbulu cədvəli

| Qəbulu aparan şəxs | Qəbul günü |
|---|---|
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi –<br>Azərbaycan Respublikası Prezidenti Administrasiyasının<br>İqtisadi siyasət və sənaye məsələləri şöbəsinin müdiri**<br>Əmirov Natiq Ərziman oğlu | 1 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi –<br>Azərbaycan Respublikası Prezidenti Administrasiyasının<br>Ərazi-təşkilat məsələləri şöbəsinin müdiri**<br>Nağdəliyev Zeynal Səfər oğlu | 2 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının<br>Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri**<br>Əliyeva Fərəh Şirməmməd qızı | 3 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi –<br>Azərbaycan Respublikası Prezidenti Administrasiyasının<br>İqtisadi məsələlər və innovativ inkişaf siyasəti şöbəsinin müdiri**<br>Mövsümov Şahmar Arif oğlu | 4 |
| **Azərbaycan Respublikası Birinci vitse-prezidentinin Katibliyinin rəisi**<br>Həsənov Altay Tofiq oğlu | 5, 12,26 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının<br>Hərbi məsələlər şöbəsinin müdiri**<br>Seyidov Fərid Mirmufid oğlu | 5 |
| **Azərbaycan Respublikası Prezidentinin mətbuat katibi**<br>Qasımov Azər Məhəmməd oğlu | 8 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi –<br>Azərbaycan Respublikası Prezidenti Administrasiyasının<br>Hüquq-mühafizə orqanları ilə iş şöbəsinin müdiri**<br>Ələsgərov Fuad Murtuz oğlu | 9, 23 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi –<br>Azərbaycan Respublikası Prezidenti Administrasiyasının<br>Xarici siyasət məsələləri şöbəsinin müdiri**<br>Hacıyev Hikmət Fərhad oğlu | 10 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının<br>Gənclər siyasəti və idman məsələləri şöbəsinin müdiri**<br>Məmmədəliyev Yusuf Ülfət oğlu | 11 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının<br>Dövlət qulluğu və kadr məsələləri şöbəsinin müdiri**<br>Məcidov Tələt Tahir oğlu | 12 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının<br>Qeyri-hökumət təşkilatları ilə iş və kommunikasiya şöbəsi** | 15 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının<br>Hüquq-mühafizə orqanları ilə iş şöbəsinin Əfv məsələləri sektoru** | 16 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi –<br>Azərbaycan Respublikası Prezidenti Administrasiyasının<br>Dövlət nəzarəti məsələləri şöbəsinin müdiri**<br>Həsənov Kərəm Əvəz oğlu | 18 |
| **Şuşa rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi**<br>Kərimov Aydın Zöhrab oğlu | 19 |
| **Laçın rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi**<br>Məmmədov Məsim Əhməd oğlu | 22 |
| **Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi**<br>Yusubov Elçin Mustafa oğlu | 24 |
| **Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Respublikası Prezidentinin<br>xüsusi nümayəndəsi**<br>Hüseynov Emin Zamin oğlu | 25 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının<br>Qanunvericilik və hüquq siyasəti şöbəsinin müdiri**<br>Kərimov Gündüz Hacı oğlu | 26 |
| **Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi**<br>Hacıyev Vahid Rasim oğlu | 26 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının<br>Vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri**<br>İsmayılov Süleyman Abbas oğlu | 30 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının<br>Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri**<br>Vəliyev Ədalət Məqsəd oğlu | 30 |
| * * * | |
| **Azərbaycan Respublikasının Təhlükəsizlik Şurası<br>Azərbaycan Respublikası Təhlükəsizlik Şurasının katibi**<br>Usubov Ramil İdris oğlu | 29 |

**Qeyd: Vətəndaşlar Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Vətəndaş Qəbulu Mərkəzində qəbul olunurlar.**
**Ünvan: Bakı şəhəri, Nərimanov rayonu, Zaur Nudirəliyev,79.**
**Qəbula yazılış qəbul gününə ən geci 1 iş günü qalmış dayandırılır.**
**Qəbul saat 14:00-dan başlayır.**
**Əlaqə üçün: Çağrı Mərkəzi – 1111.**

# Mərkəzi Seçki Komissiyasının iclası

**Məzahir Pənahovun sədrliyi ilə iyunun 27-də Mərkəzi Seçki Komissiyasının (MSK) iclası keçirilib.**



Əvvəlcə MSK-nın 2024-cü il mayın 27-də keçirilən iclasın protokolu təsdiq edilib.

Sonra "Azərbaycan Respublikasının Ağdərə rayonunun yaradılması haqqında" 2023-cü il 5 dekabr tarixli Qanunla əlaqədar olaraq bəzi seçki dairələrinin hüdudlarında dəyişiklik edilməsi məsələsinə baxılıb.

Komissiya sözügedən Qanunu və Seçki Məcəlləsinin tələblərini əsas götürərək, habelə yerli və digər şərait nəzərə alınmaqla seçicilər üçün maksimum əlverişli şərait yaradılmasının zəruriliyini diqqətdə saxlayaraq 96 saylı Goranboy, 97 saylı Tərtər-Naftalan-Goranboy, 118 saylı Ağdam şəhər, 119 saylı Ağdam kənd və 124 saylı Şuşa-Ağdam-Xocalı-Xocavənd seçki dairələrinin hüdudlarında və adlarında qismən dəyişikliklər olunmasına qərar verib. Qərara əsasən, yuxarıda qeyd edilən seçki dairələri müvafiq olaraq 96 saylı Goranboy-Naftalan, 97 saylı Tərtər-Ağdərə-Goranboy, 118 saylı Ağdam-Xocalı, 119 saylı Ağdam və 124 saylı Şuşa-Ağdam-Xocavənd seçki dairəsi adlandırılır.

İclasda daha sonra MSK-nın normativ xarakterli aktlarına dair məsələyə baxılıb və bir sıra normativ xarakterli aktlar son dövrlər qanunvericilikdə edilmiş dəyişikliklərə uyğunlaşdırılıb.

Xarici qurum və media təmsilçilərinin iştirak etdiyi iclasda, həmçinin bəzi seçki dairələri dairə seçki komissiyalarının tərkibində dəyişiklik olunub və cari məsələlərə baxılıb.

***XQ***

# Mərkəzi icra hakimiyyəti orqanlarının və digər idarəetmə qurumlarının rəhbərləri tərəfindən 2024-cü ilin iyul ayında şəhər və rayonlarda keçiriləcək vətəndaşların qəbulu cədvəli

| S/n | Qəbulu keçirən mərkəzi icra hakimiyyəti orqanı və idarəetmə qurumunun rəhbəri | Qəbulun keçirildiyi şəhər, rayon | Əhatə olunan şəhər və rayonlar | Qəbulun keçirildiyi gün |
|---|---|---|---|---|
| 1. | **Rəqəmsal inkişaf və nəqliyyat naziri**<br>Rəşad Nəbiyev | Ağsu | Ağsu, Kürdəmir, İsmayıllı, Şamaxı, Qobustan | 01 |
| 2. | **Baş prokuror**<br>Kamran Əliyev | Lerik | Lerik, Lənkəran, Astara | 03 |
| 3. | **Fövqəladə hallar naziri**<br>Kəmaləddin Heydərov | Xaçmaz | Xaçmaz, Şabran | 04 |
| 4. | **Gənclər və idman naziri**<br>Fərid Qayıbov | Göygöl | Göygöl, Daşkəsən | 05 |
| 5. | **"Azərişıq" ASC-nin sədri**<br>Vüqar Əhmədov | Oğuz | Oğuz, Qəbələ | 05 |
| 6. | **"Azəriqaz" İstehsalat Birliyinin baş direktoru**<br>Azər Məmmədov | Masallı | Masallı, Yardımlı | 05 |
| 7. | **Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri**<br>Ramin Məmmədov | Şəmkir | Şəmkir, Gədəbəy, Tovuz, Ağstafa, Qazax | 09 |
| 8. | **Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri**<br>Anar Quliyev | Neftçala | Neftçala, Şirvan, Salyan, Hacıqabul | 11 |
| 9. | **Baş prokuror**<br>Kamran Əliyev | Daşkəsən | Daşkəsən, Göygöl, Samux, Kəlbəcər | 12 |
| 10. | **Mədəniyyət naziri**<br>Adil Kərimli | Gədəbəy | Gədəbəy, Şəmkir, Tovuz, Ağstafa, Qazax | 12 |
| 11. | **Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi**<br>Mürsəl İbrahimov | Sumqayıt | Sumqayıt, Abşeron, Xızı, Cəbrayıl, Qubadlı, Şuşa, Zəngilan | 12 |
| 12. | **Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri**<br>Rövşən Rzayev | Biləsuvar | Biləsuvar, Cəbrayıl | 15 |
| 13. | **Daxili işlər naziri**<br>Vilayət Eyvazov | Quba | Quba, Qusar, Xaçmaz, Şabran, Siyəzən, Xızı | 18 |
| 14. | **Qida Təhlükəsizliyi Agentliyinin sədri**<br>Qoşqar Təhməzli | **Ağdam** (Quzanlı qəsəbəsi) | Ağdam, Ağcabədi, Bərdə, Tərtər, Laçın | 18 |
| 15. | **İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin sədri**<br>Zaur Əliyev | Şəki | Şəki, Qax | 18 |
| 16. | **Baş prokuror**<br>Kamran Əliyev | Qusar | Qusar, Quba, Xaçmaz | 19 |
| 17. | **Ekologiya və təbii sərvətlər naziri**<br>Muxtar Babayev | Şəki | Şəki, Qax | 19 |
| 18. | **Elm və təhsil naziri**<br>Emin Əmrullayev | Xaçmaz | Xaçmaz, Quba, Qusar, Şabran, Siyəzən | 19 |
| 19. | **İqtisadiyyat naziri**<br>Mikayıl Cabbarov | Balakən | Balakən, Zaqatala | 19 |
| 20. | **Dövlət Gömrük Komitəsinin sədri**<br>Şahin Bağırov | Qax | Qax, Şəki, Zaqatala | 19 |
| 21. | **Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin sədri**<br>Saleh Məmmədov | Şabran | Şabran, Xaçmaz | 19 |
| 22. | **Ədliyyə naziri**<br>Fərid Əhmədov | Qusar | Qusar, Quba, Xaçmaz, Şabran, Siyəzən | 22 |
| 23. | **Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri**<br>Ramin Məmmədov | Masallı | Masallı, Cəlilabad, Yardımlı | 23 |
| 24. | **Energetika naziri**<br>Pərviz Şahbazov | Mingəçevir | Mingəçevir, Gəncə, Naftalan, Yevlax, Ağdaş, Goranboy, Göygöl, Samux | 26 |
| 25. | **Əmək və əhalinin sosial müdafiəsi naziri**<br>Sahil Babayev | Göygöl | Göygöl, Daşkəsən | 26 |
| 26. | **Kənd təsərrüfatı naziri**<br>Məcnun Məmmədov | Zaqatala | Zaqatala, Balakən, Qax | 26 |
| 27. | **Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri**<br>Bahar Muradova | Samux | Samux, Gəncə, Kəlbəcər | 26 |
| 28. | **Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin sədri**<br>Zaur Mikayılov | Şirvan | Şirvan, Hacıqabul | 26 |
| 29. | **"Azəristiliktəchizat" ASC-nin sədrinin vəzifəsini müvəqqəti icra edən**<br>İlham Mirzəliyev | Quba | Quba, Qusar | 26 |

**Vətəndaşların qəbulu müəyyən edilmiş günlərdə saat 10:00-da başlayır.**

# Qədim türk yurdunun söz yaddaşı

## Bu zəngin irs qaçqın soydaşlarımızın Vətən sevgisini və doğma torpaq həsrətini yaşadır

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2022-ci il dekabrın 24-də Qərbi Azərbaycandan olan bir qrup ziyalı ilə görüşü zamanı Qərbi Azərbaycanla bağlı bir sıra tapşırıqlar vermiş, əzəli türk torpağı olan indiki Ermənistan ərazisinin qədim zamanlardan etibarən dədə-babalarımıza məxsus olduğunu sübut edən mübariz bir fəaliyyət müəyyənləşdirmişdir. Həmin istiqamətlərindən biri də ulusun, xalqın qədim və zəngin mədəniyyətini özündə ehtiva edən söz sənəti abidələrinin – folklorumuzun toplanması işidir.**

Hər bir xalq öz dili ilə, mədəniyyəti ilə tanınmaqdadır. Bu iki amil dünya xalqlarının yaşadıqları əraziləri müəyyən etməkdə əsas amil və sübutdur. Bu prinsipi əsas tutaraq, 2023-cü ilin aprel – noyabr aylarında Naxçıvan MR Mədəniyyət Nazirliyinin Mədəniyyət üzrə Elmi-metodik Mərkəzinin əməkdaşları ərazidə yaşayan Qərbi Azərbaycan qaçqınlarından bölgə folkloruna və toponimlərinə aid nümunələrin toplanması işi aparmışlar.

Məqalədə muxtar respublikanın Babək, Kəngərli və Şahbuz rayonlarında yaşayan sakinlərdən toplanmış Qərbi Azərbaycan bölgəsinə aid şifahi söz sənəti nümunələrindən bəhs edilir. Müxtəlif yaş qruplarından olan sakinlərin söylədikləri folklor nümunələri səs yazısından stenoqram edilərək yazıya alınmış, mətn formasına salınmışdır.




Həm toplanmış folklor nümunələri, həm bölgəyə xas olan adət-ənənələr, həm də sakinlərin ləhcəsi indiki Ermənistan Respublikası adlanan Qərbi Azərbaycan bölgəsinin əzəli Azərbaycan türklərinin yaşadığı ərazi, torpaq olduğunu sübut etməkdədir. Əcdadımız olan dədə-babalarımız Qərbi Azərbaycanın hər bir qarışında türk-islam mədəniyyətinin bütün xüsusiyyətlərini yaşatmış və bu yaşayışı, həyat tərzini şifahi söz sənətinə köçürmüşdür. Toplanmış folklor nümunələri və yer-yurd adları Qərbi Azərbaycan bölgəsinin əsl sahiblərinin möhürü rolunu oynamaqdadır.

Yer-yurd adlarına aid toplanmış nümunələrdən məlum olur ki, hətta sonuncu Qərbi azərbaycanlıların ata-baba yurdlarını tərk etdiyi 1988-ci ilin dekabr ayına qədər bu mahallarda Azərbaycan türklərinin adlandırdıqları türkmənşəli toponimika sayca daha çox olmuşdur. 1988-ci ildən sonra isə Azərbaycan-türk mənşəli yer-yurd adları tamamilə dəyişdirilərək erməniləşdirilmişdir. Buna baxmayaraq, Qərbi azərbaycanlı qaçqınlar indinin özündə də bölgənin türk-islam mədəniyyəti nümunələrini yaddaşlarında yaşatmaqdadırlar.

Bugünlərdə Naxçıvanda ikinci dəfə keçirilən "Qərbi Azərbaycana Qayıdış" festival-konqresində bu qədim türk yurdunun 11 mahalının çadırının (İrəvan, Sərdarabad, Vedibasar, Dərələyəz, Göyçə, Zəngəzur, Kərbibasar, Qırxbulaq, Zəngibasar, Dilican, Şörəyel) milli-mənəvi dəyərləri sırasında söz yaddaşı da nümunələri ilə bağlı təqdimatlar diqqət mərkəzində oldu.

Məqalədə verilmiş folklor nümunələrinin adı, janrı, toplandığı və ya aid olduğu Qərbi Azərbaycan bölgəsinin rayonunun, qəsəbəsinin, kəndinin və sakinlərinin (informatorların) adları və soyadları göstərilmiş, bəzi folklor nümunələri kameral təhlil və şərh edilib. Kəngərli rayonunun Çalxanqala və Yeni Kərki kəndlərində yaşayan Qərbi azərbaycanlı sakinlərdən toplanmış və Qərbi Azərbaycanın Keşişkənd, sonralar Başkənd rayonuna aid folklor nümunələrini XQ-nin oxucularına təqdim edirik.

### "Gülüm ey"

**O tayda quş yatıbdı, ay gülüm ey,**
**Buynuzların çatıbdı, ay gülüm ey.**
**Hayf o qoçun əməyinə,**
**Quru yerdə yatıbdı, ay gülüm ey.**

### "Cehizbağlama"

Gəlin köçən zaman qız evi toyun səhəri günü gəlinə cehiz göndərir. Cehizlik əşyaların içərisində böyük xalça, yaxud xalı olarsa, buna cehizbağlama deyirlər. Yəni filankəs qızına cehiz bağlayıb. Bu, o deməkdir ki, gəlinin cehizində vacib olan bütün əşyalar mövcuddur.

### "Nişan"

Qız evində keçirilən nişan mərasiminin xərclərini oğlan tərəfi öhdəsinə götürürdü. Nişan mərasimindəki bu adət yalnız Qərbi Azərbaycan bölgəsinə xas xüsusiyyətdir.

### "Gəlinköçürmə"

Gəlin ata evindən çıxıb ər evinə gedərkən yol üstündəki kənd adamları gəlinin boynuna qiymətli ipək yaylıqlar, kəlağayılar və parçalar salırlar. Bu adət də əzəli Azərbaycan torpağı Qərbi Azərbaycan bölgəsinə aiddir.

Əzəli Azərbaycan torpağı Qarakilsə rayonunun (Sisiyan) Murxuz kəndinin sakini olmuş 83 yaşlı Atakişiyev Məzəddin Rüstəm oğlu bir zamanlar özünün də qaldırdığı bir adətdən bəhs etdi. Danışarkən səsindəki nisgili, gözlərindəki həsrəti duymaq heç də çətin deyildi.

### "Şaxbəzəmə"

Bu adət Qərbi Azərbaycanla yanaşı, müstəqil Azərbaycan Respublikasının qərb bölgələrində, Naxçıvan Muxtar Respublikasının isə yalnız Şahbuz rayonunun Kükü kəndində yaşadılan adətlərdəndir. Zənnimizcə, "Şaxbəzəmə", yaxud "Şaxqaldırma" adəti 1918–1920-ci illərdə Qərbi Azərbaycanın Qarakilsə bölgəsindən Kükü kəndinə deportasiya edilmiş sakinlər tərəfindən icra edilmiş, daha sonra bütün kənd əhli bu adəti mənimsəmişdir.

Qərbi Azərbaycan bölgələrinə xas olan adətlərdən biri də "Şaxbəzəmə" adətidir ki, bu adətə "saxqaldırma" adı ilə də rast gəlinir. Cürbəcür şirniyyat və hədiyyələrlə bəzədilmiş və 1 metr hündürlüyündə olan şaxın gəlinin ata evindən ər evinə gedərkən nümayişkaranə şəkildə bəyin ən yaxın dostu (Sağdış – ona "qardaşlıq" (qardaşdıx) da deyirlər.) tərəfindən qaldırılması adətidir.

Qeyd edək ki, "şax" sözü əsl türk sözü olub, əski türklərdə "quru ağac" anlamında işlədilmişdir. O da məlumdur ki, ağac kultuna inam əski türklərin inanc sistemində mövcud olmuşdur. İnanca görə, ağac bərəkət, həyat və xoşbəxtlik rəmzidir.

Göründüyü kimi, əski türk sözü olan "şax" sözü Qərbi Azərbaycan bölgəsinin şivələrində də qorunub saxlanılmaqdadır.

Dərələyəz mahalının Paşalı rayonunun Zeytə kəndində toy mərasimlərinə aid belə bir adət var imiş: qardaşlıqtutma...

### "Qardaştutma"

Bəyin ən yaxın dostu (sağdış) Qərbi Azərbaycanın əksər bölgələrində bəyin yalnız sağdışı olurdu ki, buna da "qardaşlıq" (qardaşdıx) deyirdilər. Qarakilsə bölgəsində toy boyunca bəyin yanında duran, toyu idarə edən qardaşlığın tutulması xüsusi bir adətlə həyata keçirilirdi. Toydan bir qədər əvvəl bəy və onun ailəsi qardaşlıq tutulacaq evə qonaq gedir, həmin ailədəki cavan oğlanın bəyə qardaşlıq durması istənilirdi. Bu zaman qardaşlıq evinə bəxşiş də verilirdi. Razılıq alındıqdan sonra qardaşlıq evində də toya hazırlıqlar başlayırdı. Qardaşlıq evindəki hazırlıq gəlin ər evinə gələn zaman bəylə gəlinə hədiyyə ediləcək şaxın bəzədilməsi üçün şirniyyatların və hədiyyələrin alınması, şaxın bəzədilməsindən ibarət idi. Qardaşlıq qohum, yaxud da ən yaxın dost ola bilərdi.

Bu adət Naxçıvan Muxtar Respublikasının Şahbuz bölgəsində indi də yaşadılmaqdadır. Düşünülür ki, muxtar respublikanın Şahbuz bölgəsinə də məhz Qərbi Azərbaycandan keçmişdir.

Aşkara çıxarılmış, tədqiq edilmiş Azərbaycan folklor nümunələri içərisində indiyə qədər rast gəlməmiyimiz bir el adətindən bəhs etdi bizə Çərkəz Qalayev. Zəngəzur və Dərələyəz mahalı üçün spesifik olan bu adət "Qədir gecəsi" adəti adlanırmış. Qeyd edək ki, İlaxır çərşənbəsi adəti olan "Qədir gecəsi" adəti ilə bağlı toplama zamanı bu adətin iki fərqli variantı olduğu məlum oldu.



### "Qədir gecəsi"

Bu, "Qurani-Kərim"də bəhsi keçən müqəddəs gecə ilə eyniyyət təşkil etməyən Novruz adətlərinə aid mərasim adıdır. Novruz bayramı mərasimlərindən olan Qədir gecəsi mərasimi ilin son çərşənbəsi icra olunur. Dərələyəz variantına görə, İlaxır çərşənbədə tonqal yandırma mərasimindən sonra yalnız qadınların – qız-gəlinlərin iştirak etdiyi Qədir gecəsi mərasimində səhərə qədər oyaq qalaraq məzhəkələr göstərilir. Bu mərasimin simvolik əşyası nənnidir. Belə ki, mərasim zamanı nənni əsılaraq yellədilir. İnanılır ki, mərasimdəki qız-gəlinlərə oğul-uşaq nəsib olacaq.

"Qədir gecəsi" adətinin Zəngəzur bölgəsinə aid variantında isə Dərələyəz variantından fərqli məqamlar var. Belə ki, bu gecədə gənc oğlan və qızlar kəndin düzənlik bir yerində toplaşıb rəqs edir, mahnı oxuyur, niyyət tuturlar. Həmin gecə ocaq başında oğlanlar içində kərmə (təzək) qırıntıları olan yumru parçadan hazırlanmış şarları alovlandırıb əllərində fırladaraq ən uzağa atmağa çalışırdılar.

Qədir gecəsi adəti yalnız qərbi azərbaycanlıların Novruz bayramı ilə bağlı adətlərindəndir.

Qədir gecəsində söylənilən bayatılar, deyimlər, təriflər, cırnatmalar və qarğışlara aid nümunələr:

### Bayatı:

**Əzizim, yarımgilə,**
**Dəsmal ver yarımgilə.**
**Ürəyim quştək uçur,**
**Getməyə yarımgilə.**



### Deyim:

**Qayınatama Məkkə qismət olaydı,**
**Qaynənəmə Quran qənim olaydı,**
**Baldızımı bağda ilan vuraydı,**
**Qaynım səlb ağacı olaydı.**

### Cırnatma:

**Stol üstdə sarımsaq,**
**Ölməmişəm, canım sağ.**
**Atam cəfamı çəkdi,**
**Apardı bir qurumsaq.**

### Tərif:

**Haqışda dinar-dinar,**
**Kəs bağrım dinar-dinar.**
**Bir balaca yarım var,**
**Saxlasın pərvərdigar.**

### Qarğış:

**Ağ oyman ağlı qalsın,**
**Boğçanda bağlı qalsın.**
**Əziz sevdiyin ölsün,**
**Ürəyin dağlı qalsın.**

Söylən (əvvəlki Əzizbəyov – Vayk rayonu) rayonunun Axta, Zəngibasar – (Masis) rayonunun Zəhmət kəndinin əzəli sakinləri deyirlər ki, kəndlərimizdə "Gəlingətirmə", ölü gecəsi, "Gəlin-qayınata" adlanan adətləri indi də məişətimizdə yaşadılmaqdadır. Sakinlər qeyd edirlər ki, bu və bu kimi adətlərimiz, gələnəyimiz bizi millət olaraq dünyada tanıdır, həm də gələcək nəsillərin insanpərvər və məhəbbət ruhunda tərbiyələnməsinə böyük töhfələr verir.

### "Gəlingətirmə"

Ata ocağından ər evinə köçən gəlin ər evinə çatan zaman evin həyətinin qapısından ev qapısına qədər yerə düzülmüş lavaşları qolları üstünə yığaraq, ər evinə daxil olur. Bununla, gəlinin evə ruzi, bərəkət gətirdiyinə inanılır.

### "Ölü gecəsi"

Dünyasını dəyişmiş şəxsin evində ən yaxın qohumları 3 gün ard-arda gecələri oyaq qalaraq ölü gecəsi saxlayırdılar. Həmin 3 gün ərzində hər gün qəbirlər ziyarət edilirdi (Qərbi Azərbaycana aid adət).

### "Gəlin-qayınata"

İki və daha artıq uşaq olana qədər gəlin qayınata ilə danışmır, yanında həyat yoldaşının, uşaqlarının adını çəkmir, onunla eyni süfrədə yemək yemirdi.

XIX yüzilliyin sonu, XX yüzilliyin əvvəllərində Qərbi Azərbaycanda Türk ulusunun qədim sənət növü olan məddahlıq sənəti də mövcud olmuşdur. Məddahlıq nədir? Ən əvvəl qeyd edək ki, yazılı ədəbiyyatımızdan bizə məlum olan mədhiyyə üslubunda, mədhiyyə janrında yazılmış əsərlərlə qədim məddahlıq sənətinin heç bir əlaqəsi yoxdur. Unutmamalıyıq ki, mədhiyyə yazılı ədəbiyyata aid şeir növü, şeir janrıdırsa, məddahlıq folklorumuza aid incəsənət növüdür.

Məddahlıq sənətinin yaradıcıları məddahlardır. Məddah müasir teatrın bütün aktyor bacarığını özündə birləşdirən bir aktyordur. Məddah, adətən, uca – izləyicilərin onu görə biləcəyi yerdə oturaraq və ya ayaq üstə duraraq bir əhvalatı, nağılı, hadisəni əvvəldən sonu qədər nəql edir, həmin əhvalatdakı xarakterləri hətta şivə, ləhcə xüsusiyyətlərinə qədər tamaşaçıya təqdim edir.

Qərbi Azərbaycan məddahlarından Lotu İbiş və Vahaboğlu Məşədi Cabbarın adlarını çəkə bilərik ki, bu məddahlar Türk-İslam mədəniyyətinin Qərbi Azərbaycanda bilavasitə daşıyıcıları və təbliğatçıları olmuşlar. Əslən Naxçıvandan olan Lotu İbiş Quzey, Güney eləcə də Qərbi Azərbaycanda məddahlıq etmişdir. Vahaboğlu Məşədi Cabbar (Şirini) XIX yüzilliyin sonlarında İranda, sonra Quzey və Qərbi Azərbaycanda yaşanmış məşhur məddah olmuşdur.

### ...Və nəhayət

Həm toplanmış folklor nümunələri, həm bölgəyə xas olan adət-ənənələr, həm də bölgə sakinlərinin ləhcəsi indiki Ermənistan Respublikası adlanan Qərbi Azərbaycan bölgəsinin əzəli Azərbaycan türklərinin yaşadığı ərazi, torpaq olduğunu sübut etməkdədir. Əcdadımız olan dədə-babalarımız Qərbi Azərbaycanın hər bir qarışında türk-İslam mədəniyyətinin bütün xüsusiyyətlərini yaşatmış və bu yaşayışı, həyat tərzini şifahi söz sənətinə köçürmüşdür. Toplanmış folklor nümunələri və yer-yurd adları Qərbi Azərbaycan bölgəsinin əsl sahiblərinin möhürü rolunu oynamaqdadır.

Yer-yurd adlarına aid toplanmış nümunələrdən məlum olur ki, hətta sonuncu qərbi azərbaycanlının ata-baba yurdunu tərk etdiyi 1988-ci ilin dekabr ayına qədər Qərbi Azərbaycan türklərinin adlandırdıqları türkmənşəli toponimika sayca daha çox olmuşdur. 1988-ci ildən sonra isə Azərbaycan-türk mənşəli yer-yurd adları tamamilə dəyişdirilərək erməniləşdirilmişdir. Buna baxmayaraq, qərbi azərbaycanlı sakinlər indinin özündə də bölgənin türk-İslam mədəniyyəti nümunələrini yaddaşlarında yaşatmaqdadırlar.

### Qərbi Azərbaycan sakinlərindən toplanmış yer-yurd adlarına aid bəzi nümunələr



Qaraseyid ocağı, Qorlu bulaq, Pəri bulağı, Armudlu bulaq, Meşə bulağı, İsanın bağı, Ağanın bağı, Əlimərdanın bağı, Çirişli dağı, Matəm ağacı yurdu, Xələfi yurdu, Taxt yurd, Kopar yaylağı, Gədik yaylağı, Dərin çuxur yaylağı, Əyircə yaylağı, Yazı yaylağı, Hasarlı yaylağı, Sandıqlı yaylaq, Şahvəndə yaylağı, Meşə İsaxın yaylağı, Qoca qoruq, Nalbənd piri, Təkcə pir, Qırxlar piri, Həramlər piri.

*Səyyar BAYAT,*
*Naxçıvan MR*
*Mədəniyyət Nazirliyi Elmi-metodik*
*Mərkəzinin direktoru*

Barat Şəkinskaya – 110

# Milli səhnəmizin Cülyettası

**Ona səhnənin Cülyettası da deyiblər, Dezdemonası da. Milli kinomuzun Qulluqçu Sənəmi kimi də çox sevilib.**

Düz 110 il əvvəl Şuşada dünyaya gələn Barat Həbib qızının nəsli Qarabağa, İbrahim xanın şəcərəsinə bağlıdır. Atasının əsli-kökü daha dərinə – Zəngəzur mahalının Şəki kəndinə gedib çıxır. Elə Şəkinskaya soyadı da oradan qaynaqlanır. Yeri gəlmişkən, zamanın sərt üzünə baxmayaraq, Barat xanım bəy nəslindən olduğunu gizlətməyib, başqaları kimi ana soyadına keçməyib. Xoşbəxtlikdən, bu faktın ona mənfi təsiri olmayıb, əksinə, Mircəfər Bağırov bir aktrisa kimi onu yüksək qiymətləndirib, bütün premyeralarına gedib və 1937-ci ildə, cəmi 23 yaşı olan aktrisaya Əməkdar artist, 1949-cu ildə isə Xalq artisti fəxri adlarını verib.

Böyük sənətə ilk addımlarını Gəncədə atan gənc istedad 1935-ci ildən etibarən Akademik Milli Dram Teatrında çalışıb və parlaq obrazlar yaradıb. Barat Şəkinskaya “Kral Lir” (Kardeliya), “Romeo va Cülyetta” (Cülyetta), “Otello” (Dezdemona), “On ikinci gecə” (Viola),”Polad qartal” (Şəfiqə), “Məkr və məhəbbət” (Luiza), “Mehmanxana sahibəsi” (Mirandalina), “Rəqs müəllimi” (Florela), “Günahsız müqəssirlər” (Kruçinina) pyeslərinin tamaşalarında oyunları ilə örnək olub. Aktrisa çoxlu sayda uşaq rollarını da ifa edib. Son dəfə uşaq rolunu 37 yaşında oynayıb. Bu, Məhəmmədhüseyn Təhmasibin “Çiçəklənən arzular” pyesində 7-ci sinif şagirdi Nazlı rolu olub.

O, bir sıra məşhur filmlərdə də yaddaqalan obrazlar canlandırıb.”Görüş” (1955), “O olmasın, bu olsun” (1956), “Qızmar günəş altında” (1957), “Kölgələr sürünür” (1958), “Qəribə əhvalat” (1960), “Telefonçu qız” (1962), “Onun bəlalı sevgisi” (1980), “Üzeyir ömrü” (1981) və sair filmlərdə Barat xanımın oynadığı rollar film tariximizin qiymətli incilərindəndir.





Barat Şəkinskaya Akademik Milli Dram Teatrında, Gəncə teatrında və bir neçə il kinostudiyada işləyib. Daşkənddə keçirilən Beynəlxalq kino festivalı günlərində iştirak edib. Arada radio verilişləri aparıcısı və televiziya diktoru olub.

Xalq artistləri Barat Şəkinskaya və Miribrahim Həmzəyevin qızı – ilk qadın telerejissorlarımızdan olan Solmaz xanımla dövlət televiziyasında birlikdə işləmişəm. Onda Barat xanım hələ sağ idi, hər dəfə qızı ilə, jurnalist Babək Hüseynoğlu ilə telefonla danışanda bizi də salamlayırdı. Böyük sənətkarın səsini eşitməkdən fərəh duyurduq. Solmaz xanımın anası haqqında söhbətlərini də maraqla dinləyirdik.

Hazırda 92 yaşı olan, yarım əsrədək AzTV-də çalışmış Solmaz xanım deyir ki, anası Leyla Bədirbəyli, Nəcibə Məlikova, Hökümə Qurbanova, Fatma Qədri, Əminə Sultanova kimi səhnə və ekran ulduzları ilə yaxın rəfiqə olub.

– Anamla Fatma Qədri bir xanım fransız müəllimi tutmuşdular ki, həm Fatma xalanın qızına, həm də mənə mədəni etiketləri, cəmiyyət arasında necə davranmağın incəliklərini öyrətsin, – deyə Solmaz xanım xatırlayır. – O, qastrola gedəndə məni Əminəgildə qoyurdu, onun yoldaşı Əjdər Sultanov da teatrın aktyoru idi. Anam tanımadığı adamlardan da köməyini əsirgəməzdi. Bir məclisdə şəhid anası ilə tanış olub öyrənir ki, qadının evi yoxdur. O vaxtkı MK-nın 1-ci katibi İmam Mustafayevə zəng edərək yaşlı qadının mənzil almasına kömək edir. Mənim ondan nələri öyrənməyimə gəlincə isə, özün də şahidsən ki, çoxları üçün rəhbərliyin yanına xahişə gedən, mehribanlıq yaratmağa çalışan olmuşam. Bu, sırf anamdan gələn xasiyyətdir.

(Solmaz xanımın sözünə qüvvət, 1986-87-ci illərdə mən dövlət teleradio şirkətində ştatdankənar müxbir idim, ştata keçməyimi sədr müavinləri Nahid Hacıyev və Aqşin Babayevdən xahiş edənlərdən biri də elə o olmuşdu)...

Çətin, keşməkeşli həyatı olan, buna baxmayaraq, daim ətrafına işıq saçan Barat Şəkinskaya sonda bir fotoqrafın naşılığı üzündən gözünün birini itirmişdi. Həmin fotoqraf kollektiv şəkil çəkəndə cilvəli lampanın işığını elə salmışdı ki, bir neçə nəfərin görmə qabiliyyətinə zərər dəymiş, Barat xanımın isə bir gözü qlaukomaya tutulmuşdu. Sonra o, məcburən cərrahi əməliyyatla süni göz qoydurmuşdu.

Böyük sənətə həmişə aşağıdan yuxarıya baxan, daim məsuliyyət hiss edən Barat Şəkinskaya heç vaxt peşəsinə xəyanət etməyib. Teatrşünas İlham Rəhimli yazır ki, bir dəfə 60 yaşlarında ikən işdən çıxmasının səbəbini ondan soruşanda ibrətamiz cavab verdi. Dedi ki, bir gün məşqdə idim, bir də gördüm, yuxu məni basdı. Əsnədim möhkəm. Çöndüm sağa baxdım, sola baxdım ki, məni görən olmadı ki? Öz-özümə dedim ki, hə, Barat, səninki burda qurtardı.

Barat Şəkinskayanın övladları ilə bir şəkli var: qızları Solmaz və Rövşanə (sonradan Amerikaya köçüb), bir də dünyasını vaxtsız dəyişmiş rəssam-aktyor oğlu Elçinlə (“Yeddi oğul istərəm” filmindəki Mirpaşa). Uşaqların ağıllı, məsum baxışları anaları ilə fəxr etdiklərini aşkar göstərir. Solmaz xanım anasının onlarda mədəniyyətə, incəsənətə sevgi aşıladığı kimi, həm də bir qadın kimi gözəl xörəklər bişirə bildiyini də xüsusi vurğulayaraq deyir ki, onun xarakterinə hər işi mükəmməl bilmək keyfiyyəti xas idi.

Xalq artisti Barat Şəkinskaya 14 yanvar 1999-cu ildə, 84 yaşında dünyasını dəyişib. Bakıdakı İkinci Fəxri xiyabanda dəfn olunub.

***Əli NƏCƏFXANLI***
***XQ***

Mərahim Fərzəliyev – 75

# Rejissorun yarıməsrlik sənət marafonu

**O, səhnə həyatı verdiyi əsərlərlə müasir mədəniyyətimizə yeniliklər gətirib, yüzlərlə tamaşaya mükəmməl rejissor yozumu verib. Söhbət milli teatrımızı rəngarəng tamaşalar palitrası ilə zənginləşdirən Xalq artisti, “Şöhrət” ordenli Mərahim Fərzəlibəyovdan gedir.**

Bu sənətkarı teatrsevərlər özünəməxsus sənət dünyası ilə tanıyır. Elə buna görə də Beynəlxalq Muğam Mərkəzində görkəmli rejissorun 75 illiyi münasibətilə təşkil olunmuş tədbirdə mədəniyyət xadimləri, alimlər, deputatlar həvəslə iştirak etdilər. Çıxış edənlərin kimisi ürəkdən gələn xoş sözlərlə, kimisi də mahnı və şeirlə yubilyara arzularını çatdırdı.

Azərbaycan Teatr Xadimləri İttifaqının sədri vəzifəsini icra edən Xalq artisti Hacı İsmayılov yarıməsrlik yaradıcılıq dünyası olan sənətkarın milli mədəniyyətimizə verdiyi töhfələrdən danışdı. Qeyd etdi ki, görkəmli rejissor teatr sahəsində yeni təfəkkürü təmsil edən sənətkar kimi çoxsaylı səhnə əsərinin dramaturji taleyini həll edib, yüksək peşəkarlığı sayəsində səhnəyə yeni nəfəs gətirib. O, konkret faktlarla yubliyarın zəngin yaradıcılığından söz açdı, mədəniyyətimizin inkişafındakı müstəsna xidmətlərini vurğuladı.



Milli Məclisin deputatı, akademik Rafael Hüseynov söylədi ki, peşəkar teatrın bəlli bir məqama yetişməsində Mərahim Fərzəlibəyovun böyük xidmətləri var: “Bu gün yubileyinə toplaşdığımız görkəmli rejissorumuz bəxti gətirən sənətkarlardandır. Onun sənətə gəlişi Azərbaycan teatrı parlaq bir dövrünü yaşadığı vaxta düşüb. Teatrımızın şərəfli dövrünü göz önünə gətirəndə, onun qızıl mərhələsi 60–70-ci illərdir. O zamanlar nəhəng aktyorlar və rejissorlar meydanda idilər, böyük bir yaradıcı rəqabət mühiti var idi. Mərahim Fərzəlibəyov da belə bir mühitdə parladı. Ona nəsib oldu ki, böyük aktyorlarla işləsin. Bu da rejissorun sənətkarlıq dünyasına müsbət təsirsiz ötüşmədi”.



Tanınmış teatrşünas, tənqidçi Məryəm Əlizadə, Akademik Milli Dram Teatrının bədii rəhbəri, Əməkdar incəsənət xadimi Mehriban Ələkbərzadə, Dövlət Film Fondunun icraçı direktoru, Əməkdar incəsənət xadimi Cəmil Quliyev, Əməkdar incəsənət xadimləri Hafiz Quliyev, Abdulla Qurbani və digər şəxslər çıxış edərək, yubliyarın həyat və yaradıcılığı ilə bağlı fikirlərini bölüşdülər, ona ən xoş arzularını çatdırdılar. Çıxışlarda rejissorun quruluş verdiyi ayrı-ayrı uğurlu tamaşa və filmlər xatırlandı, insani keyfiyyətləri barədə fikirlər səsləndirildi. Diqqətə çatdırıldı ki, o, istər teatr səhnəsində, istərsə də filmlərdə bir-birindən gözəl, orijinal üslublu nümunələr yaradıb. Rejissorluq işində yüksək zirvə fəth edərək, gənc yaradıcı nəsil üçün örnəyə çevrilib.

Yubiley gecəsində Akademik Milli Dram Teatrının bədii rəhbəri Mehriban Ələkbərzadə görkəmli rejissora “Milli teatr” mükafatını təqdim etdi. Sonda yubilyar yaradıcılığına verilən qiymətə görə hər kəsə təşəkkürünü bildirdi.

***Ceyhun ALIŞLI***

Beynəlxalq Musiqi Festivalı

# Dünya pianoçularının Bakı yarışması






**Paytaxtda Əməkdar artist Şahin Növrəslinin təsisçisi olduğu III Bakı Piano Festivalı keçirilir.**

“Landmark Hotel”də təşkil olunan festivalın media üçün təqdimatında Braziliyanın Azərbaycandakı səfiri Manuel Monteneqro, Latviyanın Azərbaycandakı səfiri Edqars Skuya, Fransanın Azərbaycandakı Səfirliyinin əməkdaşlıq və mədəni fəaliyyətlər üzrə müşaviri Şarl Denye, digər qonaqlar iştirak ediblər.

Şahin Növrəsli görkəmli Azərbaycan şairi Mirzə Ələsgər Növrəsin nəticəsidir. O hələ 5 yaşında musiqi məktəbinin fortepiano sinfinə yazılıb, 11 yaşında ikən Azərbaycan Dövlət Filarmoniyasında simfonik orkestrin solisti kimi çıxış edib. Bakı Musiqi Akademiyasında oxuyub. "Sevda şəlaləsi", "1002-ci gecə" kompozisiyalarını bəstələyib və bir çox xalq mahnılarını caz üslubunda interpretasiya edib. Tələbə vaxtından daimi qastrollar, turlar, beynəlxalq festivallar onun həyatının ayrılmaz hissəsi olub. Beynəlxalq Montrö Caz Festivalında gümüş medala layiq görülüb. Bir sıra maraqlı sintez layihələrinin müəllifidir. Keni Viler, Uday Mazumdar, Alison Miler, Neytn Pek, Aleks Pek, Mat Zebroski, Cef Lederer, Con Vikan, Saşa Maşin və başqa tanınmış musiqiçilərlə çıxışlar edib və albomlar yazdırıb. Təsadüfi deyil ki, onu dünya caz səhnəsinin ulduzu sayırlar. Tez-tez Türkiyə, Fransa, Rusiyada və konsertlərlə çıxış etdiyi ölkələrin universitetlərində və məktəblərində ustad dərsləri verir.

Maestro festivalın proqramı və iştirakçıları haqqında danışıb, bütün tərəfdaşlara, sponsorlara və media nümayəndələrinə təşəkkürünü bildirib. Musiqi bayramına 10 ölkədən artistlər qatılıblar.

Festival iyunun 16-da Rebeka Orteqa – “Flamenco Company”nin iştirakı ilə flamenko konserti ilə açılıb.

Bayram çərçivəsində “Fortepiano üçün etüd” ədəbi müsabiqəsi də keçirilib. Müsabiqənin məqsədi ədəbi əsərdə canlı musiqi obrazı yaratmaq və ədəbiyyatda musiqi mövzusunu populyarlaşdırmaq olub. Əsərləri münsiflər heyətinin üzvləri – Maqsud İbrahimbəyov Yaradıcılıq Mərkəzinin direktoru Anna İbrahimbəyova, Azərbaycan Yazıçılar Birliyinin üzvü Aleksandr Xakimov, “NG Creators Club”un direktoru Natiq Əliyev və festivalın media əlaqələndiricisi Rüstəm Hüseynov iştirakçıların əsərlərini qiymətləndiriblər.

Sonra “Bizim Qafqaz” layihəsi təqdim olunub. Layihənin rəhbəri beynəlxalq təlimçi və məsləhətçi Nini Karseladze idi. O, dedi ki, məqsəd Qafqaz xalqlarının tarixini, mədəniyyətini, qonaqpərvərliyini, adət və ənənələrini dünyaya daha yaxından tanıtmaqdır. Qoy, hamı görsün və bilsin ki, biz necə yaşayırıq.

Bu festival təkcə fortepiano və klaviatura virtuozlarının sehirli ifası deyil. O, musiqisevərləri harmoniyalarla ovsunlayan dəbdəbəli atmosferdir. Burada hər kəs öz zövqünə uyğun musiqi tapa bilir. Layihə hər zaman öz unikallığı ilə seçilir.

Festivalın təsisçisi maestro Şahin Növrəsli dedi: “İlk gündən fikrimiz bu idi ki, piano bütün janrları özündə birləşdirən musiqi alətidir və bu adlı festival bənzərsiz olmalıdır. Dünyada belə məzmunda festival yoxdur ki, bir gün klassik musiqini, sabahı flamenko musiqisi dinləyəsən, sonra sərgiyə baxasan, kino nümayişi ola. Məncə, alınır”.

Festival günlərində paytaxtın musiqi salonlarında çoxsaylı konsertlər keçirilib. Təqdimatlarda caz, flamenko, tanqo, Braziliya sambası və s. musiqilər ifa olunub. Paytaxtın müxtəlif musiqi salonlarında avstriyalı Martin Listabarzın, Şahin Növrəslinin caz trioları, braziliyalı İsak Jambanın qrupunun çıxışları maraqla qarşılanıb. Barokko musiqi axşamı, hər gün təşkil olunan Köhnə şəhərin caz gecələri və gənc istedadların “Gələcək bizik” adlı konserti xüsusi qeyd edilməlidir.

“Qoy, piano sizə ilham versin!” şüarı altında keçən 3-cü Bakı Piano Festivalı iyunun 29-dək davam edəcək. Həmin gün festival İsak Jamba qrupunun ifası – Braziliya samba konserti ilə başa çatacaq.

***Ə.DOSTƏLİ***
***XQ***

Qardaş şəhərlər

# Mingəçevirlilər Namanqanda

**Ötən ay Qubada keçirilmiş II Azərbaycan–Özbəkistan Regionlararası Forumunda iştirakçılar təmsil etdikləri inzibati ərazi vahidlərinin iqtisadi potensialı, həyata keçirilən layihələr, əməkdaşlıq perspektivləri barədə fikir mübadiləsi aparıblar. Forumda həmçinin Azərbaycan və Özbəkistan arasında Füzuli və Gülüstan, Biləsuvar və Termez, Mingəçevir və Namanqan şəhərlərinin qardaşlaşması barədə sazişlər imzalanıb. Sənədlərin icrası xalqlarımızın daha da yaxınlaşması və birbaşa əlaqələrin gücləndirilməsi üçün yeni perspektivlər açıb.**



Bu günlərdə Mingəçevirin nümayəndə heyəti Özbəkistanda keçirilən “Namanqan Flowers–2024” 63-cü beynəlxalq gül festivalında iştirak ediblər. Ənənəvi olaraq keçirilən gül bayramında Mingəçevir Şəhər İcra Hakimiyyəti başçısının müavini Hikmət Kərimov, şəhər bələdiyyəsi sədrinin müavini Əli Əliyev, toxuculuq fabrikinin direktoru Əli Əsədov, Mingəçevir Dövlət Dram Teatrının direktoru İntiqam Soltan iştirak ediblər.

Əhali sayına görə Özbəkistanın Daşkənddən sonra 2-ci böyük şəhəri olan Namanqanda keçirilən festival maşınlarının paradı hər kəsə unudulmaz təsir bağışlayıb, alqışlarla qarşılanıb. Mingəçevir nümayəndə heyətinin həmin şəhərdə fəaliyyət göstərən Mədəniyyət Evi, Dövlət Dram və Kukla teatrlarının rəhbər heyəti ilə görüşü olub. Qonaqlar həmçinin fabriklərin fəaliyyəti, avadanlıqlarla yerindəcə tanış olaraq, Mingəçevirlə Namanqan müəssisələrinin əlaqələrinin artırılması üzrə işgüzar müzakirələr aparıblar.

Mingəçevir Şəhər İcra Hakimiyyəti başçısının müavini, ictimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri Hikmət Kərimovun bu barədə dedikləri:

– Yaddaqalan səfər zamanı Namanqan şəhərinin meriyası bizə xüsusi diqqət göstərdi. İştirakçılarla səmimi görüşlərimiz, söhbətlərimiz oldu. Azərbaycan və özbək dillərinin nə qədər yaxın olduğunu gördük. Şəhər parkında olduq, Kukla teatrının aktyorlarının təqdim etdiyi tamaşaya böyük maraqla baxdıq. Özbəklərin səmimiyyəti və qonaqpərvərliyi bizi valeh etdi. Tekstil fabrikinin məhsulları və müasir avadanlıqları ilə tanış olduq. Mingəçevir müəssisələri haqqında məlumat verdik. Dövlətimizin başçısı İlham Əliyevin tapşırığı ilə ölkəmizdə yeni sənaye parklarının yaradılması barədə danışdıq, həmçinin Mingəçevirdə yeni yüngül sənaye müəssisəsinin yaradılması üçün ilk addımların atıldığını bildirdik. Ümid edirik ki, bu yolda özbəkistanlı qardaşlarımızla əlaqələr xeyirli və uğurlu olacaq. Mədəni sahədə də yaradıcılıq əlaqələri güclənəcək, qarşılıqlı səfərlər intensiv xarakter alacaq.

***İlqar HƏSƏNOV,***
***“XQ”nin bölgə müxbiri***

**Mingəçevir**

Ekoloji terror

**Əhalinin içməli suya olan tələbatının, eləcə də kənd təsərrüfatı məhsullarının suvarılmasında Kür və Araz çayları önəmli rol oynayır. Hər iki çay öz mənbəyini Türkiyədən götürür, Gürcüstan və Ermənistan ərazilərindən keçərək Azərbaycan ərazisindən Xəzər dənizinə tökülür. Təəssüf ki, Ermənistan və Gürcüstan ərazilərində çay suları xeyli miqdarda sənaye və məişət tullantıları ilə çirklənir. Nəticədə suyun tərkibində biogen maddələrin miqdarı normadan dəfələrlə artıq olur və vətəndaşlarımızın sağlamlığı üçün təhlükə törədir.**



# Ermənistan saf çeşmələrin hövzəsinə zəhər axıdır



Bu aktual məsələ ilə bağlı əməkdaşlarımız AMEA Coğrafiya İnstitutunun torpaq ehtiyatları coğrafiyası şöbəsinin müdiri, aqrar elmlər üzrə fəlsəfə doktoru, dosent İsmayıl Quliyevdən müsahibə götürüblər.

*– İsmayil müəllim, Kür və Araz çayları və onların əksər qolları ölkəmizdən kənarda formalaşır və Xəzər hövzəsinə axır. Bu, ərazinin relyefindən asılıdır, deyilmi?*

–Təbii ki, belədir. Gördüyünüz kimi, bunun həm müsbət, həm də mənfi cəhətləri var. Məlumdur ki, ölkəmizin çaylarının su ehtiyatları yerli və tranzit çayların hesabına formalaşır. Tranzit çayların əsas axımı respublika ərazisindən kənarda, qonşu ölkələrdə formalaşır. Kür və Araz çayları transsərhəd və sərhəd çaylarına aiddir. Araz çayı isə Kürün ən böyük qoludur.

Onun Xəzər dənizinə tökülməsi ölkəmizin relyefi ilə bağlıdır. Yəni səbəb relyefdir. Səviyyəsinə görə, Azərbaycan Cənubi Qafqazda dağ, dağətəyi və düzənlik ərazilərdə yerləşir. Gürcüstan və Ermənistan bizim ərazimizdən hündürdədir. Bu səbəbdən də hər iki çayın axdığı ərazilər ölkəmizə doğru meyillidir. Nəticədə hər iki çayın suyu ölkəmizin ərazisindən keçərək Xəzər dənizinə tökülür.

*–Azərbaycana Kür çayı vasitəsilə daxil olan suların çox hissəsi Gürcüstan ərazisində çirkləndirilir. Çayın ekoloji çiriklənDirmə mənbələri barədə məlumat verərdiniz.*

–Kür çayı Tbilisi və Rustavi kimi iri sənaye şəhərlərindən keçir. Acı həqiqət budur ki, hər iki şəhərin sənaye və kanalizasiya suları təmizlənmədən Kürə axıdılır.

Bu çay, eyni zamanda, ölkəmizin ərazisində Xrami çayını qəbul edir. Bolnisi rayonunun ərazisində yerləşən Madneuli dağ-mədən müəssisəsində işlədilmiş sianid tullantıları Maşaveri çayı vasitəsilə Xrami çayına axıdılır. Onun vasitəsilə də zəhərli maddələr Kürə qarışır.

Ermənistanın Alaverdi dağ-mədən müəssisəsinin tullantıları da təmizlənmədən Debet çayına axıdılır. Həmin çay Xrami çayının bir qoludur və Gürcüstanda azərbaycanlıların kompakt yaşadığı Marneuli rayonunun ərazisindən keçir.

Beləliklə, Gürcüstan və Ermənistan ərazilərindən təmizlənmədən birbaşa axar su hövzələrinə axıdılan məişət tullantıları və çirkab sularının təsiri nəticəsində Kür çayı və onun qollarında biogen maddələrin miqdarı normadan dəfələrlə artıq olur.

Bizim araşdırmalara görə, civə, fenol və mis birləşmələri yol verilən qatılıq həddini (YVQH) 2-3 dəfə keçir. İllərlə davam edən bu proseslər nəticəsində Kür çayının sahilyanı sahələri və çayın dibinin çöküntüləri kimyəvi və radioaktiv tullantılarla çirklənməyə məruz qalır.

*–Araz çayında da vəziyyət Kürdən fərqli deyil. Bu çayın çirkləndirilməsində Ermənistandakı müxtəlif dağ-mədən müəssisələrinin "böyük rolu" var...*

–Ermənistan bizim çayların başına min bir oyun açır. Çay Azərbaycan ərazisinə daxil olanadək xeyli çirklənmiş olur. Xüsusilə, Ermənistan ərazisində yerləşən Ararat qızıl fabrikinin çirklənmədə rolu böyükdür.

Qeyd edim ki, bir çox yataqlardan xammal Ararat qızıl fabrikinə daşınır və orada qızıl konsentratları yuyulur, saflaşdırılır, külçə halına salınaraq Rusiya və digər ölkələrə satılır. Tullantılar isə Şərur rayonundan keçən çayla Araza tökülür. Hətta suda o qədər çirkab olur ki, o, qatı mayeni xatırladır.

Biz onu "Qara arx" adlandırırıq. Mən çaydan nümunələr götürəndə dəhşətə gəldim. Suda misin, molibdenin, qurğuşunun qatılığı çox yüksəkdir. Ayrı-ayrı vaxtlarda suyun tərkibində misin miqdarı normadan 25-50 dəfə, fenolların miqdarı isə 6-15 dəfə artıq olub.

Bundan başqa, Ermənistanın Meğri rayonunda Aqarak mis-molibden kombinatı fəaliyyət göstərir. Bu müəssisə Araz çayına çox yaxın məsafədə yerləşir. Kombinatın ağır metal tərkibli tullantıları Kərçivançay vasitəsilə Araz çayını zəhərləyir. Buradakı Davazam tullantı anbarında təxminən 36,8 milyon kubmetr təhlükəli tullantı toplanıb. Anbarın suyu isə Araz çayına axıdılır.

*–Eşitdiyimizə görə, ermənilər Oxçuçayı özlərinin sənaye tullantılarının kollektoruna çeviriblər…*

–Zəngilanda Oxçuçay Araza qarışır. Mən bu çayda 4-5 il elmi tədqiqatlar aparmışam. Çay sularının dinamikasını öyrənmişəm. Çaydan götürülmüş su nümunələrində mis, molibden, manqan, dəmir, sink, xrom və s. kimi ağır metalların miqdarı normadan dəfələrlə artıqdır.

Monitorinq və analizlərin nəticələri, eyni zamanda, çayda bioloji varlıqların kütləvi məhv olması faktları bir daha təsdiq edir ki, çayın suları Ermənistan ərazisindəki Qacaran mis-molibden zavodu və Qafan filiz emalı kombinatının toksiki tullantıları ilə çirkləndirilir. Ağır metalların çaya axıdılması yalnız çayın faunasını, ekosistemini məhv etmir, həm də insan sağlamlığı üçün ciddi təhlükə törədir.

Bu gün Zəngilanın allüvial-çəmən torpaqlarının 1–1,5 metr dərinliyində Qacaran və Qafan müəssisələrinin zəhərli maddələri toplanıb.

Şəxsən özüm fikir vermişəm, Oxçuçayın suları Araza qarışanda, hardasa, 4–5 metr enində, 500 metr uzunluğunda kəskin sərhəd əmələ gətirir. Adi gözlə iki çayın suyunun fərqi aydın görünür. Oxçuçay sanki sənaye tullantılarının kollektoru rolunu oynayır.

*–Bəs, Həkəri çayında vəziyyət necədir?*

–Bildiyiniz kimi, Arazın sol qollarından biri də Azərbaycan ərazisində formalaşan Həkəri çayıdır. Bu, yeganə, bəlkə də unikal çaydır ki, təmizdir. Bu çaydan çox səmərəli istifadə etmək lazımdır. O, su ehtiyatları baxımından da çox zəngindir. Həkəri bərpa olunan Ağdam, Füzuli, Cəbrayıl şəhərlərinin əhalisinin içməli su ilə təminatında əhəmiyyətli rol oynaya bilər.

Təqdirəlayiq haldır ki, çayın üzərində ümumi tutumu 90 milyon kubmetr olan böyük su anbarının tikintisi həyata keçirilir. Su anbarı inşa etməklə buradakı təmiz, genetik faydalı suyu 254 kilometr uzunluğunda magistral yolla Sabirabada qədər gətirmək mümkündür.

Təəssüf olsun ki, Həkərinin sağ qolu olan, əsasən, Ermənistan ərazisində formalaşaraq respublika ərazisinə daxil olan Bərgüşad çayı müəyyən qədər kirlənməyə məruz qalıb. Çünki Bərgüşad çayı üzərində, Dəstəgird molibden kombinatı vardı. O kombinatın iqtisadi əhəmiyyəti yüksək deyildi. Bu səbəbdən də ermənilər onu bağladılar. Amma müəssisənin ərazisində tullantılar var və çirklənməyə səbəb olur.

Bu çayın da su ehtiyatlarından daha səmərəli istifadə olunması üçün həcmi 50 milyon kubmetrə qədər olacaq "Bəxtiyarlı" su anbarının tikilməsi məqsədəuyğun sayılıb.

*–Ermənistanın transsərhəd çaylarını çirkləndirməsi ilə bağlı "düşmənçilik fəaliyyəti" beynəlxalq təşkilatlara çatdırılırmı?*

– Ölkəmizdə bu məsələ ilə bağlı dəfələrlə "həyəcan təbili" çalınıb. Beynəlxalq təşkilatlara danılmaz faktlar əsasında müraciətlər ünvanlanıb.

Hələlik Ermənistan tərəfini məsuliyyətə cəlb etmək mümkün olmayıb. Çünki bu ölkə hələ də Transsərhəd Su hövzlərinə dair Helsinki Konvensiyasına qoşulmayıb. 1992-ci ildə Finlandiyada qəbul edilmiş bu beynəlxalq sənəd transsərhəd səth və yeraltı sularının ekoloji cəhətdən etibarlı idarə olunmasına və qorunmasına yönəlmiş milli tədbirlərin və beynəlxalq əməkdaşlığın gücləndirilməsi üçün bir mexanizm rolunu oynayır.

Bunu nəzərə alaraq Ekologiya və Təbii Sərvətlər Nazirliyi çaylarımızın ekoloji böhranı və kritik vəziyyəti, o cümlədən Ermənistan tərəfindən davamlı çirkləndirilməsi baxımından çay və onun ekosistemi üçün gözlənilən ekoloji risklər barədə beynəlxalq təşkilatlara müraciət edib. Ermənistan tərəfindən bölgənin unikal ekosisteminin məhvinə səbəb olan transsərhəd çirklənmənin qarşısını almağa çağırış edilib.

*–Bu ilin sonunda Azərbaycan COP29 kimi böyük və vacib beynəlxalq tədbirə evsahibliyi edəcək. Tədbirdə bir sıra ekoloji problemlərin müzakirəsi nəzərdə tutulub. Bu problemlər arasında ölkəmizin su hövzələrinin çirkləndirilməsinin qarşısının alınması məsələsi də varmı?*

–COP29-da dünyanı narahat edən bir çox ekoloji problemlər müzakirə olunacaq. Bunlar, əsasən, qlobal su problemləri, torpaqların deqradasiyası, yaşıl kənd təsərrüfatı, ərzaq təhlükəsizliyi, sağlamlıq və s. kimi bir çox digər vacib məsələlərdir.

Şübhəsiz müzakirələrdə Ermənistanın ölkəmizin su ehtiyatlarını çirkləndirməsi dünya ictimaiyyətinin diqqətinə çatdırılacaq. İnanıram ki, COP29-un bu problemin həllinə müsbət təsiri olacaq.

***Pünhan ƏFƏNDİYEV,***
***Məsaim ABDULLAYEV***
***XQ***

Beynəlxalq həyat

## Avropa–Tokio–Seul üçbucağında müdafiə əməkdaşlığı

**ABŞ-ın ardınca Avropa ölkələri də Yaponiya ilə hərbi əlaqələrini aktiv şəkildə gücləndirmək qərarına gəlib. İyul ayında Almaniya, Fransa və İspaniyanın təyyarələri yerli Hava Hücumundan Müdafiə Qüvvələri ilə birgə təlimlər keçirmək üçün Yaponiyaya uçacaq. Bundan əlavə, Avropa İttifaqı hərbi texnikanın birgə istehsalı sahəsində Tokio və Seul ilə tərəfdaşlıq əlaqələri qurmaq niyyətindədir. Müttəfiqlər əmindirlər ki, asiyalı tərəfdaşlarla hərbi əməkdaşlığın gücləndirilməsi regionda müxtəlif böhranların öhdəsindən daha yaxşı gəlməyə imkan verəcək. Ancaq Çin düşünür ki, belə təlimlər regional gərginliyin daha da kəskinləşməsinə gətirib çıxaracaq.**



İyulun ortalarında Fransa, Almaniya və İspaniyadan Yaponiyaya bir neçə hərbi nəqliyyat və yanacaqdoldurma təyyarəsi Yaponiyaya uçacaq. Bundan başqa, bu ölkələrin çoxsaylı şəxsi heyəti də "gündoğar"a gələcək. Yaponiya Müdafiə Nazirliyi çərşənbə axşamı bildirib ki, Almaniya və İspaniyanın "Eurofighter Typhoons", eləcə də Fransanın "Rafale" təyyarələrindən ibarət desant qrupu yerli Hava Özünümüdafiə Qüvvələri ilə bir sıra təlimlər keçirəcək. İyulun 19-20 - də Yaponiyada keçiriləcək təlimlər Berlin, Paris və Madridin "Sakit okean səması" adlı iki aylıq üçtərəfli təlimlərinin ilk hissəsi olacaq. Bu, sadalanan ölkələrin Hərbi Hava Qüvvələrinin Hind-Sakit Okean regionunda ilk belə yerləşdirilməsi olacaq. Daha sonra onlar Hindistan, Avstraliya və ABŞ ilə birgə təlimlərdə iştirak edəcəklər. Eyni zamanda, adı açıqlanmayan alman nümayəndəsi "Japan Times" qəzetinə bildirib ki, Yaponiyadakı təlimdən sonra hər üç ölkənin hərbçiləri Avstraliyada keçiriləcək növbəti təlimlərə qatılacaqlar.

Yaponiyanın müdafiə naziri Minoru Kihara bu münasibətlə bildirib ki, avropalılarla birgə təlimlər ölkənin hərbi hava qüvvələrinin taktiki bacarıqlarını təkmilləşdirməklə yanaşı, "azad və açıq Hind-Sakit okean regionunun həyata keçirilməsinə kömək edir". Mütəxəssislərin sözlərinə görə, "azad və açıq Hind-Sakit Okean regionu" ifadəsi uzun müddətdir ki, rəsmi Tokio tərəfindən istifadə olunur. Məsələ ondadır ki, Yaponiya Çinin bu regionda fəaliyyətindən narahatdır və Tokio Pekin ilə qarşıdurmada ənənəvi olaraq dəstəyi Vaşinqtondan alıb. Ancaq Ukraynadakı hadisələrdən sonra və Tayvan ətrafında artan gərginlik fonunda Yaponiyanın Baş naziri Fumio Kisida Avropanın təhlükəsizliyinin Hind-Sakit okean bölgəsinin təhlükəsizliyindən "ayrılmaz" olduğu tezisini getdikcə daha çox müdafiə etməyə başlayıb və Avropa ölkələrini də müdafiə sahəsində əməkdaşlığa cəlb etməyə çalışır.

Belə əməkdaşlığa "Köhnə dünya"dan da can atırlar. Son bir neçə ildə bir sıra Avropa ölkəsi Yaponiya, Cənubi Koreya, Avstraliya və Filippin kimi ABŞ-ın digər regional müttəfiqləri ilə əlaqələri gücləndiriblər. Eyni zamanda, Avropa İttifaqı səviyyəsində Tokio ilə yaxınlaşma müşahidə edilir. Hələ bu ilin fevralında Aİ liderlərinin sammitlərindən birinin yekunlarına görə Brüssel təhlükəsizlik və müdafiə sahəsində tərəfdaşlıq sazişinin bağlanması ilə bağlı Yaponiya ilə danışıqlar aparmaq niyyətində olduğunu bəyan etmişdi. O vaxt söhbət ilk növbədə dəniz təhlükəsizliyi, kəşfiyyat məlumatlarının mübadiləsi və hibrid hücumlara qarşı mübarizə sahəsində əməkdaşlığın genişləndirilməsindən gedirdi.

Ötən bazar günü Yaponiyanın "Nikkei" qəzeti Avropa Komissiyasının adı açıqlanmayan yüksək səviyyəli nümayəndəsinə istinadən yazıb ki, Brüssel təkcə Yaponiya ilə deyil, həm də Cənubi Koreya ilə təhlükəsizlik sahəsində tərəfdaşlıq qurmaq niyyətindədir və bu əməkdaşlığın silah və hərbi texnikanın birgə istehsalına istiqamətlənəcəyini bildirib. Nəşrin məlumatına görə, tərəflər ilin sonuna kimi Tokio ilə nazirlər səviyyəsində konkret razılaşmalar əldə etmək niyyətindədirlər ki, yeni ildə Aİ Yaponiya və Avropa şirkətlərinin birgə layihələrini maliyyələşdirə bilsin.

Xatırladaq ki, ötən il Yaponiya Böyük Britaniya və İtaliya ilə birlikdə altıncı nəsil qırıcının hazırlanması haqqında müqavilə imzalamışdı. Bu ay Yaponiyanın Baş naziri Fumio Kisida və Ağ evin sahibi Co Baydenin müdafiə sənayesinin əməkdaşlığı, satınalmaları və davamlı inkişafı üzrə ikitərəfli forumun yaradılması ilə bağlı aprel razılaşması çərçivəsində ABŞ ilə danışıqlara başlayıb. Eyni zamanda, tərəflər təyyarələrin təmiri, eləcə də raketlərin birgə istehsalı üçün əlaqələri genişləndirməyə qərar veriblər. Bununla belə, həmfikir ölkələrlə daha sıx əlaqəyə doğru atılan hər bir addım ardıcıl olaraq Tokioda "İkinci Dünya müharibəsindən bəri ən sərt və mürəkkəb təhlükəsizlik mühiti" qarşısında qaçılmaz zərurət və Asiya-Sakit Okean regionunu daha təhlükəsiz hala gətirməyin yeganə mümkün yolu kimi təqdim edilir.

Lakin Rusiya və Çin bu məsələdə həmişə əks fikirdə olublar. Çinin "China Daily" qəzeti iyunun 26-da redaksiya məqaləsində yazıb ki, Avropa İttifaqının Yaponiya və Cənubi Koreya ilə planlaşdırılan əməkdaşlığı qlobal və regional dünya üçün son dərəcə mənfi nəticələrə səbəb olacaq. Pekində düşünürlər ki, geosiyasi gərginliyin və təhdidlərin artması nəticəsində təklif olunan tərəfdaşlıq istər-istəməz Şimal-Şərqi Asiyada və bütün Asiya-Sakit Okean regionunda gərginliyi daha da artıracaq: "Bu, regionda yaranmış və heç bir tərəfin maraqlarına cavab verməyən qapalı dairəyə daha böyük təkan verəcək".

***S.ELAY***
***XQ***

# "Bakı Neft-Mədən Avadanlıqları" ASC-nin 2023-cü il dekabrın 31-nə maliyyə hesabatı

*manatla*

| AKTİVLƏR | 2023-cü il | 2022-ci il |
|---|---|---|
| Torpaq, tikili və avadanlıqlar | 366.474 | 381.316 |
| **CƏMİ UZUNMÜDDƏTLİ AKTİVLƏR** | ***366.474*** | ***381.316*** |
| Ehtiyatlar | 579.334 | 437.559 |
| Qısa müddətli debitor borcları | 13.506 | 44.988 |
| Pul vəsaitləri və onların ekvivalentləri | 11.484 | 8.058 |
| Gələcək dövrün xərcləri | 832.520 | 747.077 |
| Sair qısa müddətli aktivlər | 11.968 | 9.651 |
| **CƏMİ QISAMÜDDƏTLİ AKTİVLƏR** | **1.448.812** | **1.247.333** |
| **CƏMİ AKTİVLƏR** | **1.815.286** | **1.628.649** |
| **KAPİTAL** | | |
| Ödənilmiş nominal (nizamnamə) kapital | 765.876 | 765.876 |
| Kapital ehtiyatları | 505.785 | 505.785 |
| Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər) | 95.796 | 211.453 |
| **CƏMİ KAPİTAL** | **1.367.456** | **1.483.114** |
| Vergi və sair məcburi ödənişlər üzrə öhdəliklər | 1.698 | 91.242 |
| Qısamüddətli kreditor borcları | 291.169 | 36.672 |
| Sair qısamüddətli öhdəliklər | 802 | 300 |
| Dvidendlər üzrə təsisçilərə borclar | 154.161 | 17.321 |
| CƏMİ QISAMÜDDƏTLİ ÖHDƏLİKLƏR | **447.830** | ***145.535*** |
| **CƏMİ ÖHDƏLİKLƏR** | **447.830** | **145.535** |
| **CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | **1.815.286** | **1.628.649** |

**Mənfəət və zərərlər hesabatı**
*(xərclərin funksiyaları üzrə)*

| | | |
|---|---|---|
| Əsas əməliyyat gəliri | 1.762.511 | 1.805.837 |
| Satışın maya dəyəri | (1.562.505) | (1.481.731) |
| **Ümumi mənfəət** | 200.006 | **324.106** |
| Ümumi və administrativ xərclər | (49.061) | (59.790) |
| **Əməliyyat mənfəəti (zərəri)** | 119.745 | **264.316** |
| **Vergi tutmadan əvvəl mənfəət (zərər)** | 119.745 | **264.316** |
| Mənfəət vergisi | (23.949) | (52.863) |
| **Hesabat dövründə xalis mənfəət (zərər)** | 95.796 | **211.453** |
| İştirak edən səhmlərin sayı | 382.938 | 382.938 |
| Hər səhm üzrə mənfəət | 0,25 | **0,55** |

**Pul vəsaitlərinin hərəkəti hesabatı**

| | | |
|---|---|---|
| Hesabat dövründə mənfəət /zərər | 95.796 | 211.453 |
| Qeyri-pul maddələri üzrə gəlirlər və xərclər (amortizasiya) | 45.301 | 45.660 |
| Ehtiyatlar üzrə (artım)/azalma | (59.692) | 12.481 |
| Əməliyyat debitor borclarında və gələcək dövrün xərclərində (artım)/azalma | (154.994) | (40.919) |
| Sair qısamüddətli aktivlərdə (artım)/azalma | (2.317) | 428 |
| Cari vergi öhdəliklərində artım/(azalma) | (49.021) | 80.941 |
| Əməliyyat kreditor borclarında artım/(azalma) | 201.722 | (13.359) |
| Əməliyyat fəaliyyətindən yaranan pul vəsaitlərinin xalis hərəkəti | **107.995** | **296.685** |
| Uzunmüddətli maddi və qeyri- maddi aktivlərin əldə edilməsi | (30.460) | |
| İnvestisiya fəaliyyətindən yaranan pul vəsaitlərinin xalis hərəkəti | (30.460) | |
| Təsisçidən borc şəklində daxil olma | 502 | (31.800) |
| Verilmiş dividend | (74.612) | (257.254) |
| **Maliyyələşdirmə üzrə fəaliyyətdən pul vəsaitlərinin xalis hərəkəti** | **(74.110)** | **(289.054)** |
| **İlin əvvəlinə pul vəsaitləri və bank overdraftları** | **8.058** | **427** |
| **İlin sonuna pul vəsaitləri və bank overdraftları** | **11.483** | **8.058** |

**Kapitalda dəyişikliklər hesabatı**

| | **Nizamnamə kapitalı** | **Kapital ehtiyatları** | **Bölüşdürülməmiş mənfəət** | **Cəmi kapital** |
|---|---|---|---|---|
| **2021-ci il dekabrın 31-nə qalıq** | **765.876** | **352.471** | **159.780** | **1.278.127** |
| 2021-ci ilin kapital ehtiyatlarında düzəlişlər | | 159.780 | (159.780) | - |
| 2021-ci il üzrə xalis mənfəət | | | 211.453 | 211.453 |
| Elan olunmuş dividend | | (6.466) | | (6.466) |
| **2022-ci il dekabrın 31- nə qalıq** | **765.876** | **505.785** | **211.453** | **1.483.114** |
| 2022-ci ilin kapital ehtiyatlarında düzəlişlər | | (1.800) | 1.800 | - |
| 2022-ci il üzrə xalis mənfəət | | | 95.796 | 95.796 |
| Elan olunmuş dividend | | | (95.796) | (95.796) |
| **2023-cü il dekabrın 31-nə qalıq** | **765.876** | **505.785** | **97.596** | **1.367.456** |

**"BAKI NEFT MƏDƏN AVADANLIQLARI" ASC-nin idarə heyətinə**

Mən, "**BAKI NEFT MƏDƏN AVADANLIQLARI**" ASC-nin 2023-cü il dekabrın 31-nə maliyyə vəziyyəti,mənfəət və zərər,məcmu gəlirlər, kapitalda dəyişikliklər və göstərilən tarixdə başa çatan il üçün pul vəsaitlərinin hərəkəti haqqında hesabatdan, habelə uçot siyasətinin əhəmiyyətli prinsiplərinin qısa təsviri də daxil olmaqla, maliyyə hesabatlarına edilən qeydlərdən ibarət maliyyə hesabatlarının auditini apardım.

Məncə, əlavə edilmiş maliyyə hesabatları ASC-nin 2023-cü il dekabrın 31-nə maliyyə vəziyyətini, habelə maliyyə nəticələrini və göstərilən tarixdə başa çatan il üçün pul vəsaitlərinin hərəkətini Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun olaraq bütün əhəmiyyətli aspektlərdə ədalətli əks etdirir (*və ya düzgün və ədalətli təsəvvür yaradır*).

Audit təqdim olunmuş sənədlər əsasında aparılmışdır. Təqdim olunmuş sənədlərin düzgünlüyünə təsərrüfat subyektinin rəhbərliyi məsuliyyət daşıyır.

**Rəy üçün əsaslar**

Mən, auditi beynəlxalq audit standartlarına (BAS-lara) uyğun aparmışam. Bu standartlar üzrə mənim məsuliyyətim əlavə olaraq hesabatın "Maliyyə hesabatlarının auditi üçün auditorun məsuliyyəti" bölməsində təsvir edilir. Mən ‚Azərbaycan Respublikasındakı maliyyə hesabatlarının auditinə aid etik normaların tələblərinə uyğun olaraq ASC-dən asılı deyiləm və mən digər etik öhdəliklərimi bu tələblərə uyğun yerinə yetirmişəm. Məncə, əldə etdiyim audit sübutları rəyimi əsaslandırmaq üçün yetərli və münasibdir.

**Maliyyə hesabatlarına görə rəhbərliyin və iqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərin məsuliyyəti**

Rəhbərlik, maliyyə hesabatlarının BAS-lara (beynəlxalq maliyyə hesabatları standartlarına) uyğun hazırlanmasına , düzgün təqdim edilməsinə və rəhbərliyin fikrincə, dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhrif olmadığı maliyyə hesabatlarının hazırlanmasına imkan verən zəruri daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarını hazırladıqda, rəhbərlik ASC-ni ləğv etmək və ya işini dayandırmaq niyyətində olmadığı, yaxud bunu etməkdən başqa münasib alternativ yaranmadığı halda, ASC-nin fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsiz fəaliyyətə aid olan məsələlər haqqında məlumatların açıqlanmasına və mühasibat uçotunun fasiləsiz fəaliyyət prinsipinin istifadə edilməsinə görə rəhbərlik məsuliyyət daşıyır.

İqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslər ASC-nin maliyyə hesabatlarının verilmə prosesinə nəzarətə görə məsuliyyət daşıyırlar.

**Maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti**

Mənim məqsədim maliyyə hesabatlarında dələduzluq və ya səhvlər nəticəsində, əhəmiyyətli təhriflərin olub-olmadığına dair kafi əminlik əldə etmək və rəyim daxil olan auditor hesabatını tərtib etməkdir. Kafi əminlik, əminliyin yüksək səviyyəsidir, lakin o zəmanət vermir ki, əhəmiyyətli təhrif mövcud olduqda, BAS-lara uyğun aparılmış audit onu həmişə aşkarlasın. Təhriflər ,dələduzluq və ya səhvlər nəticəsində yarana bilər və ayrılıqda ,yaxud məcmu olaraq istifadəçilərin maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlarına təsir etmək ehtimalı yarandığı halda, əhəmiyyətli hesab olunur.

**Sərbəst auditor: K. Ə. Alıyev**
**8 aprel 2024-cü il**

## BİLDİRİŞ

"Gəncə-Nəqliyyat-05" ASC Dövlət Əmlak Komitəsinin müvafiq Sərəncamı ilə yaradılmış və emissiya prospekti təsdiq edilmişdir. Cəmiyyətin inzibati binasında təmir işləri aparılarkən əldə olan emissiya prospektinin nüsxəsi yararsız hala düşmüş və içərisindəki məlumatlar tamamilə məhv olmuşdur. Ona görə də həmin nüsxə etibarsız hesab edilir. "Gəncə-Nəqliyyat-05" ASC-nin emissiya prospektinin yeni nüsxəsinin əldə edilməsi üçün Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinə müraciət olunmuşdur.

## BİLDİRİŞ

"Gəncə-Yükdaşıma" ASC Dövlət Əmlak Komitəsinin müvafiq Sərəncamı ilə yaradılmış və emissiya prospekti təsdiq edilmişdir. Cəmiyyətin inzibati binasında təmir işləri aparılarkən əldə olan emissiya prospektinin nüsxəsi yararsız hala düşmüş və içərisindəki məlumatlar tamamilə məhv olmuşdur. Ona görə də həmin nüsxə etibarsız hesab edilir. "Gəncə-Yükdaşıma" ASC-nin emissiya prospektinin yeni nüsxəsinin əldə edilməsi üçün Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinə müraciət olunmuşdur.

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 132 (30536) 28 iyun 2024-cü il, cümə axşamı

İDMAN

## “Asiya uşaqları”nda 4 mükafat

**Azərbaycan taekvondoçuları Rusiyanın Yakutsk şəhərində keçirilən “Asiya uşaqları” VIII Beynəlxalq İdman Oyunlarında 4 mükafat qazanıblar.**



Vasif Səlimov (63 kq) qızıl medala sahib çıxıb. İlyas Hətəmli (48 kq) gümüş,

Ziya Həsənli (55 kq) bürünc medala layiq görülüb.

Qız taekvondoçular arasında isə 63 kiloqram çəki dərəcəsində yarışan Fatimə Həsənova 3-cü yeri tutub.

## Avropa birinciliyi: 2 boksçumuz yarımfinalda

**Azərbaycanın iki boksçusu Bosniya və Herseqovinanın paytaxtı Sarayevoda yeniyetmələr arasında keçirilən Avropa birinciliyində yarımfinala yüksəlib.**



Komandamızın üzvləri Aylin Nəzərova (48 kq) və Əminə Tağı (52 kq) final uğrunda, müvafiq olaraq

italiyalı Giorgia La Rosa və rumıniyalı Maria Semeniçiuçlə qarşılaşacaqlar.

Hər iki boksçumuz yarımfinala yüksəlməklə özləri üçün azı bürünc medalı təmin ediblər.

Qeyd edək ki, Avropa birinciliyində yarımfinal döyüşləri iyunun 28-də keçiriləcək.

## Qitə çempionatında millimiz 5 medal qazanıb

**Serbiyada keçirilən güləş üzrə U-17 Avropa çempionatında yunan-Roma güləşi yarışları başa çatıb.**



Azərbaycan güləşçiləri daha 5 medal qazanıblar.

Turan Daşdəmirov (51 kq) fəxri kürsünün ən yüksək pilləsində yer alıb. Ayxan Cavadov (60 kq) həlledici görüşdə Ermənistan güləşçisini məğlub edib. Təmsilçimiz Aleks Marqaryandan 9:4 hesabı ilə güclü olub. Səid Paşayev (92 kq) isə finalda serbiyalı Stevan Kojiçə tam üstünlüklə qalib gələrək, qızıl medala sahib çıxıb.

Yusif Əhmədli (71 kq) finalda həmkarlarının uğurunu təkrarlaya bilməyib. O, belaruslu Kiril Valeuskiyə (AİN) 3:7 hesabıyla məğlub olub.

45 kq çəkidə mübarizə aparan Nicat İsgəndərli günü bürünc medalla başa vurub. O, norveçli Abubakar Saqaya 10:6 hesabı ilə qalib gəlib.

Bununla da, yunan-Roma güləşi yığmamız Avropa çempionatında 3 qızıl, 2 gümüş, 4 bürünc medala sahib çıxıb.

Qeyd edək ki, yunan-Roma güləşçilərimiz Avropa çempionatının 2-ci günündə 1 gümüş, 3 bürünc qazanmışdılar.

*Leyla QURBANOVA*
*XQ*

TƏBİİ MÜALİCƏ ÜSULLARI

**İppoterapiya animaloterapiyanın, yəni heyvanla aparılan müalicənin bir sahəsidir. Həmin müalicə formasının banisi fransız həkim və psixoloqu Y.Lalleri onunla ötən əsrin 60-70-ci illərində məşğul olub. İppoterapiya dünyada qəbul edilən və tanınan, müxtəlif xəstəlikərin müalicə, remissiya və sağalmasında sosial uyğunlaşma vasitəsi kimi tətbiq edilən müalicə növüdür, lakin onunla həkim-ippoterapevtin, yəni mütəxəssisin məsləhəti ilə məşğul olmaq lazımdır.**

# At igidə qardaşdır

## *O həm də şəfa qaynağıdır*



Atla müalicənin iki növü var: ipponeterapiya - atla təmas hesabına, raytterapiya - at üzərində gəzinti ilə aparılan müalicədir. İppoterapiya somatik və psixi xəstələrə zədədən sonra və rekonvalessensiya dövründə bərpaedici təsir göstərmək məqsədilə aparılır. Həmin müalicə üsulu ürək-damar, həzm və digər sistem xəstəliklərinin sosial bərpası məqsədi ilə aparılır.

Antik dövrün məşhur həkimi Hippokrat yaralıların və bir sıra xəstəliklərdən əziyyət çəkənlərin atla gəzintidən sonra sürətlə sağaldığını qeyd edirdi. Son 30-40 ildə atla gəzinti Almaniya, Fransa, İsveçrə, Polşa və Skandinaviya ölkələrində inkişaf edib. Həmin ölkələrdə, ümumən dünyanın 45-dən artıq ölkəsində ippoterapiya ilə məşğul olan xüsusi müalicə mərkəzləri var. Alimlər hesab edirlər ki, atla müalicəvi gəzinti əsasən dayaq-hərəkət sistemi xəstəliklərinin və psixisosial pozğunluqların bərpasında faydalı təsir göstərir.

Atla müalicəvi gəzinti zamanı eyni vaxtda bütün əzələ qrupları işləyir, at üzərində oturarkən müvazinəti itirməmək və yıxılmamaq üçün əzələlər fəal hərəkətdə olur. At belində oturarkən qorxu hissi yoxa çıxır, özünəinam, iradə və dözüm yaranır. Müalicə kompleks şəkildə - müalicəvi gimnastika, masaj və s. ilə aparılır. Uşaq serebral iflici zamanı spasitik sindromların azalması müşahidə olunur.

Müalicəvi bədən tərbiyəsinin bir növü sayılan atla gəzinti - raytterapiya zamanı simpatik sinir sisteminin stimullaşması nəticəsində bütün mübadilə prosesləri fəallaşır. Atın bədən temperaturu insandakından 1,5 dərəcə yüksəkdir və bunun nəticəsində ətraf əzələlərdə qan dövranı yaxşılaşır. Hərəki pozğunluqla müşayiət olunan sinir sistemi xəstəlikləri, inkişaf qüsurları, zədə və operativ müdaxilələrdən sonrakı bərpa prosesi, dayaq-hərəkət aparatı və daxili orqanların xəstəlikləri, sosial uyğunlaşma pozğunluqları zamanı ippoterapiya ilə müalicə olmaq məsləhət görülür. Lakin həmin xəstəliklərin kəskinləşməsi zamanı, hemofiliya və sümük kövrəkliyi ilə müşayiət olunan xəstəliklərdə onun tətbiqi yolverilməzdir.

Müasir dövrdə uroloq və androloqlar birmənalı şəkildə təsdiq edirlər ki, at belində gəzmək prostat vəzi xəstəliklərinin bir nömrəli dərmanıdır.

*Süleyman QARADAĞLI*

Hava

## Aranda yağmursuz, dağlarda yağış və duman...



**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən, iyunun 28-də Bakıda və Abşeron yarımadasında dəyişkən buludlu olacaq. Əsasən yağmursuz keçəcək. Lakin gecə yarımadanın bəzi yerlərində qısamüddətli az yağış yağacağı, şimşək çaxacağı ehtimalı var. Şimal-qərb küləyi əsəcək, gündüz mülayim cənub-şərq küləyi ilə əvəz olunacaq.**

Gecə 18-23°, gündüz 26-29° isti olacaq. Atmosfer təzyiqi 758 mm civə sütunu, nisbi rütubət gecə və gündüz 50-60 faiz olacaq. Abşeron çimərliklərində gözlənilən dəniz suyunun temperaturu: Şimal çimərliklərində: (Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəh, Zaqulba) 23-24° isti, Cənub çimərliklərində: (Türkan, Hövsan, Sahil, Şıx) 24-25° isti olacaq. Azərbaycanın rayonlarında əksər rayonlarda əsasən yağmursuz keçəcək. Lakin bəzi dağlıq və dağətəyi rayonlarda fasilələrlə yağış yağacağı, şimşək çaxacağı gözlənilir. Qısamüddətli leysan xarakterli olacağı, dolu düşəcəyi ehtimalı var. Gecə və səhər arabir duman olacaq. Şərq küləyi əsəcək. Gecə 15-20°, gündüz 25-30°, dağlarda gecə 6-11°, gündüz 13-18° isti olacaq.

*Q.QASIMOV*
*XQ*

AVROFUTBOL – 2024

# Türkiyə 16 güclü komanda sırasında



**Almaniyada təşkil olunan futbol üzrə Avropa çempionatında F qrupunda Türkiyə və Çexiya yığmaları arasında baş tutan görüşdə “ay-ulduzlular” rəqiblərinə 2:1 hesabı ilə qalib gəliblər. Bununla da Türkiyə yığması 1/8 finala yüksəlib.**

Dünən Türkiyə-Çexiya yığmaları arasında görüş başa çatan kimi Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan bu ölkənin milli komandasının rəhbərliyini və oyunçularını qələbə münasibətilə telefonla təbrik edərək, qarşıdakı oyunlarda parlaq qələbələr arzulayıb.

Qeyd edək ki, Türkiyə millisinin futbolçusu Barış Alper Yılmaz görüşün ən yaxşı oyunçusu adına layiq görülüb. Yeri gəlmişkən, Türkiyə və Çexiya yığmalarının oyununda “antirekord” göstərici qeydə alınıb. Belə ki, matç zamanı isveçrəli baş hakim Sandro Şörer futbolçulara 19 vərəqə (17 sarı, 2 qırmızı) göstərib.

Avropa çempionatının qrup mərhələsini uğurla adlayan yığmalardan biri isə qonşu Gürcüstanın millisidir. Komandanın üzvü Corc Mikautadze Avropa çempionatları tarixində qrup mərhələsinin ilk üç oyununda fərqlənməyi bacaran 9-cu futbolçu olub. Qeyd edək ki, Corc Almaniyada təşkil olunan AVRO-2024-ün bombardirləri siyahısına 3 qolla başçılıq edir.

Portuqaliya millisinin 1/8 finalına yüksələ bilməməsi bu ölkənin azarkeşlərini çox məyus edib. Millinin 39 yaşlı ulduz futbolçusu Kriştianu Ronaldu karyerasında ilk dəfə olaraq böyük turnirlərin (dünya və Avropa çempionatları) qrup mərhələsində qol vura bilməyib.

Xatırladaq ki, qitə çempionatının qrup mərhələsinin oyunlarının başa çatması ilə Avro-2024-də 1/8 finalın bütün cütləri müəyyənləşib. “Pley-off” mərhələsinə iyunun 29-da start veriləcək. İlk olaraq İsveçrə və İtaliya millilləri üz-üzə gələcəklər. “Pley-off”da qardaş ölkənin rəqibi Avstriya yığması olacaq. Bu matç 2 iyulda baş tutacaq.

*M.HACIXANLI*
*XQ*



Foto Elşən AĞALAR

Sağlamlıq

## Pomidor tərəvəzdir – çox dərmana əvəzdir

**Pomidor yaz və yay aylarının əvəzolunmaz tərəvəzidir. Onu günün hər saatında yemək mümkündür. Səhər yeməyində və salatlarda çiy, yeməklərdə bişmiş şəkildə istifadə edilir. Ekspertlər pomidorun şirəsinin özündən daha xeyirli olduğunu deyirlər. Faydaları sonsuz olan bu tərəvəzin şirəsi də bir çox problemləri həll edir.**

Pomidoru bu qədər dəyərli edən onun tərkibindəki likopendir. Bu maddə ürək xəstəlikləri və xərçəng riskini azaltmağa kömək edir. Likopen daha çox pomidorun qabığında olur. Qabıq nə qədər qırmızı olarsa, pomidor bir o qədər çox faydalıdır.



Folat, C və K vitaminləri və kaliumla zəngin olan pomidorun 95 faizi isə sudur. Qalan 5 faiz lif və karbohidratlardan ibarətdir. Orta ölçülü pomidorda təxminən 1,5 qram lif var.

Tədqiqatlar göstərir ki, likopen pis xolesterolu azaldır. Həmçinin iltihabın qarşısını alır və qan damarlarına qoruyucu təsir göstərərək laxtalanma riskini minimuma endirir. Tərkibində yüksək miqdarda likopen olan pomidor dərini günəş yanıqlarından da qoruya bilər.

Bişmiş və ya qurudulmuş, emal edilmiş pomidor, təzəsindən daha çox likopen ehtiva edir. Tomat pastası, ketçup, pomidor şirəsi və pomidor tərkibli souslar orqanizmin ehtiyacı olan likopenin 80 faizini təmin edir. Ancaq bunlardan ən faydalısı pomidor şirəsidir.

Ev şəraitində pomidoru şirə halına gətirib gündə 1 stəkan içmək xolesterin səviyyəsini qısa müddətdə aşağı salır.

*Z.HÜSEYNLİ*
*XQ*

## ALLAH RƏHMƏT ELƏSİN

Şirvan şəhərindən İlqar Abbasov AMEA-nın akademik Yusif Məmmədəliyev adına Neft-Kimya Prosesləri İnstitutunun baş direktoru Vaqif Abbasova qardaşı

**MÜTƏLLİM ABBASOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 E-mail: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994(51) 280-16-44

“Xalq qəzeti”nin kompüter mərkəzində yığılıb və səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 4090
SİFARİŞ 1412
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Vaqif BAYRAMOV
Çapa imzalanmışdır 00:00